Azərbaycan Respublikası
**Səhiyyə Nazirliyi**

**Azərbaycan Tibb Universiteti**

1 May 2024

AZƏRBAYCAN TİBB UNİVERSİTETİ




# I MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİ - 50 İL

I Müalicə-Profilaktika Fakültəsi

**İdeya müəllifi və Redaktor: Elşad Novruzov**

**Tərtibatçılar: Səbinə Şadlinskaya**
**Abızadə Rəşad**

# I MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİ-50

Kitab Azərbaycan Tibb Universitetinin I Müalicə - Profilaktika Fakültəsinin 50 illik yubileyi ilə əlaqədar hazırlanmışdır.

Nəşr edilən kitabda Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Tibb fakültəsindən, onun bazası əsasında yaradılan Tibb İnstitutundan, 1974-cü ildə I Müalicə - Profilaktika Fakültəsinin yaradılması barədə, eləcə də, Respublikanın dövlət müstəqilliyinin bərpa edildiyi ildə yeni statusa keçən Azərbaycan Tibb Universitetində Fakültəyə rəhbərlik etmiş dekanlar, kafedraların tarixi, fakültənin hal-hazırki strukturu, tələbə həyatı barədə geniş məlumat verilib.

Kitabdan Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti, səhiyyə və təhsil işçiləri, tələbə və həkimlər, məzunlar eləcə də geniş oxucu kütləsi istifadə edə bilər.

# ÖN SÖZ



Düz 105 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabr ayının 1-də ilk universitetin açılması haqqında qanun qəbul etdi.”Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında” adlanan bu qanunda universitetin biri tibb fakültəsi olmaqla dörd fakültədən ibarət olması göstərilirdi. Qərarda operativ cərrahiyyə kafedrasının əməkdar professoru Vasiliy Razumovskinin rektor, patoloji anatomiya kafedrasının professoru İvan Şirokoqorovun, o olmadığı dövrdə isə müvəqqəti olaraq professor Aleksandr Levinin tibb fakültəsinin dekanı təyin olunduğu göstərilmişdir. Beləliklə, Azərbaycanda ilk milli tibbi kadrların yetişdirilməsinə başlanılmış və 1922-ci ildə tibb fakültəsinin ilk buraxılışı olmuş, 30 məzuna şərəfli həkim adı verilmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1930-cu il iyun ayının 19-da 287\99 saylı qərarı ilə Bakı Dövlət Universiteti tibb fakültəsinin müstəqil, 2 fakültədən ibarət tibb institutuna çevrilməsinə göstəriş verildi. Bu fakültələr müalicə-profilaktika və sanitariya-gigiyena fakültələri

idi. 1940-cı illərdə fakültənin illik qəbulu 500 nəfərə yaxın idi.

Professor Zəhra xanım Quliyevanın Universitetə rəhbərlik etdiyi dövrdə 1974-cü il 5 may tarixli 89 nömrəli əmri ilə Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsi əsasında iki eyni hüquqlu fakültə yaradılmışdır Onlardan biri Birinci Müalicə profilaktika fakültəsi adlandırılmışdır.

23 avqust 1974-cü il 293 nömrəli əmr ilə I Müalicə profilaktika fakültəsi ümumilikdə 300 nəfərə yaxın ilk tələbələrini qəbul etmişdir.

Fakültənin ilk dekanı professor Sədrəddin Kərimov olmuşdur. O fakültəyə 1974-1975-ci illərdə rəhbərlik etmiş, bundan əlavə”II daxili xəstəliklər” kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Azərbaycanda limfa sisteminin klinik patologiyalarını öyrənən ilk alimlərdən olmuş əməkdar elm xadimi professor Şamil Quliyev 1975-1981-ci illərdə fakültəmizin dekanı kimi çalışmış, həmçinin pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrasının müdiri vəzifəsini icra etmişdir.

1981-1983-cü illərdə Fakültəyə Nevrologiya kafedrasının müdiri, əməkdar elm xadimi professor Törə xanım Qədirova rəhbərlik etmişdir. Professorun adı Azərbaycan uşaq nevrologiyası tarixinə qızıl hərflərlə yazılmışdır.

Azərbaycan Rentgenologiya və Radiologiya sahəsində tibb elmlər doktoru adına layiq görülən ilk azərbaycanlı alim , 1969-1973-cü illərdə müalicə profilaktika fakültəsinin dekanı olmuş professor Bahadur Baxşıyev 1983 -1988-ci illərdə doğma fakültəmizə yenidə rəhbərlik etmişdir.

Uzun illər Bioloji Kimya kafedrasının müdiri vəzifəsində çalışmış professor Arif Əfəndiyev 1988-1989-cu illərdə fakültəyə rəhbərlik etmişdir.

1989-1992-ci illərdə professor, Həsən Sultanov dekan vəzifəsini icra etmiş, həmçinin görkəmli alim I Cərrahi xəstəliklər kafedrasının müdiri kimi fəallliyyət göstərmişdir.

Normal Fiziologiya kafedrasına rəhbərlik etmiş professor Faiq Cəfərov 1993-1995-ci illərdə fakültə dekanı kimi çalışmışdır.

Bu gün Sitologiya, embriologiya və histologiya kafedrasına uğurla rəhbərlik edən professor Eldar Qasımov 1995-1999-cu illərdə doğma Fakültəmizin dekanı kimi fəaliyyət göstərmişdir.

Hal hazırda Azərbaycan Tibb Universitetinin tədris işləri üzrə prorektoru, Patoloji Fiziologiya kafedrasının müdiri, ə.e.x. professor Sabir Əliyev 1999-2001-ci illərdə Fakültənin dekan vəzifəsini icra etmişdir .

2001-2011-ci illərdə fakültəyə əməkdar müəllim, tibb elmləri doktoru, Onkologiya kafedrasının dosenti Nurməmməd Şixəmmədov rəhbərlik etmişdir,

2011-2016-ci illərdə profesor Abuzər Qazıyev, 2016-2019-cu illərdə dosent Qorxmaz Əhmədov, hal hazırda isə Fakültəmizə dosent Elşad Novruzov rəhbərlik edir.

1974-cu ildə Fakültə , 11 kafedra ilə fəaliyyət göstərirdi. Bugün isə fakültənin nəzdində 18 kafedra fəaliyyət göstərir ki, bunlar Anesteziologiya ve reanimatologiya , I Cərrahi xəstəliklər, III Cərrahi xəstəliklər, I daxili xəstəliklər, Dermatovenerologiya, İnsan anatomiyası və tibbi terminologiya, Kliniki allerqologiya və immunologiya, Kliniki farmakologiya, I mamalıq-ginekologiya, Məhkəmə təbabəti, Nevrologiya, Neyrocər-

rahlıq, Oftalmologiya, Onkologiya, Sitologiyada, embriologiya və histologiya kafedrası, Tibbi biologiya və genetika, I Uşaq xəstəlikləri, Uşaq cərrahlığı kafederasıdır.

18 kafedrada ümumilikdə 373- nəfər professor – müəllim heyəti azərbaycan tibb elminin inkişafında yorulmadan xidmət edirki, bunlardan 252 nəfəri tibb üzrə fəlsəfə dokturu, 65 nəfəri isə tibb elmlər doktoru elmi dərəcəsinə malikdir. Son beş ildə kafedra əməkdaşları 4 patentin müəllifi və 9 qrantın qalibi olmuşdur. Həmçinin Fakültməzin professor- müəllim heyəti arasında çox saylı, Əməkdar müəllim, Əməkdar həkim , Əməkdar elm xadimi adına layiq görülmüş əməkdaşlar vardır.

2022-ci ildə Azərbaycan Tibb Universiteti, ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında ilk və yeganə universitet olaraq , üç ixtisas üzrə Beynəlxalq Akreditasiyadan uğurla keçmişdir ki, onlardan biri də müalicə işi ixtisasıdır. Bu gün Fakültəmizdə bu ixtisas üzrə ümumilikdə 1706 nəfər yerli, 567 nəfər əcnəbi olmaqla 2273 tələbə 3 dildə təhsil alır. Hər tədris ilinin əvvəlində I Müalicə-Profilaktika fakültəsinə daxil olan I kurs tələbələri ilə görüş keçirilir, və hər bir tələbə fakültə tərəfindən hazırlanmış məlumat kitabçası ilə təmin edilir. Məlumat kitabçasında Universitet kampusu, tədris prosesi və keçirilmə qaydası haqqında ətraflı məlumat verilir. Bu da yeni qəbul olmuş tələbələrin universitet həyatına və tədrisə adaptasiya olunmasında yaxından köməklik göstərir.

Fakültə tərəfindən, təhsil alan tələbələrin bilik və bacarıqlarının təkmilləşdirilməsi və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə mütəmadi olaraq müxtəlif layihələr həyata keçirilir.Bunlara misal olaraq “Rezident həyatı yaşa” , “Klinika Təməl Fənlərdə” adlı

onlayn vebinarlar silsiləsi, fakültənin sosial şəbəkə hesablarında keçirilən müxtəlif sual yarışmalarını göstərmək olar.

Bundan əlavə fakültəmizin tələbələri öz elmi tədqiqat işləri ilə yerli və xarici konfranslarda məruzə ilə iştirak edirlər . 6 illik ali baza tibb təhsilini bitirdikdən sonra “Həkim” ali peşə dərəcəsinə yiyələnən məzunlarımız 46 ixtisas üzrə rezidentura təhsillərini davam etdirmək şansına malikdirlər.

Hörmətlə
Professor Gəray Gəraybəyli
Azərbaycan Tibb Universitetinin rektoru

# *I Müalicə-Profilaktika Fakültəsinə rəhbərlik etmiş dekanlar*

## 1974-1975 Prof. Sədrəddin M. Kərimov



Sədrəddin Kərimov 1924-cü il aprelin 1 də Goranboy rayonunda hamının çox böyük ehtiramla yanaşdığı ziyalı ailəsində dünyaya gəlib. Orta məktəbi 15 yaşında bitirmişdi.

Tibb elminə marağı onu Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə - Profilaktika fakültəsinə gətirdi, 1943-cü ildə ali təhsilini müvəffəqiyyətlə başa vuran kimi ordu sıralarına çağırıldı. S.Kərimov döyüşə Xarkov şəhərindən başladı. Polşa, Macarıstan, Rumıniya, Çexoslovakiya döyüş cəbhələrində şərəflə vuruşdu və sanitar rotanın komandiri vəzifəsində, Berlin şəhərinə qədər döyüş yolu keçdi. Sədrəddin həkim 1943-1946-cı illər cəbhədə yüzlərlə yaralının həyatını xilas etmiş və 1946-cı ildə tibb xidməti mayoru kimi ordudan tərxis olundu. Ordudan qayıdan Sədrəddin Kərimov 8 il Qasım İsmayılov (indiki Goranboy - red.) rayonunda sahə xəstəxanasında baş həkim işləyir. Bununla yanaşı, tibb sahəsində elmi axtarışlarla da məşğul olur və yorulmadan çalışırdı. Sədrəddin Kərimov 1954-cü ildən etibarən Nəriman Nərimanov adına ATİ-də klinik ordinator vəzifəsindən kafedra müdiri vəzifəsinə qədər yüksəlmişdir. 1960-cı ildə namizədlik dissertasiyasını uğurla başa çatdıraraq elmi dərəcə almışdır. Sədrəddin Kərimovun elmi

tədqiqatları Azərbaycan tibb elminin inkişafında müsbət rol oynamışdı.

Professor Sədrəddin Kərimov ilk işlərini hipertoniya xəstəliyinin respublika əhalisinin arasında yayılması məsələlərinə, sonrakı tədqiqatlarını isə aterosklerozun, miokard infarktının Azərbaycanın müxtəlif iqlim-coğrafi zonalarında yayılmasının öyrənilməsinə həsr etdi. Alim bununla kifayətlənmədi, aldığı nəticələri "Ateroskleroz və miokard infarktının Azərbaycanın iqlim-coğrafi şəraitində epidemioloji və klinik öyrənilməsi" mövzusunda doktorluq dissertasiyasında cəmləmiş və 1971-ci ildə müvəffəqiyyətlə müdafiə etdi, tibb elmləri doktoru alimlik dərəcəsini almışdır.

Sədrəddin Kərimovun elmi fəaliyyətində ürəyin işemik xəstəliyinin immunoloji aspektlərinin öyrənilməsi xüsusi yer tuturdu. Rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birgə qanın laxtalanma sisteminin, trombositar şaxənin, elektrolit, lipid, karbohidrat mübadilələrinin, mikroelementlərin, immunoloji göstəricilərin, irsiyyət nəzərə alınmaqla xromosom abberasiyanın və müasir patogenetik müalicənin dinamik müəyyənləşdirilməsi məsələlərini öyrənirdilər. Sədrəddin müəllim 1974-cü ildən 1991-ci ilədək Tibb İnstitutunun "Daxili xəstəliklər" kafedrasına rəhbərlik etmişdir, Müalicə - Profilaktika fakültəsinin dekanı olmuş və bacarıqlı terapevt kimi ad-san çıxardı. Professor Sədrəddin Kərimov fəaliyyəti dövründə 140-dan artıq elmi əsərin, 3 dərsliyin, 7 metodik göstəricinin müəllifi oldu, çoxlu sayda elmlər doktorları və namizədləri hazırladı. Sədrəddin Kərimov Respublika Terapevtlər Cəmiyyətinin sədri kimi 1990-cı ilin dekabrında keçirilmiş Azərbaycan Terapevtlərinin I

Qurultayının əsas təşkilatçılarından biri və qurultay materiallarını əhatə edən iki cildlik nəşrin redaktoru oldu. Sədrəddin müəllim bu bacarığına görə SSRİ Səhiyyə Nazirliyi və Ümumittifaq Elmi Terapevtlər Cəmiyyətinin fəxri fərmanı ilə təltif olunmuş və Botkin adına medala layiq görülmüşdü. Mükafatlardan söz düşmüşkən, professor müxtəlif illərdə neçə-neçə orden və medallarla təltif edilmişdi. O,2000- ci ildə vəfat etmişdir.

# 1975-1981 Prof. Şamil B. Quliyev



Quliyev Şamil Bəşir oğlu – 15 may 1931-ci ildə Füzuli rayonunun Şıxımlı kəndində anadan olmuşdur.

1946-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb İnstitutuna daxil olmuş, 1952-ci ildə institutu bitirdikdən sonra Şuşa rayon xəstəxanasının cərrahi şöbəsinə müdir təyin edilmişdir.

27 yanvar 1953-cü ildə Quliyev Ş.B. hərbi qulluğa səfərbər edilmiş, əvvəl Qaradəniz donanmasının baş hospitalında, hərbi gəmilərdə, sonralar isə Ukraynanın Nikolayev şəhərində yerləşən 8012 nömrəli hərbi dəniz donanmasının hospitalında qulluq etmişdir.

1957-ci ildə hərbi qulluqdan təxris edildikdən sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin hemotologiya və qanköçürmə institutunda klinik ordinaturaya daxil olmuş, 1959-cu ildə oranı bitirmişdir.

1959-1962-ci illərdə AR SN–nin rentgenologiya, radiologiya və onkologiya ETİ aspirantı olmuş və 1962-ci ildə "Onkolojı xəstəliklərin klinikasında qanın laxtalanma sisteminin və trombositoqrammanın vəziyyəti" mövzusunda namizədlik dissertasiyası müda-fiə etmişdir.

Bundan sonra da Quliyev Ş.B. rentgenologiya, radiologiya və onkologiya ETİ-də elmi-təcrübi fəaliyyətini davam etdirmiş və 1972-ci ildə "Bədxassəli şişlərin diaqnostikası və müalicəsində limfoqrafiyanın, fleboqrafiyanın, endolimfatik və intraarterial kimyaterapiyanın əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmisdir.

1971-ci ildən Quliyev Ş.B. Azərbaycan Dövlət Tibb İnstitutunun travmatologiya, ortopediya və hərbi səhra cərrahlığı kafedrasına professor seçilmişdir.

Professor Quliyev Ş.B. 30 iyun 1975-ci ildə II Hospital cərrahiyyə kafedrasına professor seçilmişdir. 17 noyabr 1975-ci ildən etibarən I müalicə-profilaktika fakultəsinə dekan vəzifəsinə təyin edilmişdir.

O, 1981-1991-ci illərdə pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

Professor Ş.B.Quliyevin elmi-praktik fəaliyyəti çoxcəhətli olmuşdur. O bütün elmi-pedaqoji fəaliyyətini gənc alimlərin və tibbi kadrların hazırlanmasına, yetişməsinə həsr etmişdir.

Onun elmi-pedaqoji fəaliyyətinin əsas istiqaməti beynəlxalq aləmdə milli elmimizin layiqli təmsil edilməsinə, gənc həkim nəslinin formalaşmasına, praktiki cərrahiyyənin inkişafına həsr olunmuşdur.

Onun mühazirələri məzmunca dolğun, maraqlı, müasir səviyyəli olduğuna görə daima tələbələr tərəfindən rəğbətlə qarşılanmışdır.

Professor Ş.B.Quliyevin tələbələri respublikamızın müxtəlif bölgələrində elmi və praktiki fəaliyyət göstərmiş, bir çoxu alimlik dərəcəsinə qədər yüksəlmişdir.

1981-ci ildə kafedra müdiri seçildikdən sonra o, kafedranın elmi, pedaqoji fəaliyyətinin istiqamətini müəyyənləşdirmiş, yeni akademik kollektiv yaratmış və uzun illər aktiv cərrahi fəaliyyəti sayəsində minlərlə xəstəni həyata qaytarmışdır.

Bütün bu yuxarıda göstərilənlərlə bərabər professor Quliyev Ş.B. elmi fəaliyyətinin istiqamətini klinik təbabətdə ən çətin və vacib problem olan limfa sisteminin öyrənilməsinə həsr etmişdir. O, bu problemi öyrənən ilk alimlərdəndir. Bu sahə üzrə kadrlar hazırlamışdır. Klinik

limfologiya sahəsində aparılan tədqiqatlar tibb aləmində rəğbətlə qarşılanmışdır.

Professor Ş.B.Quliyevin rəhbərliyi altında aparılan elmi-tədqiqat işlərinin nəticələri respublikamızın daxilində və xaricində elmi konfranslarda təqdim olun-muş və müvəffəqiyyətlər qazanmışdır (keçmiş SSR məkanında, Almaniyada, ABŞ-da və s.).

Professor Ş.B.Quliyevin onkologiya sahəsindəki elmi-tədqiqatları 1968-ci ildən başlanaraq kimyəvi preparatların onkoloji xəstələrdə limfa daxilinə yeridilməsi üsuluna həsr edilmiş və təcrübi cəhətdən əsaslandırılmışdır.

Professor Ş.B.Quliyev geniş spektirli cərrah kimi gənclik illərindən təbabətin bir çox sahələri ilə maraqlanmışdır. Elmi-tədqiqat işlərinə hematologiyadan başlayan professor Ş.B.Quliyev sonralar travmatologiya sahəsində də böyük uğurlar qazanmışdır. Təbabətin bütün sahələri ilə onun dərindən tanışlığı minlərlə xəstələrin sağalmasında böyük rol oynamışdır.

Professor Ş.B.Quliyev 4 monoqrafiya və 134 elmi məqalənin müəllifi olub.

Tələbələr üçün dərslik olan “Cərrahi xəstəliklər” kitabını nəşr etdirmişdir.

Professor Ş.B.Quliyevin rəhbərliyi altında 16 namizədlik, 3 doktorluq dissertasiyaları yerinə yetirilmişdir.

Professor Ş.B.Quliyevin elmi və pedaqoji fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, dəfələrlə Səhiyyə Nazirliyi tərəfindən fəxri fərmanlarla təltif edilmiş və 1992-ci ildə ona əməkdar elm xadimi adı verilmişdir.

Professor Ş.B.Quliyev universitetin ictimai həyatında yaxından iştirak etmişdir.

O, uzun illər cərrahiyyə üzrə problem komissiyasının sədri olmuşdur. Son illər universitetdə yaradılmış ilkin müdafiə komissiyasına sədrlik etmişdir.

# 1981-1983 Prof. Törə Q. Qədirova



Professor Qədirova Törə Qədir qızı 1927-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib və ömrünün axırına kimi onun elmi–pedaqoji, həkimlik fəa-liyyəti həmin institutla bağlı-dır. O, burada baş laborantdan professor vəzifəsinə kimi yük-səlmiş, ona əməkdar elm xadi-mi adı verilmişdir.

Törə Qədirova 1954-cü ildə Leninqrad Hərbi Akademiyasında görkəmli alim, akademik S.N.Da-videnkovun rəhbərliyi altında namizədlik, 1959-cu ildə isə "Leykozlarda sinir sisteminin patologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bakıya qayıdaraq 1959-cu ildə dosent, 1961-ci ildə professor vəzifəsinə seçilmişdir. 1961-1968-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun professoru, 1969-1974-cü illərdə Uşaq Nevrologiya kursunun müdiri, 1975-1988-ci illərdə Pediatriya fakültəsinin Nevro-logiya kafedrasının, 1988-1992-ci ildən II Sinir xəstəlikləri və tibbi genetika kafedrasının müdiri, 1992-ci ildən isə II Sinir xəstəlikləri və tibbi genetika kafedrasının professoru vəzifəsində çalışmışdır.

Professor T.Q.Qədirova uşaq nevroloji xidmətini təşkil etmişdir. Praktik həkim-nevropatoloqların hazırlanmasında, yüksək ixtisaslı elmi kadrların yetişdirilməsində rolu əvəzsizdir.

Professor T.Q.Qədirova Tibb Azərbaycan Respublikasının geniş tibb cəmiyyətində dərin hörmət qazanmışdır.

Törə xanım həm də böyük ictimai iş aparırdı. O, Azərbaycan Qadınlar Şurasının üzvü, Uşaq Nevrologiya Assosiasiyasının sədri, Azərbaycan Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının sədri, 1967-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Baş uşaq nevropatoloqu olmuşdur. Prof. T.Q.Qədirova S.S.Korsakov adına "Nevrologiya və psixiatriya", Azərbaycan Tibb jurnalının redaksiya şurasının üzvü idi. O, 150 elmi işin, 6 monoqrafiyanın ("Azərbaycanda nevrologiyanın inkişaf tarixinin oçerkləri", "Leykoz və sinir sistemi", "Azərbaycanda neyroqripp", "Keçici beyin qan-damar pozulmaları", "Uşaq yaşında beyinin hipoksiyası", "Anadangəlmə hidrosefaliya və timomeqaliya"), 2 hissədən ibarət Azərbaycan dilində "Sinir xəstəlikləri" və "Uşaq sinir xəstəlikləri" adlı dərsliklərin, 2 metodik tövsiyyənin müəllifidir. 1965-ci ildə Törə xanım Azərbaycan SSRİ Ali Sovetinin Fəxri Fərmanı və onlarla fəxri fərman, təşəkkürlərlə təltif edilmişdir. 1980-ci ildə əməkdar elm xadimi adına layiq görülmüşdür. Professor T.Q.Qədirova 4 avqust 1997-ci ildə vəfat etmişdir.

## 1983-1988 Prof. Bahadur. Ə. Baxşıyev



Baxşıyev Bahadur Ələkbər oğlu 1955-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirərək, Ordubad şəhər xəstəxanasında rentgenoloq və poliklinika müdiri vəzifəsində çalışmişdır. O dövrdə Azərbaycan Respublikasında Rentgenologiya və Radiologiya sahəsində yüksək mütəxəssislər olmadığından B.Ə.Baxşıyev 1960-cı ildə Moskvanın Elmi-Tədqiqat Rentgen və Radiologiya İnstitutuna ezam edilmişdir. O, Moskvanın Rentgen və Radiologiya İnstitutunda 1962-ci ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmiş və tibb elmləri doktoru alimlik adına layiq görülmüşdür. O, Azərbaycan Respublikasına Rentgenologiya və Radiologiya sahəsində tibb elmlər doktoru adına layiq görülən ilk azərbaycanlı alimdir.O,1969-1973-cü illərdə ATİ-nin Müalicə-Profilaktika fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1983–1989-cu illərdə ikinci dəfə həmin fakültənin dekanı vəzifəsinə layiq görülmüşdür. B.Ə.Baxşıyev 300 elmi əsərin, 15 ixtiranın və səmərələşdirici təklifin, 13 monoqrafiya və dərsliyin müəllifidir. İlk dəfə Azərbaycan dilində Rentgenologiya və Radiologiya üzrə dərslik professor B.Ə.Baxşıyev tərəfindən 1976-cı ildə yazılmışdır. Onun rəhbərliyi altında 10-a qədər namizədlik dissertasiyası müdafiə

edilmişdir. Hazırda onun rəhbərliyi altında 2 doktorluq və 6 namizədlik dissertasiya elmi işləri uğurla davam etdirilir. O, Azərbaycan və Türkiyə Radiologiya Cəmiyyətinin, keçmiş Sovetlər İttifaqının "Ümumittifaq Rentgenologiya və Radiologiya" Cəmiyyətinin, "Medisinskaya Radiologiya" jurnalının (Moskva), "Saglamlıq" jurnalının (Bakı) redaksiya şurasının üzvü, hazırda "Azərbaycan Tibb Jurnalı"-ın (Bakı) redaksiya heyətinin üzvüdür. 1970-ci ildən bu vaxta qədər ATİ-nin Böyuk Elmi Şurasının və II Müalicə-Profilaktika fakültəsinin Elmi Şurasının, ATİ-nin Problem Komissiyasının, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindəki Dissertasiya Şurasının üzvü, Azərbaycan Respublikasının Baş Rentgenoloqu və Radioloqu olmuşdur. B.Ə.Baxşəliyev 2022 idə rehmətə getmişdir.

# 1988-1989 Prof. Arif M. Əfəndiyev



A.M.Əfəndiyev 1943-cü ilin yanvar ayının 1-də Şamaxı rayonunda ziyalı ailəsində anadan olmuşdur.

Arif Əfəndiyev ilk təhsilinə 1949-cu ildə Bakı şəhərindəki 6 №-li orta məktəbdə başlamışdır və 1959-cü ildə orta məktəbi əla qiymətlərlə bitirərək, N.Nəri-manov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olmuşdur.

A.M.Əfəndiyev tələbəlik illərində əla qiymətlərlə oxumaqla bərabər, elmi-tədqiqat işlərinə də böyük maraq göstərirdi. Bunu nəzərə alan institut rəhbərliyi 1964-cü ildə ali təhsilini başa vuraraq «əczaçı» ixtisası almış Arif müəllimi elə institutun özündə – bioloji kimya kafedrasında işlə təmin etmək haqqında qərar vermişdir və o, həmin ildən adı çəkilən kafedranın baş laborantı vəzifəsində əmək fəaliyyətinə başlamış, 1966-cı ildə isə aspiranturaya qəbul edilmişdir. Həmin illərdə Arif müəllim kafedrada əvəzçilik üzrə tədris işəlri ilə də məşğul olurdu. 1969-cu ildə aspiranturada təhsil müddəti başa çatan A.M.Əfəndiyev Bioloji kimya kafedrasının assistenti vəzifəsinə qəbul edilmişdir.

Arif müəllimin hələ baş laborant vəzifəsində işləyərkən apardığı elmi-tədqiqat işinin nəticələrinə əsasən yazdığı ilk məqaləsi "Azərbaycan Elmlər Akademiyasının Məruzələri" kimi nüfuzlu elmi jurnalda çap edilmişdir. O, aspiranturada təhsil aldığı dövrdə elmi işlərini xronik iltihabi xəstəliklərin müalicəsində tətbiq edilən pirogen xassəli (qızdırma törədən) dərman vasitələrinin təsir mexanizmlərinin öyrənilməsinə həsr

etmiş və 1970-ci ildə «Askorbin turşusu sintez edən (dovşanlar) və sintez etməyən (dəniz donuzları) heyvanlarda pirogenalın C vitamini mübadiləsinə və qan serumunun zülal tərkibinə təsiri» mövzusunda dissertasiya müdafiə edərək, biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Arif müəllim 1974-cü ildən kafedranın dosenti vəzifəsinə seçilmiş, 1981-1984-cü illərdə kafedranın müdiri vəzifəsini icra etmişdir.

1984-cü ildə aparılan təhsil islahatı ilə əlaqədar olaraq, bioloji kimya kafedrası üzvi kimya kafedrası ilə birləşdirilmiş və Arif müəllim bundan sonrakı bir neçə il ərzində «Bioüzvi və bioloji kimya» kafedrası adı altında fəaliyyət göstərən kafedranın dosenti vəzifəsində çalışmış və kafedranın tədris işləri üzrə müdir müavini vəzifəsini icra etmişdir. Həmin illər ərzində intensiv elmi-tədqiqat işləri aparan Arif müəllim 1986-cı ildə doktorluq dissertasiyası üzərində işini tamamlayaraq, Moskvada SSRİ Tibb Elmləri Akademiyasının ET Qidalanma Institutunun nəzdindəki dissertasiya şurasında müdafiə etmişdir.

A.M.Əfəndiyevin «Polien antibiotiklərinin böyrəklərdə və qanda prostaqlandin mübadiləsinə, lipidlərin peroksidləşmə yolu ilə oksidləşməsinə və orqanizmin antioksidant sistemi fermentlərinin aktivliyinə təsirinin yaş xüsusiyyətləri və onların korreksiya üsulları» mövzusunda doktorluq dissertasiyasının əsas müddəalarını əhatə edən elmi məqalələrin əksəriyyəti xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap edilmişdir. O, dəfələrlə müxtəlif ölkələrdə (Yuqoslaviya, Almaniya, Niderland və s.) keçirilən elmi qurultay və konfransların nümayəndəsi olmuş və dərin məzmunlu elmi məruzələrlə çıxış etmişdir.

Onun elmi məqalələri bir sıra inkişaf etmiş ölkələrin (ABŞ, Ingiltərə, Niderland, Çexiya, Bolqarıstan, Yuqoslaviya və s.) alimlərinin elmi marağına səbəb

olmuş, həmin ölkələrdən bu elmi işlərin müştərək davam etdirilməsi haqqında təkliflər alınmışdır və bunun sayəsində bioloji kimya kafedrası ilə bir sıra xarici ölkələrin nüfuzlu elmi mərkəzlərinin əməkdaşlığı bu gün də davam edir.

A.M.Əfəndiyev 1987-ci ildə fəaliyyətini yenidən sərbəst surətdə davam etdirən Bioloji kimya kafedrasının müdiri vəzifəsinə seçilmişdir. O, 1989-cu ildə professor elmi adı almışdır. A.M.Əfəndiyev 1988-1989-cu illərdə I Müalicə-Profilaktika və 1992-1994-cü illərdə Əczaçılıq fakültəsinin dekanı vəzifəsində işləmişdir. Arif müəllim Bioloji kimya kafedrasına rəhbərlik etməklə bərabər, həmin kafedranın nəzdində fəaliyyət göstərən Problem elmi-tədqiqat laboratoriyasına da rəhbərlik etmişdir.
Hazırda prof. A.M.Əfəndiyevin elmi tədqiqatlarının əsas istiqaməti xronik böyrək çatışmazlığı və müxtəlif mənşəli osteoporozlar zamanı orqanizmdə baş verən dəyişikliklərin biokimyəvi mexanizmlərinin tədqiqinə yönəlmişdir. Bu gün kafedrada çalışan əməkdaşların əksəriyyəti elmi-pedaqoji kadr kimi məhz Arif müəllimin rəhbərliyi ilə yetişən şəxslərdir. Onun rəhbərliyi altında indiyə qədər 33 namizədlik (fəlsəfə doktorluğu) və 3 doktorluq dissertasiyası işlənərək müdafiə edilmişdir.

Arif müəllimin qələmindən 220-dən artıq elmi əsər, o cümlədən dərsliklər, dərs vəsaitləri çıxmışdır. O, daim biokimya fənninin tədrisinin keyfiyyətcə yaxşılaşdırılmasına, tələbələrin yüksək səviyyəli dərsliklər və dərs vəsaitləri ilə təmin edilməsinə çalışır. Arif müəllim 1974 və 1989-cu illərdə iki dəfə çap edilmiş əsaslı “Bioloji kimya” dərsliyinin, 2002-2010-cü illərdə 3 dəfə çapdan çıxmış 4-cildlik «İnsan biokimyasının əsasları» (həmin kitab 2015-2016-cı illərdə yenidən işlənilərək 2 cilddə çap edilmişdir), 2007-ci ildə çap

edilmiş «Klinik və patoloji biokimya» dərsliklərinin həmmüəlliflərindən biridir.

Bunlardan əlavə, Arif müəllim işlədiyi kafedranın əməkdaşları ilə birlikdə Azərbaycan və rus dillərində praktik dərs vəsaitləri, həmçinin 21 tədris-metodik vəsait yazıb çap etdirmişdir. O, rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birgə Azərbaycan Respubikası Prezidenti yanında Elmin Inkişafı Fondunun 2010-cü ildə elan etdiyi ilk müsabiqənin qalibi olmuşdur. Bunun sayəsində Elm Fondunun ayırdığı qrant kafedranın müasir tipli analitik aparatlarla təmin edilməsinə sərf edilmiş və burada müasir səviyyədə elmi-tədqiqat aparılmasına şərait yaranmışdır. 2017-ci ildə Biokimyaçıların Türkiyədə keçirilən Beynəlxalq qurultayında Azərbaycanda biokimya fənninin tədrisi barəsində məruzə ilə çıxış edib.

Prof. A.M.Əfəndiyev 2000-ci ildə Avropa Biokimyaçılar Cəmiyyətləri Konfederasiyasında təşkil edilmiş «Biokimyanın tədrisi» komissiyasının MDB ölkələrindən seçilmiş yeganə üzvüdür. O, uzun müddət respublika biokimyaçılar cəmiyyətinin elmi katibi vəzifəsini yerinə yetirmişdir.

O, 1984-cü ildə "SSRİ Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilmiş, 2010-cu ildə «əməkdar müəlllimi» fəxri adına layiq görülmüşdür.

Arif müəllim elə indi də böyük səylə elmi yaradıcılığını və pedaqoji fəaliyyətini davam etdirir.

## 1989-1992 Prof. Həsən A. Sultanov



Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru (1986), həkim-cərrah. Azərbaycan Respub-likasının əməkdar həkimi, Azərbaycan Respublikasının əməkdar elm xadimi, Azərbay-can Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının müdiri - Həsən Sultanov 1932-ci ilin may ayının 9-da Tərtər rayonunun Söyülən kəndində anadan olmuşdur. 1939–1943-cü illərdə Söylən kənd ibtidai məktəbində təhsil almış, oranın 4-cü sinfini bitirmiş, təhsilini qonşu Evoğlu kəndində davam etdirmiş və 1947-ci ildə 8-ci sinfi başa vurmuşdur. 1949-cu ildə Tərtər şəhər orta məktəbini bitirmişdir· 1949-cu ildə Azərbaycan Tibb Universitetinin Müalicə-Profilaktika fakültəsinə daxil olur. IV kursu bitirdikdən sonra Rusiya Federasiyasının Samara Dövlət Tibb Universitetinin (keçmiş Kuybışev Dövlət Tibb İnstitutu) Hərbi Tibb fakültəsinə köçürülür. 1955-ci ildə həmin fakültəni bitirərək Hərbi həkim ixtisasına yiyələnir. 1955–1957-ci illərdə Murmansk vilayətində hərbi hospitalda hərbi həkim kimi fəaliyyət göstərir. 1957-ci ildə ordu sıralarından tərxis olunaraq Azərbaycana qayıdır. Həmin il Tərtər rayonunun Evoğlu kənd xəstəxanasının baş həkimi vəzifəsinə təyin edilir. H.A.Sultanov 1960-cı ildə Azərbaycan Tibb İnstitutunun I Hospital cərrahiyyə

kafedrasında klinik ordinaturaya daxil olmuşdur. O, kafedrada professor B.M.Mahmudbəyovun rəhbərliyi altında cərrahlıq sənətinə yiyələnmiş, cərrahlıq elminə böyük maraq göstərmiş və ilk uğurlu addımlarını atmışdır. 1963-cü ildə Bərdə rayon Birləşmiş Mərkəzi xəstəxanasının cərrahlıq şöbəsinə müdir təyin edilmişdir. O, qısa zaman kəsiyində baş həkimin müalicə işləri üzrə müavini, az sonra isə həmin xəstəxananın baş həkimi vəzifəsinə təyin olunmuşdur.1969-cu ildə "Kənd əhalisi arasında obliterasiyaedici endoarteritin profilaktikası və müalicəsi" mövzusunda tibb elmləri namizədi alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. Kənd əhalisi arasında obliterasiyaedici endoarteritin yayılması səviyyəsinin, xəstəliyin gizli formalarının aşkar edilməsi, erkən diaqnostikası üçün müxtəlif peşə sahibləri üzərində çoxsaylı müayinələr aparmış, kənd əhalisi arasında xəstəliyin profilaktikası və müalicəsi tədbirlərini işləyib hazırlamışdır. Rayonda işlədiyi müddətdə demək olar ki, cərrahlığın bütün sahələri üzrə yüzlərlə ağır cərrahi əməliyyatlar yerinə yetirmiş, ali dərəcəli cərrah səviyyəsinə qədər yüksəlmişdir. 1972-ci ildə H.A.Sultanov Azərbaycan Tibb Universitetinin I Hospital cərrahiyyəsi kafedrasına assistent vəzifəsinə seçildiyinə görə Bərdə rayon Mərkəzi xəstəxanasının baş həkimi vəzifəsindən azad olunmuşdur. O vaxtdan etibarən I cərrahi xəstəliklər kafedrasında müxtəlif vəzifələrdə işləmişdir. 1972–1980-ci illərdə kafedranın assistenti, 1980–1987-ci illərdə dosenti, 1987–1990-cı illərdə isə professoru kimi uğurlu fəaliyyət göstərmişdir. 1990–2012-ci illərdə I Cərrahi xəstəliklər kafedrasının müdiri vəzifəsində işləmişdir. Bu illərdə prof. Sultanovun praktik cərrahlıqla yanaşı elmi-pedaqoji

fəaliyyəti məhsuldar, çoxşaxəli və çoxistiqamətli olmuşdur.1986-cı ildə H.A.Sultanov Perm Dövlət Tibb institutunda "Kənd əhalisi arasında kəskin paraproktitin profilaktikası və onun cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. O, 1989–1993-cü illərdə Azərbaycan Tibb Universitetinin aparıcı fakültələrindən birinin - I Müalicə-Profilaktika fakültəsinin dekanı vəzifəsində işləmişdir. Həsən Sultanov 2014-cü ildə uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat etmişdir.

I Müalicə-Profilaktika Fakültəsi

# 1993-1995 prof. Faiq İ. Cəfərov



Cəfərov Faiq İlahi oğlu 20 yanvar 1940-cı ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Nüvədi kəndində anadan olmuşdur. 1963-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1967-ci ildə F.Cəfərov fəlsəfə, 1990-cı ildə isə elmlər doktorluğu dissertasiyalarını müdafiə etmiş, professor elmi adına 1991-ci ildə layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. F.Cəfərov əmək fəaliyyətinə Azərbaycan Tibb İnstitutunun Normal fiziologiya kafedrasında başlamış, kafedranın aspirantı, assistenti, dosenti vəzifələrini yerinə yetirmiş, həmçinin ATU-un əməkdaşlarının Həmkarlar İttifaqı Komitəsinin büro üzvü kimi fəaliyyət göstərmişdir. 1991-2008-ci illər ərzində Normal fiziologiya kafedrasının müdiri, 1993-1995ci illər ərzində I Müalicə-Profilaktika fakültəsinin dekanı vəzifələrində çalışmışdır. F.Cəfərovun elmi fəaliyyətinin əsas istiqamətini müxtəlif bioloji keyfiyyətli motivasiya və emosiyaların mərkəzi və periferik mexanizmlərində neyropeptidlər və mediatorların fizioloji rolunun araşdırılması təşkil etmişdir. F.Cəfərovun elmi tədqiqat işlərinin nəticələrinə dair məlumatlar Kembric Universitetinin “XX əsrin elm xadimləri” məcmuəsində işıqlandırılmışdır. F.Cəfərov 200-ə yaxın elmi əsərin, o cümlədən 1 monoqrafiyanın, 2 dərsliyin, 4 dərs vəsaitinin, 10-dan artıq metodik

göstərişin, 4 səmərələşdirici təklifin, həmçinin "İnsan fiziologiyası", "Fizioloji terminlər lüğəti", "Aclıq və susuzluğun mexanizmləri" adlı kitabların müəllifi olmuşdur. F.Cəfərov Amerika Birləşmiş Ştatlarında, Yaponiyada, Rusiya Federasiyasında, Türkiyədə, Hollandiyada, İranda, İsveçrədə keçirilən beynəlxalq konqres və konfranslarda elmi məruzələrlə çıxışlar etmiş, həmin ölkələrin elmi məcmuələrində elmi işlər çap etdirmiş, onun rəhbərliyi altında 5 fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuş, elmi məsləhətçiliyi ilə 1 elmlər doktorluğu dissertasiyası üzərində iş aparılmış, dissertasiya işi alimin ölümündən sonra müdafiə edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuşdur. Müxbir üzv F.Cəfərov Azərbaycan Milli Elmlər Akademiyasının akademik A.Qarayev adına Fiziologiya İnstitutunun İxtisaslaşdırılmış Müdafiə Şurasının sədr müavini, Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının, Fakültə Elmi Şurasının və Nəzəri fənlər üzrə Problem komissiyasının, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Biologiya və kənd təsərrüfatı" bölməsi üzrə ekspert şurasının, Beynəlxalq Bioqrafik Assosiasiyasının (2001) üzvü, həmçinin Azərbaycan Fizioloqlar Cəmiyyətinin vitse-prezidenti, MDB ölkələrinin Fizioloqlar Cəmiyyətinin və Avropa Neyrokimya Cəmiyyətinin üzvü olmuşdur. 2001-ci ildə F.Cəfərov Respublikanın əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. AMEA-ın müxbir üzvü Faiq Cəfərov 2008-ci ildə Bakıda vəfat etmişdir.

I Müalicə-Profilaktika Fakültəsi

## 1995-1999 prof. Eldar K. Qasımov



Qasımov Eldar Köçəri oğlu 1949-cu ildə Kəlbəcər rayonunun Bəzirxana kəndində anadan olmuşdur. 1966-cı ildə Kəlbəcər rayon orta məktəbində orta təhsilini alıb,1972-ci ildə Azərbaycan Tibb İnstitutunun Müalicə profilaktika fakultəsinə qəbul olmuşdur. 1981-ci ildə prof. Gülağa Hacıyevin rəhbərliyi ilə Yaroslavl Tibb İnstitutunda tibb elmləri namizədi, 1990-cı ildə prof. Banin Viktor Vasilyeviçin rəhbərliyi ilə N.İ.Piraqov adına 2-ci Moskva Tibb İnstitutunda Tibb Elmləri doktoru adını almışdır.

1971 – 1972-ci illərdə ATİ - nun insan anatomiyası kafedrasında preparator, 1972 – 1973- cü illərdə baş lobarant, 1973 – 1981-ci illərdə assistent; 1981 – 1986-cı illərdə ATİ - nun 2-ci müal-prof. fakultəsinnin dekan müavini; 1986 – 1992-ci illərdə ATU - nin insan anatomiyası kafedrasında dosent, 1992 – 1995-ci illərdə ATU - nin insan anatomiyası kafedrasında professor əvəzi, 1995 – 1999-cı illərdə ATU - nin 1-ci müalicə-profilaktika fakultəsinin dekanı, 1996 – 1999-cu illər ATU - nin insan anatomiyası kafedrasında pofessor, 1999-cu ildən hazıradək ATU – nin histologiya, embriologiya və sitologiya kafedrasının müdiri vəzifəsində çalışır.

Əsas elmi istiqaməti "Kəsgin eksperimental sistemli iltihab modellərində sinir, həzm və sidik cinsiyət sistemlərinə aid olan orqanlarda baş verən dəyişikliklərin

histoloji, histokimyəvi, immunhistokimyəvi və elektron mikroskopik tədqiqi“ dir.

Onun rəhbərliyi ilə universitetin 17 kafedrası, AMEA 5 institutu, BDU-nun üç laboratoriyası, Aviasiya akademiyası, Almaniyanın Münhen şəhər Universiteti, Gürcüstanın Kimyəvi Biologiya İnstitutu ilə pro-eukariot orqanizmlərin, nanohissəciklərin quruluş xüsusiyyətlərini, sonuncuların təsir mexanizmlərinin, müxtəlif patoloji və eksperimental şəraitlərdə hüceyrə, toxuma və orqanlarda baş verən dəyişikliklərin elektron mikroskopik tədqiqi istiqamətində elmi-tədqiqat işləri yerinə yetirilir.

2012-ci ildə o, tibb və nevrologiya sahəsində əldə etdiyi nailiyyətlərə görə Tomson Reuters agentliyinin mükafatına layiq görülmüşdür.

O, 3 dərsliyin, 19 dərs vəsaitinin, 3 tədris-metodik işləmənin, 166 məqalənin, 150 tezisin, 2 səmərələşdirici təklifin və 1 ixtiranın müəllifidir. Web of Science, Scopus, PubMed indeksləmə bazasına daxil olan, jurnallarda 97 eimi iş dərc etdirmişdir.:

Onun rəhbərliyi ilə 1 nəfər tibb elmləri doktoru (DSc), 9 nəfər isə tibb üzrə fəlsəfə doktoru (PhD) alimlik dərəcələrini almışlar.

Professor E.K. Qasımov 2020-ci ildə Amerika Nevroloqlar Cəmiyyətinin həqiqi və Avropa Nevrologiya Akademiyasının müxbir üzvlüyünə qəbul olunmuşdur.

Professor E.K. Qasımov kecmiş SSSR-nin bir çox şəhərlərində, Slovakiyada (1989), ABŞ-da (2001), Avstriyada (2009, 2013), Polşada (2009), Fransada (2011), Hollandiyada (2012), Çin Xalq Respublikasında (2011, 2014), İsveçdə (2012), AMEA-nın Biologiya və

I Müalicə-Profilaktika Fakültəsi

Tibb elmləri bölməsinin illik hesabatında (2013), İtaliyada (2014), Rusiya Fedarasiyasında (2014), əldə olunan elmi-tədqiqat işlərinin nəticələri həmmüəlliflər tərəfindən Avstraliya (2015) və Hon-Konqda (2017), BƏƏ-nin Dubay şəhərində (2019), Bakı Elm Festivallarında (2014, 2016), Azərbaycan Nevrologiya həftəsində (2019), Türkiyənin Ankara şəhərində (2021, 2023), ATU-da təşkil olunmuş beynəlxalq və yerli konfranslarda (2014-2023) məruzələrlə çıxış etmişdir.

## 1999-2001 prof. Sabir C. Əliyev



Əliyev Sabir Cahan oğlu 1944-cü ildə Qərbi Azərbaycanın Krasnoselo rayonunun Əmirxeyir kən-dində anadan olub. Orta məktəbi həmin rayonun Gölkənd kəndində medalla başa vurduqdan sonra, 1961-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-Profilaktika fakültəsinə daxil olub. 1967-ci ildə həmin fakültəni bitirdikdən sonra təyinatla Naftalan sanatoriyasında əvvəlcə həkim-ordinator, sonra müalicə işləri üzrə şöbə müdiri vəzifəsində çalışıb. 1969-1972-ci illərdə N.Nərimanov adına ATİ-da Patoloji fiziologiya kafedrasında aspirantura müddətində namizədlik dissertasiyasını tamamlayaraq, 1973-cü ilin mart ayında müdafiə etmişdir. 1972-ci ildə kafedrada assistent, 1973-cü ildə baş müəllim, 1976-ci ildə isə dosent vəzifəsinə seçilib. Uzun illər kafedranın tədris hissə müdiri vəzifəsində çalışıb. 1992-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir, 1993-cü ildə həmin kafedranın professoru vəzifəsinə seçilib. 1994-cü ilə AAK tərəfindən Patofiziologiya ixtisası üzrə professor elmi adına layiq görülüb. 1999-2001-ci illərdə I MPF-in dekanı, 2001-ci ilin fevral ayında Patoloji fiziologiya kafedrasının müdiri vəzifəsinə seçilib. Həmin ilin may ayında isə universitetin Tədris işləri üzrə prorektoru, 2015-ci ildən isə universitetin Tədris və

müalicə işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Respub-likasının Təhsil Nazirliyində fəaliyyət göstərən «Tibbi-nəzəri bölmə»-in, Universitetin Mərkəzi Metodik Komissiyanın və «Anatomiya, Patofiziologiya, Biokimya, Farmakologiya» üzrə ixtisaslaşmış Müdafiə Şurasının sədridir. Universitetin Böyük Elmi Şurasının və II MPF-in Elmi Şurasının, "Azərbaycan Tibb Jurnalı"-ın Redaksiya Şurasının üzvüdir. 1992-ci ildən YAP-ın üzvi və universitet üzrə YAP-ın sədridir.1986-cı ildə «Səhiyyə əlaçısı», 2000-ci ildə isə «Respublikanın əməkdar müəllimi» fəxri adlarına layiq görülmüşdür. 2004-cü ildə Səhiyyə Nazirliyinin Fəxri Fərmanı, 2007-ci ildə isə «Tərəqqi» medalı ilə təltif olunmuşdur. 27 fevral 2008-ci ildə Türk Dünyası Araşdırmaları Uluslararası İlimler Akademisi təfərindən Tip bölümü üzrə akademik seçilib. 6 mart 2009-cu ildə isə həmin akademiya tərəfindən «Türk dünyasına hizmetlerindən dolayı Uluslararası Altın Yıldız» medalı ilə təltif olunmuşdur. 15 dekabr 2009-cu ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Müka-fatlar Komitəsinin Elm və Tədris sahəsindəki nailiy-yətlərə görə Avropa "Şərəf və Vicdan" ordeni ilə təltif olunub. 12 may 2010-cu ildə Avropa Akademiyası tərəfindən Nikolay Piroqov ordeni ilə təltif olunmuşdur. 20 sentyabr 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti İlhan Əliyevin sərəncamı ilə əməkdar elm xadimi fəxri adı alıb. 24 dekabr 2011-ci ildə Beynəlxalq təltiflər ittifaqi tərəfindən "Hippokrat" ordeni ilə təltif olunub. 26 mart 2014-cü ildə Türk Dünyası Araşdırmaları Uluslararası İlimlər Akademisi tərəfindən Tibb bölümüne üstün hizmetlerinden dolayi "İbn-İ-Sina" diplomu ilə təltif olunub.337 elmi əsərin, 6 dərsliyin, 4 dərs vəsaitinin,

4 elmi-populyar broşüranın, ilk dəfə olaraq 3 dildə (azərbaycan, rus, ingilis) çap olunan patofizioloji atlas elektron-dərsliyin, bir neçə tədris-metodik vəsaitin, 2015-ci ildə isə yeni tədris proqramına uyğun tərtib edilmiş «Patoloji fiziologiya» dərslik kitabının (I və II hissə) müəllifidir. Rəhbərliyi altında 15 tibb üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuş, 4 fəlsəfə doktoru və 3 tibb üzrə elmlər doktoru dissertasiyaları üzərində isə tədqiqat işləri davam etdirilir.

# 2001-2011 Nurməmməd Ə. Şıxəmmədov



Şıxəmmədov Nurməmməd Əhməd oğlu 1958-ci ilin may ayının 12-də Quba rayonunun Xucbala kəndində ziyalı ailəsində anadan olmuşdur. 1965-ci ildə Xucbala kənd orta məktəbinin 1-ci sinifinə daxil olmuş və 1975-ci ildə Qusar şəhər 1 №-li Beynəlmiləl orta məktəbini bitirmişdir. 1976-cı ildə N.Nərimanov adına ATİ-nin I MPF-ə daxil olmuş və 1982-ci ildə institutu fərqlənmə diplomu (Lenin təqaüdü ilə) bitirmişdir. 1982-1983-cü illərdə Bakı şəhəri 3 saylı xəstəxanada internatura kursunu keçdikdən sonra ATİ-nin Böyük Elmi Şurasının qərarı ilə Onkologiya kafedrasında baş laborant vəzifəsində saxlanılmışdır. 1986-1990-cı illərdə ÇOEM-də iştirakçı olmuş, 1990-cı ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmiş və həmin ildə müsabiqə yolu ilə Onkologiya kafedrasının assistenti vəzifəsinə seçilmişdir. 1990-1992-ci illərdə I MPF-nin Həmkərlar təşkilatının sədri olmuşdur. 1992-2001-ci illərdə ATU-nun rektor köməkçisi vəzifəsində çalışmışdır. 1998-ci ilin may ayının 15-də "Osteogen sarkomanın xüsusiyyətlərinin və proqnozunun qiymətləndirilməsində kliniki-biokimyəvi göstəricilərin rolu" mövzusunda Moskva şəhərində Rusiya MEA-nın Onkoloji mərkəzində doktorluq dissertasiyası müdafiə edərək Rusiya Federal AAK-nın 30.12.1998-ci il, 36 d/3 №-li qərarı ilə tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 2001-ci il tarixdən I MPF-nin dekanı vəzifəsində fəaliyyət göstərmiş, bu dövrdə fəaliyyəti zamanı ATU-nun 80 illik

yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adını almışdır. 05.12.2013-cü il tarixdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının Qəbul şöbəsinin müdiri vəzifəsində təyin olunmuşdur.

28.07.2014-cü il tarixdə uzun sürən ağır onkoloji xəstəlikdən vəfat etmişdir.

I Müalicə-Profilaktika Fakültəsi

## 2011-2016 Abuzər Y. Qazıyev



Qazıyev Abuzər Yusif oğlu, 1967-ci ilin oktyabr ayının 9-da Ermənistan SSR, Quqark rayonunun Arçut kəndində müəllim ailəsində anadan olmuşdur. 1973-cü ildə Arçut kənd orta məktəbinin 1-ci sinfinə getmiş və 1983-cü ildə məktəbi əla qiymətlərlə bitirmişdir.

1983-cü ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun I Müalicə-Profilaktika Fakültəsinə daxil olmuş və 1989-cu ildə həmin institutu əla qiymətlərlə, fərqlənmə diplomu ilə bitirmişdir.

1989-1990-cı illərdə Bakı şəhəri KTTYX-da cərrahiyyə ixtisası üzrə internaturatura keçmiş və 1990-1992-ci illərdə 1 saylı Sumqayıt şəhər poliklinikasında həkim-cərrah və əvəzedici onkoloq işləmişdir.

1992-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək N.Nərimanov adına Azərbaycan Tibb Universitetində "onkologiya" ixtisası üzrə aspiranturaya daxil olmuş və 1995-ci ildə "Sümüklərin xodnro və osteogen sarkomalarında cinsi steroid hormonların reseptorları və onların klinik əhəmiyyəti" mövzusunda vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə etmişdir.

2005-ci ildə "Azərbaycanda bədxassəli şişlərin epidemiologiyası, tibbi, demoqrafik və sosial-iqtisadi aspektləri" mövzusunda doktorluq dissertasiyası müdafiə

etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 5 may 2006-cı ildə tibb elmləri doktoru alimlik dərəcəsi verilmişdir.

1995-ci ildə vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə etdikdən sonra ATU-nun onkologiya kafedrasına assistent vəzifəsinə təyin edilmiş, 20.10.2005-ci il tarixdə isə onkologiya kafedrasına dosent vəzifəsinə seçilmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 26 sentyabr 2007-ci il tarixli qərarı ilə onkologiya kafedrası üzrə dosent elmi adı verilmişdir.

28.04.2010-cu il tarixdə isə onkologiya kafedrasına professor vəzifəsinə seçilmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 dekabr 2010-cu ildə onkologiya kafedrası üzrə professor elmi adı verilmişdir.

27.05.2011-07.12.2016-cı illərdə Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika Fakültəsinin dekanı, 07.12.2016-cı il tarixdən hazırkı vaxta qədər Onkologiya kafedrasında 1,0 vahid professor vəzifəsində işləyir. 20.02.2017-ci il tarixdən ATU-nun Onkoloji klinikasının elmi-tədris işləri üzrə direktor müavinidir (ictimai əsaslarla). Həm də Onkologiya kafedrası müdirinin tədris işləri üzrə müavinidir.

Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2010-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adı veril-mişdir.

Elmi rəhbərliyi altında 6, elmi məsləhətçiliyi altında 1 tibb üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə

edilmiş, 1 dissertasiya işi ilkin müzakirədən keçmiş və müdafiəyə tövsiyyə olunmuşdur. Elmi rəhbərliyi altında 2 tibb üzrə fəlsəfə doktoru dissertasiyası üzərində tədqiqatlar davam etdirilir, həmçinin, "Onkologiya" ixtisası üzrə rezident hazırlığı həyata keçirilir.

Tərəfindən xarici ölkələrdə dərc edilmiş elmi işlər də daxil olmaqla 304 elmi və tədris- metodik iş dərc edilmişdir ki, onlar arasında Tibb Universitetinin tələbələri üçün onkologiyaya dair 3 dərslik və 6 dərs vəsaiti, 3 monoqrafiya, 3 tədris-metodik vəsait, 2 səmərələşdirici təklif və 2 metodik tövsiyyələr vardır. 2000-ci ildə "Sümük şişləri zamanı horomonal-metabolik dəyişikliklər" mövzusunda silsilə elmi işlərinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Gənc alimlər" müsabiqəsinin (təbiət elmləri üzrə) qalibi olmuşdur.

Onkologiya kafedrasında 2020-2024-cü illərdə yerinə yetirilən "Klinik, morfoloji, molekulyar-genetik müayinələr əsasında və immuno-target terapiyadan istifadə etməklə bədxassəli şişlərin müalicə üsullarının optimallaşdırılması" mövzusu üzrə "Yumurtalıq törəmələrinin diferensiasiyasında HE-4 və CA-125 biomarkerlərinin rolu, ROMA indeksı" işinin məsul icraçılarındandır.

## 2016-2019 Qorxmaz X. Əhmədov



Qorxmaz X. Əhmədov 1970-ci ildə Bakı şəhərində anadan olub.1986-1993-cü illərdə Azərbaycan Tibb Universiteti, I Müalicə-Profilaktika fakültəsində, 1993-1994-cü illərdə – İnternatura, M.Topçubaşov adına Elmi-Tədqiqat Klinik və Eksperimental Cərrahlıq İnstitutu (ETKECİ), 1994-1998-ci illərdə – Aspirantura, M.Topçubaşov adına ETKECİ, 2003-cü ildə - ATLS – Səudiyyə Ərəbistanı Krallığında Advanced Trauma Life Support (American college of surgeons) Travma zamanı həyat dəstəyi təkmilləşdirilmiş kursu, 2003-2005-ci illərdə - Səudiyyə Ərəbistanı Krallığında IMRCS (Intercollegiate Membership of Royal College of Surgeons) 1-ci və 2-ci hissə (UK), 2008- ci ildə - Səudiyyə Ərəbistanı Krallığında BCLS (Saudi Heart Association in affiliation with American Heart Association) Təməl Kardioloji Həyat Dəstəyi kursu, 2014-cü ildə - P.L.Şupik adına Milli Diplomdan sonrakı Tibbi Təhsil Akademiyası nəzdində "Endofors" endoskopik cərrahiyyə üzrə tədris mərkəzində (Kiyev, Ukrayna) "Laparoskopik cərrahiyyədən əsas intensiv praktiki kurs" 1 aylıq təcrübə keçmə kursu üzrə təhsil almışdır.

1999-2011-ci illərdə–ATU "Pediatriya Fakültəsinin Cərrahi Xəstəliklər" kafedrasında assistent, 2002-2010-

cu illərdə – Səudiyyə Ərəbistanı Krallığının Əl Rass Ümumi Xəstəxanasında Cərrah, 2011-ci il hal-hazıradək – ATU "III Cərrahi Xəstəliklər" kafedrasında dosent, 2012 – 2015-ci illərdə - ATU. Tədris Metodik və İnnovasiya Şöbəsində Metodist, 2015 – Dekabr 2016-cı ildə ATU Tədris Cərrahiyyə Klinikasının Tədris Treninq Mərkəzində Rəhbər, Dekabr 2016 – 2019-cu illərdə ATU I Müalicə - Profilaktika fakültəsində Dekan vəzifəsində çalışmışdır.

Ümumi cərrahiyyə, açıq və laparoskopik əməliyyatlar icra edir. 1998-ci ildən Tibb üzrə Fəlsəfə Doktoru, 2011-ci ildən Dosent adını almışdır.

Onun 2 dərs vəsaiti, 2 ixtira, 1 metodik tövsiyyə, 1 səmərələşdirici təklif, 30 elmi məqaləsi vardır.

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Mobillik-3" qrantı (Qrant № EİF-Mob-3-2013-6(12)-14/05/3), Tempus SMGR No: 517340 – TEMPUS - 1-2011-1- IT.

DOQUP (Documentation of Quality Assurance of Study Programs) – ATU Təhsil Proqramlarının Keyfiyyət Təminatının Sənədləşdirilməsi. 2012-2014. Genuya, İtaliya kimi qrant və layihələri vardır.

## *I Müalicə-Profilaktika Fakültəsinin hal hazırkı strukturu*

I Müalicə-Profilaktika Fakültəsi

## Fakültənin Dekanı

## 2019-cu ildən hal-hazıradək Novruzov Elşad Mirzəli oğlu



Novruzov Elşad Mirzəli oğlu, 25 iyun 1978-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə Xətai rayonu 95 saylı orta məktəbə daxil olmuş 1995-ci ildə bitirmişdir. Həmin ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika Fakültəsinə qəbul olmuş və 2001-ci ildə bitirmişdir. 2001-2010-cu illərdə dermatolovenerologiya kafedrasında baş laborant, 2010-2013-cü illərdə assistent vəzifəsində çalışıb, 2013-cü ildən hazırki dövrə qədər dosent vəzifəsində fəaliyyət göstərir. 2008-ci ildə "Kişilərin urogenital yolunun iltihabi xəstəliklərinin inkişafında anaerob mikrofloranın rolu" mövzusunda dissertasiya işini müdafiə etmiş və tibb elmləri namizədi elmi dərəcəsi və diplomu almışdır. 2013-cü ildə "Dəri və selikli qişaların kandidozlarının törədicilərinin etioloji strukturunun vəziyyəti, onların diaqnostikası, müalicəsinə yanaşmanın qiymətləndirilməsi və profilaktikasının sosial-epidemioloji əsasları" doktorluq dissertasiyası işinin mövzusu təsdiqlənmiş və hazırda elmi iş üzərində işləyir. 2015-ci ildə dosent elmi adı diplomunu alıb. 2010-2017-ci illərdə ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır. 2015-ci ildə

YAP tərəfindən 23 saylı Nəsimi-Səbail seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüşdür. 2018-ci il ATU Tədris şöbəsinin müdir müavini, 2019-cu ildən hal-hazıradək I Müalicə-Profilaktika Fakültəsinin dekanı vəzifəsində çalışır.

Dərc olunmuş 40 elmi işin, 1 tədris proqramının və 3 dərsliyin həmmüəllifidir.

YAP-ın və Dermatovenerolоqların Elmi Cəmiyyətinin üzvüdür.

I Müalicə-Profilaktika Fakültəsi

## Fakültənin Dekan müavinləri

## 2019-cu ildən hal-hazıradək Mikayılova Nigar Xizri qızı



Mikayılova Nigar Xizri qızı 1984-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1990-2001-ci illərdə 20 nömrəli məktəbdə təhsil alıb. 2001-2005-ci illərdə Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsini bitirib.

2005-ci ildə Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasına laborant, 2008-ci ildə həmin kafedrada baş laborant, 2018-ci ildən Bioloji kimya kafedrasında asisstent, 2023-cü ildən baş müəllim vəzifəsinə təyin olunmuşdur.

2006-2008-ci illərdə Azərbaycan Tibb Universitetinin magistr pilləsini bitirib.

2012-2016-ci illər ərzində Azərbaycan Milli Elmlər Akademiyasının Botanika İnstitutunun dissertantı olaraq "Bilacunaria microcarpa (bıeb.) M.pimen et V.Tıchomirov və Seselı Campestre Bess. (apıaceae) növlərinin kumarin törəmələrinin öyrənilməsi" mövzusunda dissertasiya işini müdafiə edərək biologiya elmləri üzrə fəlsəfə doktoru elmi adını almışdır.

2019-cu ildən Azərbaycan Tibb universitetinin I Müalicə-Profilaktika Fakültəsinə akademik məsləhətçi həmin ildən hal-hazıradək I Müalicə-Profilaktika Fakültəsində dekan müavini vəzifəsində çalışır.

Kafedrada işlədiyi müddətdə 4 məqalə və 1 tezisi çap olunub, bir sıra yerli və beynəlxalq konfransların iştirakçısı olub o cümlədən təşəkkürnamələrə və sertifikatlara layiq görülüb.

I Müalicə-Profilaktika Fakültəsi

# 2017-ci ildən hal-hazıradək Quliyev Mahir İsa oğlu



1972-1982-ci ilərdə Tovuz rayon Qovlar qəsəbə orta məktəbində oxumuşdur. 1984-1986-cı illərdə Kuybışev şəhərində hərbi xidmətdə olmuşdur. 1987-1993-cü illərdə Bakı Dövlət Universitetində biologiya fakültəsində oxuyub.

1992-1993-cü illərdə Daxili Qoşunların tərkibində Qarabağın azadlığı uğrunda döyüşlərdə iştirak edib. Müharibə veteranıdır.

1993-1996-cı illərdə Elmlər akademiyasının “Genetika və seleksiya” institunda aspiranturada oxuyub. 1999-cu ildə biologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

2000-ci ildə Azərbaycan Tibb Universitetinin Sitologiya, embriologiya və histologiya kafedrasında assistent əvəzi, 2001-2010-cu illərdə assistent, 2010-2020-ci ildə baş müəllim, 2020-ci ildən hal-hazıra kimi dosent vəzifəsində işləyir. Eyni zamanda 2017-ci ildən I Müalicə-profilaktika fakültəsində dekan müavini vəzifəsində işləyir.

## 2023-cü ildən hal-hazıradək Novruzova Gültəkin Əliabbas qızı



Novruzova Gültəkin Əliabbas qızı 20 fevral 1974-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1990-cı ildə orta məktəbi fərqlənmə ilə bitirib, Azərbaycan Tibb İnstitutunun (Universitetinə) Pediatriya fakultəsinə qəbul olmuşdur. 1996-cı ildə ali təhsilini başa vurub, 1996-1997-ci illərdə K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda internatura keçmişdir. 1997-ci ildən həmin institutun pulmonologiya şöbəsində müalicə işi ilə məşğul olmuşdur.

2005-ci ildən etibarən Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakultəsinin Uşaq xəstəlikləri kafedrasında stajçı-assistent, 2006-cı il dekabr ayının 19-dan etibarən isə assistent vəzifəsində çalışır.

Pedaqoji fəaliyyəti ilə yanaşı kafedra iclaslarında, ölkədaxili və ölkəxarici elmi-metodik seminarlarda, elmi konfranslarda, təlim kurslarında iştirak etmişdir. Müəllimlik fəaliyyəti ilə yanaşı elmə də maraq göstərməkdədir. “Süni mayalanma ilə doğulan

I Müalicə-Profilaktika Fakültəsi

yenidoğulmuşların tənəffüs sisteminin adaptasiyasının və xəstəliklərinin xüsusiyyətləri” mövzusunda dissertasiya işini bitirib, 2022-ci ildə pediatriya ixtisası üzrə tibb elmləri fəlsəfə doktoru elmi dərəcəsi almışdır.2023 –cü ildən I Müalicə-profilaktika fakültəsinin dekan müavini kimi də fəaliyyət göstərir.

# Akademik məsləhətçilər

## 2014-cü ildən hal-hazıradək Rüstəmova Sədaqət Məhyəddin qızı



Rüstəmova Sədaqət Məhyəddin qızı 16 iyun 1969-cu ildə Yevlax şəhərində anadan olmuşdur. 1990-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun II Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1996-cı ildə Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirərək, müalicə həkimi ixtisasına yiyələnməklə, İnsan Anatomiyası kafedrası nəzdində aspiranturaya qəbul olmuşdur.

1996-1999-cu illər ərzində İnsan anatomiyası kafedrasında aspirant, 2000-2006-cı illərdə assistent, 2006-2015-ci illərdə baş müəllim vəzifələrində işləyib. 2015-ci ildən hazıradək İnsan anatomiyası və tibbi terminologiya kafedrasında dosent vəzifəsində çalışır.

2003-cü ildə "Merkazolil və hipokineziyanın təsiri altında qalxanabənzər vəzinin morfofunksional dəyişiklikləri" adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali

I Müalicə-Profilaktika Fakültəsi
Attestasiya komissiyasının qərarı ilə “Dosent“ elmi adına layiq görülmüşdür.

2019-cu ildə Səhiyyə sistemində çoxillik səmərəli və qüsursuz əmək fəaliyyətinə görə Səhiyyə işçiləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin Fəxri Fərmanı ilə təltif olunub.

120-dək elmi tezis və məqalənin, 2 dərs vəsaitinin müəllifidir.

1998-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 2014-cü ildən Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsində akademik məsləhətçi işləyir. Müxtəlif illərdə Respublikada və xaricdə keçirilən elmi-praktik konfranslarda fəal iştirak etmişdir. 2018-ci ildən Anatom, Histoloq və Embrioloqlar cəmiyyətinin üzvüdür.

## 2023-cü ildən hal-hazıradək İbrahimova Ləman Vahid qızı



İbrahimova Ləman Vahid qızı 26 may 1984-cü ildə Bakı şəhərində anadan olub. 2001-ci ildə orta məktəbi bitirib, Azərbaycan Tibb Universitetinə II Müalicə-Profilaktika Fakültəsinə qəbul olmuşdur. 2007-ci ildə ali təhsili başa vurub, 2007-2008-ci illərdə internatura keçib.

2012-ci ilin oktyabr ayından etibarən Azərbaycan Tibb Universitetinin Müalicə-Profilaktika Fakültəsinin Dermatoneverologiya kafedrasında baş laborant, 2023-cı il may ayından hal-hazıradək I Müalicə-profilaktika fakültəsində akademik məsləhətçi vəzifəsində çalışır.

Pedaqoji fəaliyyəti ilə yanaşı kafedra iclaslarında, ölkədaxili və ölkəxarici elmi-metodik seminarlarda, elmi konfranslarda, təlim kurslarında iştirak edir. Dermatovenerologiya ixtisası üzrə ixtisasartırma kurslarında iştirak edib.

I Müalicə-Profilaktika Fakültəsi

# 2023-cü ildən hal-hazıradək Qocayeva Səma Mirzə qızı



Qocayeva Səma Mirzə qızı 1989-cu il mart ayının 8-i Şəmkir şəhərində anadan olmuşdur. Orta məktəbi Bakı şəhəri Nəsimi rayonu 152 saylı orta məktəbdə oxuyub. Məktəbi bitirdikdən sonra 2007-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuşdur. 2011-ci ildə həmin Universiteti bitirib. 2013-cü ildən Azərbaycan Tibb Universitetində katibə-operator, 2023-cü ildən isə I Müalicə-Profilaktika fakültəsində akademik məsləhətçi vəzifəsində çalışır.

# Fakültənin Həmkarlar Təşkilatının sədri

## Zeynalov Babək Mehman oğlu



Zeynalov Babək Mehman oğlu Azərbaycan Respublikası Füzuli rayonu Araz-Zərgar kəndində 02 yanvar 1971-ci ildə anadan olmuşdur. 1977-ci ildə Araz Dilağarda kənd 8 illik məktəbin birinci sinfinə getmişdir. 1985-ci ildə həmin məktəbin 8-ci sinfini bitirərək, Bakı şəhəri 5 №-li Kimya-biologiya təmayüllü internat məktəbin 9-cu sinfinə qəbul olmuşdur. 1987-ci ildə o məktəbi bitirərək N. Nərimanov adına Azərbaycan dövlət Tibb İnstitutunun I Müalicə-Profilaktika Fakültəsinə daxil olub. 1993-cü ildə Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə başa vuraraq Elmi Şuranın qərari ilə I cərrahi xəstəliklər kafedrasında klinik ordinator saxlanılıb. 1995-ci ildə kliniki ordinaturanı başa vuraraq həmin kafedrada aspirant kimi təhsilimi davam etdirib. 1998-ci ildə aspiranturanı bitirərək «Yoğun bağırsaq operasiyalarında anastomoz tikişləri tutmazlığının proqnozlaşdırılması və profilaktikası» mövzusunda namizədlik dissertasiyası işini müdafiə

edərək 1999-cu ildən tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

1999-2001-ci illərdə I cərrahi xəstəliklər kafedrasında baş laborant, 2001-2013-cü illərdə assistent, 2013-cü ildən həmin kafedrada dosent vəzifəsində çalışır. Bu illər ərzində elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 170-dən çox elmi məqalə və tezisin, 2 dərs vəsaiti və 3 dərsliyin həmmüəllifidir. Eyni zamanda bu illər ərzində və hazırda cərrahlğın müxtəlif sahələrində praktiki işlə məşğuldur. Qarın boşluğunun orqanlarının təcili və planlı cərrahiyyəsində çoxsaylı əməliyyatlar edir.

2017-ci ildən bu günə qədər I Müalicə-Profilaktika Fakültəsi Həmkarlar Təşkilatının sədridir.

2017-ci ildən I Müalicə-Profilaktika Fakültəsinin Elmi Şurasının üzvüdür. Respublikada və xaricdə keçirilən 158 elmi konfransda iştirak edib.

Rusiya Federasiyası proktoloqlar və Avropa koloproktoloqlar cəmiyyətinin üzvüdür.

# Fakültənin Tələbə Elmi Cəmiyyətinin Elmi Rəhbəri

## Şadlinskaya Səbinə Vaqif qızı



Şadlinskaya Səbinə Vaqif qızı 23 dekabr 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 1987-1998-ci illərdə Bakı şəhəri Binəqədi rayonu 276 saylı orta məktəbdə almışdır. 1998-ci ildə Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinə daxil olub. 2004-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib, 2006-cı ilədək "Mama-ginekologiya" ixtisası üzrə Azərbaycan Tibb Universitetinin nəzdində kliniki ordinaturada hazırlıq kursunu keçib.

2006-2009-cu illərdə Azərbaycan Tibb Universitetinin I Mamalıq və ginekologiya kafedrasında aspirantura keçmişdir.

2009-cu ildə "Uşaqlıq borusunun normada, kontralateral aplaziya və boru hamiləliyi zamanı onun limfoid aparatının funksional morfologiyası" (İnsan anatomiyası – 14.00.02; Mamalıq və ginekologiya – 14.00.01 ixtisası üzrə) mövzusunda tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

I Müalicə-Profilaktika Fakültəsi

2009-2017-ci illərdə Azərbaycan Tibb Universitetinin I Mamalıq və ginekologiya kafedrasında assistent vəzifəsində çalışmışdır.

2017-ci ildən Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasında assistent və həmin ildə baş müəllim, 2021-ci ildən dosent vəzifəsində çalışır.

2019-cu ildə “World Research Council” (Ümumdünya Tədqiqat Şurası) tərəfindən “Best Scientist in Human Anatomy” (İnsan anatomiyası üzrə ən yaxşı alim) adına və həmin təşkilatın medalına layiq görülmüşdür.

“Nəzəri, klinik və eksperimental morfologiya” jurnalının redaksiya heyətinin üzvüdür. 3241.01 ixtisası üzrə tibb üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün “Postnatal ontogenez və eksperimentdə uşaqlıq yolu dəhlizinin kiçik vəzilərinin, limfoid törəmələrinin makromikroskopik anatomiyası, morfogenezinin qanunauyğunluqları” mövzusunda dissertasiya işi yekunlaşdıraraq tibb elmləri doktoru adını almışdır.

2023 ildən Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika Fakültəsinin elmi şurasının üzvü və Fakültə Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəridir

# Fakültənin Elmi katibi

## Axundov Samir Fuad oğlu



Axundov Samir Fuad oğlu, 1964-ci il 10 iyun tarixində Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1971-ci ildə Bakı şəhəri 211 saylı orta məktəbə daxil olmuş və 1981-ci ildə həmin məktəbi bitirmişdir. Elə həmin il (1981 ildə) N.Nəri-manov adına Azərbaycan Tibb İnstitutun pediatriya fakültəsinə daxil olmuş və 1987-ci ildə həmin fakültəni bitirərək pediatriya ixtisası üzrə diplom almışdır. 1987-1988-ci illərdə Bakı şəhəri M. Nağıyev adına KTTY xəstəxanasında uşaq cərrahiyyəsi üzrə subordinatura və internaturanı keçmişdir.

1989-1992-ci illərdə təyinat üzrə Sumqayıt şəhər uşaq xəstəxanasının poliklinika şöbəsində uşaq cərrahı vəzifəsində çalışmışdır.

1992-ci ildə uşaq cərrahiyyəsi ixtisası üzrə aspiranturaya daxil olmuş və 1995-ci ildə aspiranturanı bitirmişdir. 2000-ci ildən ATU-nun uşaq cərrahlığı kafedrasının stajor-assistenti və 2001-ci ildən həmin kafedranın assistenti vəzifəsində çalışmışdır.

2008-ci ildə «Uşaqlarda uzun borulu sümüklərin xroniki hematogen osteomielitin müalicəsində "Toxumadaxili antiseptikanın" tətbiqi» mövzusunda

dissertasiya müdafiyyə edərək, tibb elmləri namizədi dərəcəsini almışdır. 90- dan çox elmi məqalə və tezisin, iki səmərələşdirici təklifin müəllifidir.

2014-ci ildən 2017-ci ilə kimi həmin kafedrada tədris hissə müdiri vəzifəsində çalışmışdır.

2023-cü ildən etibarən Uşaq cərrahlığı kafedrsında dosent vəzifəsində çalışır.

2017-ci ildən bu günə kimi I Müalicə-Profilaktika Fakültəsinin Elmi katibi vəzifəsində çalışır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

# Fakültənin Dövlət Attestasiya Komissiyasının Sədri

## Qurbanova Cəmilə Fazil qızı



Qurbanova Cəmilə Fazil qızı 16 sentyabr 1972-ci ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1995-ci ildə Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə bitirdikdən sonra Ş. Ələsgərova adına 5 saylı doğum evində internatura keçmiş, 1996-1998-ci illərdə isə Azərbaycan Tibb Universitetinin Mamalıq və Ginekologiya kafedrasında klinik ordinaturada təhsil almışdır.

1998-ci ildə İ.M.Seçenov adına Moskva Tibb Akademiyasının 2-ci Mamalıq və Ginekologiya kafedrasında əyani aspiranturaya daxil olmuşdur.

2000-ci ildə Rusiya Tibb Elmlər Akademiyasının akademiki A.N. Strijakovun rəhbərliyi ilə "Reproduktiv yaşda yumurtalıqların irinli iltihabi xəstəliklərinin diaqnostika və müalicəsində az invaziv cərrahiyyənin rolu" mövzusunda namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi adı almışdır. O, elə həmin ildə də İ.M. Seçenov adına Moskva Tibb Akademiyasının Mamalıq və Ginekologiya kafedrasının müdiri akademik A.N. Strijakovun təqdimatı ilə elmi fəaliyyətini davam

etdirmək üçün həmin kafedrada doktoranturaya qəbul olunmuşdur.

Qurbanova Cəmilə Fazil qızı 2003-cü ildə “Uşaqlıq artımlarının irinli xəstəliklərinin patogenezi, klinikası, diaqnostikası və müalicəsinin yeni aspektləri” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2002-2004-cü illərdə İ.M. Seçenov adına Moskva Tibb Akademiyasının 2-ci Mamalıq və Ginekologiya kafedrasında pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Həm tibb elmləri namizədi, həm də tibb elmləri doktoru elmi dərəcəsi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmişdir.

2012-ci ildə Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Qurbanova Cəmilə Fazil qızına Mamalıq və Ginekologiya ixtisası üzrə professor elmi adı verilmişdir.

O, 2003-2004-cü illərdə Moskva şəhərində N.A.Semaşko adına Rusiya Dəmiryol Mərkəzi Kliniki Xəstəxanasının “Ginekologiya” şöbəsində cərrah-ginekoloq vəzifəsində çalışmışdır.

Qurbanova Cəmilə Fazil qızı 2004-2013-cü illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda elm üzrə direktor müavini vəzifəsində çalışmışdır. 2013-cü ildən bu günə qədər həmin müəssisədə direktor vəzifəsində çalışır.

Qurbanova Cəmilə Fazil qızı 2012-ci ildə “Ginekologiya və Perinatologiyanın inkişafına dəstək” qeyri- hökumət təşkilatını təsis etmişdir və hazırkı vaxtadək assosiasiyanın prezidenti vəzifəsində çalışır. Assosiasiyanın təşkilatçılığı ilə 2013-cü ildən hal-

hazıradək Bakı şəhəri, Respublikamızın müxtəlif regionlarından və müxtəlif ölkələrdən olan mama-ginekoloqların, neonatoloqların, anestezioloq-reanimotoloqların, cərrahların, genetiklərin, onkoloqların iştirakı ilə 150-dən çox seminar, dəyirmi masa, elmi-praktik konfranslar keçirilmişdir. Onun rəhbərliyi altında “Ginekologiya və Perinatologiyanın İnkişafına dəstək” qeyri-hökümət təşkilatı 2013-cü ildən hazırkı vaxtadək Beynəlxalq Mama-Ginekoloqlar Federasiyasının üzvüdür. Beynəlxalq Mama-Ginekoloqlar Federasiyası (İnternational Federation of Gynecology and Obstetrics – FİGO) 1954-cü ildə yaradılmış və mama-ginekologiya sahəsində olan müalicə və profilaktikaya dair əsas protokolların tərtibində və nüfuzlu konfransların təşkilində aparıcı təşkilatdır. Dünyanın 132 ölkəsinin mama-ginekoloqları, o cümlədən bütün qonşu dövlətlərin bu təşkilatın üzvü olmasına baxmayaraq, Azərbaycan yalnız 2013-cü ildə Qurbanova Cəmilə Fazil qızının rəhbərliyi altında “Ginekologiya və Perinatologiyanın İnkişafına dəstək” qeyri-hökümət təşkilatı vasitəsi ilə müvafiq beynəlxalq təşkilatın üzvü olmuşdur.

Qurbanova Cəmilə Fazil qızının şəxsi təşəbbüsü ilə “Ginekologiya və Perinatologiyanın inkişafına dəstək” qeyri-hökumət təşkilatı nəzdində “Müasir Ginekologiya və Perinatologiyanın aktual məsələləri” adlı jurnal təsis edilmiş və O, həmin jurnalın baş redaktoru vəzifəsində çalışır. Həmin jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyatdan keçmişdir.

Qurbanova Cəmilə Fazil qızı “Ginekologiya və Perinatologiyanın inkişafına dəstək” qeyri-hökumət təşkilatının və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlıq edərək respublikamızın müxtəlif regionlarında həkimlərlə treninqlərin keçirilməsində və əhalinin maarifləndirilməsində fəal iştirak etmişdir.

Qurbanova Cəmilə Fazil qızı ali dərəcəli həkim cərrah kimi sadə tubektomiyadan tutmuş uşaqlığın ekstripasiyasınadək bütün təcili və planlı əməliyyatları, habelə laparoskopiya əməliyyatlarını həyata keçirməyi bacarır.

Qurbanova Cəmilə Fazil qızı Rusiya Ginekoloqlar Assosiasiyasının və Endoskopik Cərrahlar Assosiasiyasının, Avropa Tibb Akademiyasının, Beynəlxalq Mama-Ginekologiya Federasiyasının üzvüdür. O, 277 elmi işin, o cümlədən 12 kitabın və 23 metodik tövsiyənin, 1 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında 8 namizədlik və 3 doktorluq dissertasiyası müdafiə olunmuşdur, 15 dissertant isə müdafiəyə hazırlaşır.

Qurbanova Cəmilə Fazil qızı 2018-ci ilin mart ayında ictimai və tibbi fəaliyyətindəki roluna görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən “Tərəqqi” medalı ilə təltif edilmişdir. “Azərbaycan Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri” İctimai birliyi tərəfindən 2018-ci ilin noyabr ayında Qurbanova Cəmilə Fazil qızı “Vətənpərvərlik İşində Xidmətlərinə Görə” medalına layiq görülmüşdür. 2018-ci ilin dekabr ayında Böyük Britaniya Oksford Akademik Birliyi və Beynəlxalq Sokrates Komitəsi tərəfindən milli elmin inkişafına verdiyi töhfələrə, regional və qlobal sosial-tibbi problemlərin

həllindəki roluna görə Qurbanova Cəmilə Fazil qızı "Name of Science" mükafatına layiq görülmüşdür. Həmin mükafat "Elmi Ad" və "Dünya elminə verilən töhfə"yə görə C.F.Qurbanovanın 21-ci əsrin alimləri siyahısına daxil olduğuna görə fəxri diplomdan ibarətdir. O, 2019-cu ilin iyun ayında elmi-pedaqoji fəaliyyətinə görə Oksford Akademik Birliyinin fəxri professoru adına və "Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək" assosiasiyasının rəhbəri kimi ictimai fəaliyyətindəki aktivliyinə görə "Rosa Parasels" mükafatına layiq görülmüşdür. Həmçinin 2019-cu ildə elmi-təcrübi fəaliyyətində əldə etdiyi nailiyyətlərə görə Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan bölməsinin akademiki və eyni zamanda tibb və biologiya şöbəsinin müdiri seçilmişdir. 2019-cu il tarixdən C.F.Qurbanova Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ED2.06 Dissertasiya Şurası Nəzdində "Mamalıq və Ginekologiya" ixtisası üzrə Elmi seminara sədr təyin edilmişdir. Eyni zamanda 2019-cu ildən I Müalicə-Profilaktika fakültəsi üzrə Dövlət Attestasiya Komissiyasının Sədri təyin olunmuşdur. Həmçinin 2020-ci ildən İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında pedaqoji fəaliyyət göstərir. 2021-ci ildə Dədə Qorqud Milli Fondu tərəfindən "Qızıl Ürək" ordeni ilə mükafatlandırılıb. 2023-cü ildə Rusiya Təbiət Elmləri Akademiyası tərəfindən "Akademiyanın xarici üzvü" seçilib.

I Müalicə-Profilaktika Fakültəsi

# Fakültənin Dövlət Attestasiya Komissiyasının katibi

## Kərimova Türkan Baxış qızı



2 noyabr 1953-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1971-ci ildə Bakı şəhəri 193 saylı orta məktəbi bitirdikdən sonra N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnistitutunun (hazır-da Azərbaycan Tibb Universiteti) II Müalicə-profi-laktika fakültə-sinə daxil olmuş və 1977-ci ildə bitirmişdir.

1977-78-ci illərdə 5 saylı şəhər klinik xəstəxanasında birillik internaturanı keçdikdən sonra, 1979-cu ildə Bakı şəhər Təcili Tibb yardım xəstəxanasında həkim terapevt, həmin ildən 1983-cü ilə qədər həkim reanimatoloq vəzifəsində çalışmışdır.

1983-1990-cı illlər ərzində Azərbaycan Tibb İnistitutunun anesteziologiya və reanimatologiya kafed-rasında baş laborantı, 1990-2012-ci illərdə həmin kafedranın assistenti olmuş və 2012-ci ildən hal-hazıra qədər dosent vəzifəsində çalışır. 2018-ci ildən etibarən anesteziologiya və reanimatologiya kafedrasında kafedra müdirin tədris işləri üzrə müavinidir.

1993-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş, t.ü.f.d. elmi adını qazanmışdır. 30 ildən artıq kafed-ranın və I-MPF-nin həmkarlar təşkilatının büro üzvüdür.

2017-22-ci illərdə Azərbaycan Respublikası Reanimatoloqlar və Anestezioloqlar cəmiyyətinin elmi katibi vəzifəsində çalışmış, 2017-ci ildən I MPF üzrə dövlət attestasiya komissiyasının katibi vəzifəsini icra edir. 98 elmi metodik əsərin, o cümlədən 1 dərslik, 1 dərs vəsaitin həmmüəllifidir.

I Müalicə-Profilaktika Fakültəsi

# Rezident Abızadə Rəşad Səfdər oğlu



Abızadə Rəşad Səfdər oğlu 17 sentyabr 2000-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2006-cı ildə Mehdiabad qəsəbə 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2017-ci ildə həmin məktəbi bitirərək. Azərbaycan Tibb Universitetinin ATU-nun I Müalicə-Profilaktika Fakültəsinə qəbul olmuşdur.

2019-2023-cü illər ərzində I Müalicə Profilaktika Fakültəsi Tələbə Elmi Cəmiyyətinin Sədri vəzifəsində ictimai əsaslarla çalışmış, I MPF Fakültə Elmi Şurasının üzvü olmuşdur . Təhsil aldığı dövr ərizində müxtəlif elmi konqres və konfranslarda həm iştirakçı, həm də təşkilində iştirak etmiş, bir çox sertifikat, təşəkkürnamələrlə təltif olunmuşdur.

2020-2022-ci illərdə Akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Anesteziologiya, Reanimasiya və İntensiv Terapiya şöbəsində təcrübə keçmişdir.

16 Avqust-10 Sentyabr 2021-ci il tarixlərində Türkiyə Cümhuriyyəti, Samsun şəhərində yerləşən On Dokkuz Mayıs Universitetində “Hematologiya” və “Revmatologiya” şöbələrində, 10 İyul-10 avqust 2022-ci il tarixində Türkiyə Cümhuriyyəti, İzmir şəhərində yerləşən Dokkuz Eylül Universitetində “Kardiologiya” şöbəsində təcrübə keçmişdir.

16-21 Noyabr 2021-ci ildə Türkiyə Cümhuriyyəti, Antalya şəhərində keçirilən “38. Beynəlxalq Qastroenterologiya Həftəsi və 6. Beynəlxalq Qastro-enterologiya konfransı”nda “Qida borusunun varikoz venalarının band liqasiyasından sonra çapıq daralması” adlı tezisin həmmüəllifi olmuşdur.

18-21 İyun 2022-ci il tarixində Naxçıvan Muxtar Respublikasında keçirilən “I Beynəlxalq Tibb Formu”nda “Covid-19 pandemiyası zamanı piylənmə və bəzi sağlamlıq göstəricilərinin dəyişmə təzahüri” adlı məruzə ilə çıxış etmişdir, 09-11 Dekabr 2022-ci ildə Gürcüstan Respublikası, Tbilisi şəhərində keçirilən “Multidisplinar Tibb və Sağlamlıq Elmləri Konfransı”nda “Piylənmə zamanı mədənin selikli qişasının struktur elementlərinin ultrastuktur xarakteristikası” mövzusunda elmi işlə çıxış etmişdir. 23 Mart 2023-cü ildə Ukrayna Respublikası, Chernistivi şəhərində keçirilən “Beynəlxalq Bukovnian Tibb Konqresi”ndə “Covid-19 pandemiyası zamanı piylənmə və bəzi sağlamlıq göstəricilərini dəyişməsi” adlı tezisi çap olmuşdur. 27 May 2023-cü ildə Bakı şəhərində keçirilən “Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 6. Beynəlxalq, 2. Xəzəryanı, 4. Türkdilli dövlətlər Bariatrik cərrahiyyə və Metobolik Xəstəliklər Konqresi, 52. Beynəlxalq Bariatrik Klub Simpoziumu”nda “Piylənmə zamanı mədənin selikli qişasında baş verən iltihabi dəyişikliklərin ultrastuktur xarakteristikası” mövzusunda elmi məruzə ilə çıxış etmişdir.

2024-cü ildə “Öd kisəsinin xoşxassəli xəstəlik-lərinə görə xolesistektomiyadan sonra 30 gün sonra

ağırlaşmalar – Prospektiv, Beynəlxalq Kollaborativ tədqiqat" mövzusunda elmi məqaləsi "Annals of Surgery" jurnalında (İF-10.1) çap edilmişdir.

03-05 Aprel 2023-cü il tarixlərində keçirilən "Akad. Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş I Müalicə-Profilaktika Fakültəsi Tələbə Elmi Cəmiyyətinin Konfransının Tezisləri Toplusunun" redaktoru olmuşdur.

1 Oktyrabr 2023-cü il tarixindən Mərkəzi Neftçilər Xəstəxanasında Revmatologiya ixtisası üzrə həkim-rezident vəzifəsində çalışır.

# Azərbaycan Tibb Universiteti Tələbə Gənclər Təşkilatının Sədri

## Məmmədov Məhəmməd Rəsul oğlu



Məhəmməd Rəsul oğlu Məmmədov 2002-ci il iyunun 5-də Saatlı rayonunda anadan olmuşdur. Həyatının məktəbə-qədər dövrü Saatlı rayonu 1 saylı uşaq bağçasında keçmişdir.

2008-ci ildə Saatlı rayon 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2019-cu ildə sözügedən məktəbi bitirib Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika fakültəsinə daxil olmuşdur. Hal-hazırda həmin universitetin 5-ci kursunda oxuyur.

2022-ci ildən etibarən Azərbaycan Tibb Universiteti Tələbə Gənclər Təşkilatının Sədri vəzi-fəsində çalışır və Azəraycan Tibb Universitetin Böyük elmi şurasının və YAP-ın üzvüdür.

I Müalicə-Profilaktika Fakültəsi

## Fakültə Tələbə Həmkarlar Təşkilatının Sədri

## Cabbarlı Elbəy Emin oğlu



Cabbarlı Elbəy Emin oğlu 2000-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2007-2015-ci illərdə Bakı şəhər, 311 saylı tam orta məktəbində, 2015-2018-ci - isə Kimya Biologiya təmayüllü liseydə oxumuşdur.

2018-ci ildə Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika Fakültəsinə qəbul olmuşdur və hal-hazırda həmin fakültənin 6-cı kurs tələbəsi olaraq təhsilimi davam etdirir.

2018-ci ildən etibarən bir sıra yerli və beynəlxalq konfransların, layihələrin iştirakçısı və bir çox tədbirin təşkilatçısı olmuşdur, o cümlədən, 2020-ci ildən etibarən Tələbə Həmkarlar İttifaqı Komitəsinin Müalicə-Profilaktika Fakültəsinin sədri olaraq fəaliyyət göstərir. I MPF Fakültə Elmi Şurasının üzvüdür.

# Fakültə Tələbə Elmi Cəmiyyətinin Sədri

## Qafarova Nigar Elcan qızı



Qafarova Nigar Elcan qızı 2001-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

2008-2019-ci illərdə Gəncə şəhər, 18 saylı tam orta məktəbində təhsil almışdır.

2019-cu ildə Azərbaycan Tibb Universitetinin 1 Müalicə-Profilaktika Fakültəsinə qəbul olmuşdur və hal-hazırda həmin fakültənin 5-ci kurs tələbəsi olaraq təhsilini davam etdirir.

2019-cu ildən etibarən bir sıra yerli və beynəlxalq konfransların, layihələrin iştirakçısı və bir çox tədbirin təşkilatçısı olub, o cümlədən, fəaliyyəti dönəmində bir sıra sertifikatlara layiq görülüb.

2023-cü ildən etibarən Azərbaycan Tibb Universiteti I Müalicə-Profilaktika Fakültəsinin Tələbə Elmi Cəmiyyətinin Sədri vəzifəsində fəaliyyət göstərir. Eyni zamanda I MPF Fakültə Elmi Şurasının üzvüdür.

I Müalicə-Profilaktika Fakültəsi

# Fakültə Tələbə Gənclər Təşkilatının Sədri

## Hüseynzadə Sərfinaz Eytram qızı



Sərfinaz Eytram qızı Hüseynzadə 2003-cü ildə Bakı şəhərində anadan olub.

2009-cu ildə Cəbrayıl rayon V. Hüseynov adına Daşkəsən kənd tam orta məktəbində təhsil almağa başlayıb.

2020-ci ildə həmin məktəbi fərqlənmə attestatı ilə bitirib və 632.4 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Tibb fakültəsinə daxil olmuşdur. Hal-hazırda həmin universitetin 4-cü kursunda oxuyur.

2022-ci ildən etibarən I Müalicə-Profilaktika Fakültəsinin Tələbə Gənclər Təşkilatının Sədri vəzifəsində çalışır, o cümlədən, I MPF Fakültə Elmi Şurasının üzvüdür.

# Fakültənin Tələbə dekanı

## Əzimli Rüfət Elman oğlu



Əzimli Rüfət Elman oğlu 10 mart 2003-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2009-cu ildə Bakı Avropa Liseyinə daxil olmuşdu. 2020-ci ildə Bakı Avropa Liseyini qızıl medal və xüsusi fərqlənmə attestatı ilə bitirərək həmin ildə Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika Fakültəsinə daxil olmuşdu.

2022-ci ildə fakültənin tələbə dekanı seçilmişdi. Tələbə dekanı olaraq Universitetin Böyük elmi şurasının, Fakültə Şurasının üzvüdür. 2023-cü ildə AzerEdu şirkəti tərəfindən Brend Tələbə seçilən tələbələrdən biridir. ÜOMG göstəricilərində fakültə üzrə fərqlənən tələbələrdən biridir. Məktəb dövründə müxtəlif intelektual yarışların (Xəmsə, Breyn rinq, Fibonaççi) respublika üzrə qalibi olub və universitet dövründə də ATU İOK tərkibində də müxtəlif yarışlarda iştirak etmişdi.

Məktəb dövründə həmçinin şahmat üzrə müxtəlif yarışların qalibi olmuş, ATU THİK Şahmat klubunun təsis edilməsində iştirak etmiş və klubun idarə heyətinin üzvü olmuşdu. 2023-cü ildə Ankara şəhəri Hacettepe

I Müalicə-Profilaktika Fakültəsi
Universitetində Plastik və rekonstruktiv cərrahiyə üzrə yay təcrübəsində iştirak etmişdir.

DİM-in təşkil etdiyi Rezidentura imtahanında birinci mərhələni 72 bal toplayaraq uğurla keçmişdi.

Eyni zamanda I MPF Fakültə Elmi Şurasının üzvüdür.

# *KAFEDRALARIMIZ*

I Müalicə-Profilaktika Fakültəsi

# I CƏRRAHİ XƏSTƏLİKLƏR KAFEDRASI



1919-cu ilin sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər kabinetinin qərarı ilə paytaxt Bakı şəhərində Bakı Universitetinin Tibb fakültəsinin tərkibində hospital cərrahlığı kafedrası yaradılmışdır. Azərbaycan təbabəti tarixində bu ilk cərrahiyyə kafedrası idi. Sonrakı illərdə I cərrahi xəstəliklər kafedrası adlandırılan və 2019-cu ildə 100 illik yubileyi təntənəli surətdə Universitet səviyyəsində qeyd edilən bu kafedra ambulator cərrahiyyədən transplantasyon cərrahiyyəyə qədər yüksələn böyük yol keçmişdir.

Kafedra ölkəmizin, MDB ölkələrinin, inkişaf etməkdə olan Asiya, Afrika və Cənubi Amerika ölkələrinin tibb elmi və səhiyyəsinin inkişafında mühüm rol oynamış, Vətənimiz və həmin ölkələr üçün yüzlərlə yüksək ixtisaslı cərrah kadrları hazırlamışdır. Kafedranın məzunları və əməkdaşları hazırda dünyanın bir çox ölkələrinin nüfuzlu klinikalarında uğurla fəaliyyət göstərir, Azərbaycan səhiyyəsini, cərrahlıq elmini peşəkarlıqla təmsil edirlər.

Hospital cərrahlığı kafedrasının yaranması, təşəkkülü və inkişafı Azərbaycan tarixinin ağır illərində bir neçə mühüm mərhələlərdən keçmişdir. I mərhələdə (1921-1931) kafed-raya professor Finkelşteyn B.K. rəhbərlik etmişdir. Bu dövr kafedranın yaranması, klinik bazanın təşkili, qısa müddət-lərdə tədris, müalicə və elmi işlərin qurulmasını əhatə etmiş, o vaxta qədər öyrənilməmiş diyar patologiyalarına aid çoxlu tədqiqatlar aparılmış və onların nəticələri dövri elmi mətbuatda dərc olunmuşdur. 1921-ci ildə professor B.K. Finkelşteynin “Руководсmво по общеӥ хupypruu” (rus dilində) dərsliyi çapdan çıxmış və uzun illər tələbələrin müəllimlərin əsas tədris vəsaiti olmuşdur.



*Prof. Finkelşteyn B.K.*

1930-cu ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə İttifaq üzrə bütün tibb fakültələri dövlət universitetlərindən ayrılaraq müstəqil Tibb İnstitutlarına çevrildi. Bu qərara uyğun olaraq həmin il müstəqil Azərbaycan Dövlət Tibb İnstitutu yaradılmış və Azərbaycan SSR Səhiyyə Komissarlığının tabeliyinə keçirilmişdir.

II mərhələnin (1931-1958) əvvəllərində kafedranın müdiri vəzifəsinə ilk dəfə milli alim-cərrah professor Mirqasımov Mirəsədulla Mirələsgər oğlu seçilmişdir. Tədrisin həm rus, həm də türk dilində aparılması



*Akad. M.M. Mirqasımov*

institutun və kafedranın professor- müəllim heyəti qarşısında böyük dəyişiklilər, islahatlar aparılması zərurəti yaratmışdır. Tibb elminin əksər sahələri, həmçinin, cərrahi xəstəliklər fənni üzrə elmi terminologiya işləmək, türk dilində dərslik, dərs vəsaitləri və tədris-metodik vəsaitlər nəşr etmək kimi məsələlər qarşıya qoyuldu. Bu nöqteyi-nəzərdən I cərrahi xəstəliklər kafedrasında böyük işlər görüldü. Artıq 1932-ci ildə professor M.M. Mirqasımov tərəfindən ümumi cərrahlıq üzrə türk dilində ilk qısa dərslik tərtib edildi və nəşr olundu. 1941-ci ildə Böyük Vətən (II Dünya) müharibəsinin başlanması ilə əlaqədar olaraq kafedrada cəmi 2 əməkdaş saxlanıldı. Müharibə vəziyyəti isə daha ixtisaslı və xeyli çox cərrah kadrları hazırlamaq problemini kəskinliklə ortaya çıxardı. Kafedra cəmi 2 əməkdaşı ilə həm tədris prosesində fəaliyyətini genişləndirdi, həm kadr hazırlığı məsələlərinə böyük əmək sərf etdi, həm də cəbhə bölgələrindən Bakı şəhərinin hərbi hospitallarına təxliyə edilmiş hərbi yaralıların müalicəsini öz üzərinə götürdü.

1958-ci ildə akademik M.M. Mırqasımovun qəfləti ölümündən sonra hospital cərrahlığı kafedrasının müdiri vəzifəsinə kafedranın professoru Böyükbəy Mahmudbəy oğlu Mahmudbəyov seçildi. Kafedra-nın mövcudluğunun bu dövrü (1958-1977) öz xüsusiyyətləri və böyük çətinlikləri ilə xarakterizə olunur. Bu mərhələdə yuxarı kurs tələbələrinin sayı ilbəil artdığına görə onların klinik materialla təmini prosesində böyük çətinliklər yaranırdı. Tibb İnstitutuna qəbulun 1350 nəfərə qədər artması, V kursda tələbələrin sayını müvafiq surətdə 700-760-a çatmasına səbəb olmuşdu. Belə yüklənməni aradan qaldırmaq ücün kafedranın bazası əsasında II cərrahi xəstəliklər, travmatologiya, ortopediya və hərbi səhra cərrahlığı, urologiya kafedraları yaradıldı  və əməkdaşlar müvafiq kafedralara göndərildi.



*Prof. B.M.Mahmudbəyov*

1977-ci ildə əməkdar elm xadimi, professor B.M. Mahmudbəyov məsləhətçi-professor vəzifəsinə keçdikdən sonra kafedraya müdir vəzifəsinə ümumi cərrahlıq kafedrasının professor ,Sankt-Peterburq hərbi-cərrahlıq məktəbinin yetirməsi Məmmədov İsmayıl Məmməd oğlu seçildi. 1990-cı ildə professor İ.M. Məmmədov



*Prof. İ.M. Məmmədov*

kafedranın məsləhətçi-professoru vəsifəsini icra etməyə başladı və onun tövsiyəsi ilə professor Sultanov Həsən Abbas oğlu kafedranın müdiri vəzifəsinə seçildi. Professor H.A. Sultanov çap olunmuş 335 elmi əsərin, o cümlədən 11 *kitab,* monoq-rafiya və dərs vəsaiti, l rəhbərlik və 17 metodik vəsaitin, 9 patent və səmərə-ləşdirici təklifin müəllifidir. Onun 40 çap vərəqi həcmində “Cərrahi xəstəliklər " dərsliyi uzun illər Azərbaycan Tibb Universitetinin müalicə-profi-laktika fakültələrinin yuxarı kurs tələbələrinin əsas dərs vəsaiti olmuşdur. Onun ümumi redaktorluğu altında kollektiv iştirakla qarın boşluğunun təcili və təxirəsalınmaz cərrahlığına aid iri həcmli “Rəhbərlik” (1994), Tibb Universitetinin yuxan kurs tələbələri üçün rus və Azərbaycan dillərində “Proktologiya” adlı dərs vəsaiti (1997), tibb texnikumlarının tələbələri üçün “Cərrahi xəstəliklər”dərsliyi (1999) və Professor E.A. Əliyevlə birgə fundamental koloproktoloji Atlas (2005) dərc edilmişdir. Professor H.A. Sultanovun rəhbərliyi və məsləhətçiliyi altında 33 namizədlik və 6 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Professor H.A.Sul-tanovun kafedraya rəhbərlik etdiyi müddətdə kafedranın beynəlxalq əlaqələri xeyli genişlənmiş, Rusiya, Ukrayna və Türkiyə Universitetlərinin tibb fakültələri arasında geniş elmi əlaqələr qurulmuş və məhsuldar elmi əmək-daşlıq təmin edilmişdir. Professor H.A.Sultanov 2000-ci


*Prof. H.A.Sultanov*

ildə "Əməkdar elm xadimi " fəxri adına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir.



*Prof. N.Y.Bayramov*

2012-ci ildə kafedranın müdiri vəzifəsinə tibb elmlər doktoru, professor **Nuru Yusif oğlu Bayramov** seçilmişdir. Tədrisdə səriştə-yönlü proqramların, elektron vəsaitlərin hazırlanması və tətbiqi, elmi fəaliyyətin müasir prioritet istiqamətlərə yönəldilməsi, praktiki fəaliyyətdə isə transplantasiya, endokrin, metabolic-bariatrik cərrahiyyə, koloproktologiya və kardiovaskulyar cərrahiyyə kimi yan ixtisas sahələrinin təşəkkül tapması və laparo/endoskopik cərrahiyyənin inkişaf etdirilməsi bu mərhələnin səciyyəvi cəhətləridir.

İlk olaraq tədrisin hədəfləri, metodikası və proqramları köklü şəkildə dəyişdirilmiş, cərrahi xəstəliklər fənninin əvvəlki dövrlərdə priotitet olmuş bilikyönümlü və təkrarlama prinsipləri yeni, müasir dövrün tələblərinə uyğun tədris proqramları ilə əvəz edilmişdir. Yeni tədris proqramlarında cərrahi xəstəliklər fənninin tədrisi səriştəyönlü, səviyyəyönlü və sistematik prinsiplər əsasında qurulmuş, təkrarlamaların qarşısını almaq və yaxın gələcəkdə modul tipli tədrisə keçmək üçün sistematikliyə əsaslanan sillabuslar tərtib edilmişdir. Yeni tədris proqramının 2013-cü ildən kafedrada tətbiqinə və sınaqdan keçirilməsinə başlanılmış və o, 2018-ci ildə

Təhsil Nazirliyində qəbul və təsdiq edilmişdir.

Tədrisdə ən önəmli dəyişikliklərdən biri də innovativ texnologiyaların geniş tətbiqi ilə əlaqədardır. 2012-cı ildən başlayaraq kafedrada bütün dərslərin kompüterlər, monitor-proyektor tətbiqi ilə və *online* rejimdə aparılmasına başlanılmışdır. Bütün mühazirələrin və praktiki məşğələlərin elektron variantları, elektron formatda dərslik və dərs vəsaitləri, test sualları, izahlı suallar hazırlanmışdır. Tələbələrin elektron vasitələrə əlçatanlığını təmin etmək məqsədi ilə kafedranın web-site-si (www.bck.az) yaradılmış və bütün tədris materialları web səhifənin müvafiq bölümlərinə yerləşdirilmişdir.

Kafedranın əməkdaşları tərəfindən universitetimizdə və ölkəmizdə ilk dəfə olaraq tələbələr və rezidentlər üçün on line "Cərrahi xəstəliklər" dərsilyi hazırlanmış (2013) və tələbələrin istifadəsinə verilmişdir. Dərsliyin dinamikliyi və daim yenilənməsi təmin edilmişdir. Bu mərhələdə ümumilikdə 9 dərs vəsaiti, 31 mühazirə, 40-dan çox praktik məşğələ, 1200-dən çox test



sualları hazırlanmışdır.

Tədrisdə digər önəmli dəyişikliklərdən biri də praktiki bacarıq laboratoriyasının yaradılması olmuşdur.

Kafedramızın əməkdaşları Universitetin Tədris Cərrahiyyə Klinikasında simulyasiya laboratoriyasının qurulmasında və tələbələrin texniki bacarıqlara yiyələnməsi üçün şərait yaradılmasında öncül olmuşlar.

Kafedrada tədrisin digər mühüm hissəsini rezidentura təhsili təşkil edir. I cərrahi xəstəliklər kafedrası rezidentura təhsilini dünya stantartlarına uyğun təşkil etməyə çalışan ilk kafedralardan biridir. Rezidentura təhsili üçün 2010-cu ildə Türkiyə, Avropa və Amerika təhsilinə uyğun, 2018-ci ildə isə səriştə və səviyyəyönlü cərrahiyyə proqramları tərtib edilmişdir. Kafedranın əməkdaşları tərəfindən ölkəmizin tanınmış və gənc mütəxəssislərinin dəstəyi ilə rezidentlər üçün cərrahi xəstəliklər üzrə protokollar hazırlanmış və **bck.az sitesinə** yerləşdirilmişdir.

Kafedranın fəaliyyətinin ikinci mühüm hissəsi kimi elmi fəaliyyət istiqamətində önəmli dəyişikliklər baş vermişdir. Hazırda kafedrada 6 professor, 9 dosent, 7 assistent və 5 baş laborant elmi fəaliyyətlə məşğul olur. Başlanğıcda kafedranın elmi fəaliyyət planı dünyanın və ölkəmizin qəbul etdiyi prioritet elmi-tədqiqat istiqamətlərinə və sahələrinə yönəlmişdir. Onlara kök hüceyrələri, orqan, toxuma və hüceyrə transplantasiyası, genom, molekulyar biologiya, yüksək texnologiyalara, o cümlədən süni intellektə həsr olunmuş tədqiqatlar və multisentrik tədqiqatlar aiddir. Tansplantasiya, qaraciyər cərrahlığı, koloproktoloji, kardiovaskulyar, piylənmə və tireoid patologiyaları prioritet sahələr kimi ön plana çıxarılmışdır.

Bu müddət ərzində kafedranın əməkdaşlarının 3 yerli və 1 beynəlxalq qrant lahiyəsi qəbul edilmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu tərəfindən qəbul edilən qrant lahiyəsi üzrə (2016) parenximatoz orqanların elastoqrafıyası cihazı alınmış və hazırda bu sahə üzrə geniş tədqiqat işləri apanlmaqdadır. İslam İnkişaf Bankı tərəfindən qəbul edilən (2018) və qaraciyər transplantasiyasında mikro-RNT-lərin rolu mövzusuna həsr edilən qrant layihəsi üzrə Erasmus proqramı üzrə Rotterdam Universitetində



(Niderland krallığı) tədqiqatlar müvəffəqiyyətlə tamamlanmışdır.

Kafedra əməkdaşları laparoskopik üsulla qaraciyərdən exinokokkoz sistinin xaric edilməsi, qaraciyər rezeksiyası, mədə rezeksiyası, laparoskopik xolesistektomiya və b. mövzular üzrə yerli və beynəlxalq multisentrik tədqiqatlarda fəal iştirak edirlər.

Kafedrada yerli - respublika və beynəlxalq səviyyəli elmi-praktik toplantıların (konqres, konfrans, simpozium və s.) keçirilməsi ənənəvi hal almışdır. Kafedra əməkdaşlarının rəhbərliyi və təşkilatçılığı ilə

2015-ci ildən başlayaraq hər il ən azı 5 beynəlxalq səviyyəli konfrans (Bakı-Malatya Transplantasiya günləri, Azərbaycan-Türkiyə Koloproktologiya konfransı, Azərbaycan-Türkiyə Bariatrik-Metabolik cərrahlıq konfransı, Azərbaycan-Türkiyə Hepatoloji Kursu, Azərbaycan-Türkiyə Endokrinoloji konfransı) təşkil edilir. 2019-cu ildə keçirilən və sayca 5-ci olan bu konfranslar silsiləsi kafedranın 100-illik yubileyinə həsr edilmişdir. Ənənəvi konfranslarla yanaşı hər il 4-7 mövzuda real və on line rejimdə elmi konfranslar, seminarlar və vebinarlar təşkil edilir, 4-11 əməkdaş xarici ölkələrdə (Türkiyə, Rusiya, Belçika, Niderland krallığı, Almaniya və b.) təşkil edilmiş beynəlxalq konfranslarda iştirak və çıxışlar edir və ya çıxış üçün dəvət alırlar.

Bu mərhələdə kafedranın əməkdaşları tərəfindən ümumi cərrahlığın aktual sahələri üzrə 300-dən çox elmi məqalə dərc edilmişdir. Onların yarıdan çoxu yüksək reytinqli jurnallarda nəşr olunmuşdur. Bu dövrdə kafedra əməkdaşlarının 2 patenti (yeni bariatrik əməliyyat və tiroidektomiya əməliyyatının yeni modifikasiyası) qeydə alınmışdır.

Kafedranın fəaliyyətinin üçüncü önəmli istiqaməti praktiki cərrahlıqdır. Azərbaycan Respublikamın Prezidenti cənab İlham Əlyev tərəfindən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının açılması kafedranın praktiki fəaliyyətində dönüş yaratmağa imkan verdi. Bu dövrdə universitetin rektorları Akademik Ə.T. Əmiraslanov və professor G.Ç. Gəraybəylinin dəstəyi ilə kafedrada orqan transplan-tasiyası, kardiovaskulyar, koloproktoloji, endokrin, meta-bolik-

bariatrik və endoskopik cərrahlıq bölümlərinin fəaliyyəti xeyli genişləndirildi.

Tədris Cərrahiyyə Klinikasının transplantasiya bölümündə 2015-ci ildə Universitetimizdə ilk böyrək köçürülməsi əməliyyatı həyata keçirildi və hazırda bu əməliyyatlar uğurla davam etdirilir. Ölkəmizdə ilk kök hüceyrə transplantasiyası əməliyyatı da kafedranın əməkdaşları tərəfindən həmin ildə TCK-da yerinə yetirilmişdir. Klinikanın orqan transplantasiyası bölümü xaricdə transplantasiya əməliyyatı keçirmiş xəstələr üçün referans hospitalı kimi də fəaliyyət göstərir. Kardiovaskulyar cərrahiyyə bölümünün əməkdaşları Mərkəzi Klinik Xəstəxanada və TCK-da hər il yüzlərlə kardiovaskulyar əməliyyatlar yerinə yetirir, tələbələrin və rezidentlərin tədrisi ilə məşğul olurlar. Professor Həsən Sultanovun əsasını qoyduğu koloproktologiya bölümü hazırkı mərhələdə də aktiv fəaliyyətini davam etdirir. Bu bölümün üzvləri hər il 200-dən çox açıq və laparoskopik kolon rezeksiyaları, çanaq dibinin və üzvlərinin sallanmalarının aradan qaldırılması, anal rekonstruksiya və digər cərrahi əməliyyatları uğurla yerinə yetirirlər. Kafedrada aktiv fəaliyyət göstərən bölümlərdən biri də metabolik-bariatrik cərrahiyyə bölümüdür. Ölkəmizdə ilk bariatrik əməliyyat (Roux üsulu ilə yan yol) 2009-cu ildə kafedramızın əməkdaşları (Prof. Nuru Bayramov) tərəfindən həyata keçirilmişdir. Hazırda kafedranın əməkdaşları piylənmə ilə xəstələrdə bariatrik və metabolık əməliyyatları müvəffəqiyyətlə davam etdirir-lər.

Kafedranın endoskopik bölümündə təcrübəli əməkdaşlar tərəfindən diaqnostik endoskopiya ilə yanaşı ERXPQ, biliar, ezofageal və kolon stentlənməsi,

polipektomiyalar, band lıqasiyaları və skleroterapıya kimi endoskopik əməliyyatlar icra edilir.

Ölkəmizdə ikinci, ATU-da isə ilk olaraq təşəkkül tapan laparoskopik cərrahlıq bölümü (1999) son 20 ildə sürətlə inkişaf edərək həm Azərbaycanda, həm də xaricdə tanınmış laparoskopik mərkəzlərdən birinə çevrilmişdir. TCK-da ilk laparoskopik əməliyyatlar məhz bu bölümdə başlamış və qarın boşluğu əməliyyatlarının əksəriyyəti laparoskopik üsulla gerçəkləşdirilməkdədir.

Son onillikdə kafedrada 331 elmi məqalə (onlardan 178-i yerli, 153-ü xarici mətbuatda), 414 tezis, həmçinin, 29 dərslik və dərs vəsaitləri çap olunmuşdur. 2010-2024-cü illərdə kafedrada 4 elmlər doktoru, 8 fəlsəfə doktorluğu dissertasiyası müdafiə olunmuşdur. Bu dövrdə kafedranın əməkdaşları tərəfindən 7 yerli səviyyəli, 25 beynəlxalq səviyyəli elmi-praktik konfrans, konqres və simpoziumlar, elmi toplantılar keçirilmişdir.

# I DAXİLİ XƏSTƏLİKLƏR KAFEDRASI



I Daxili xəstəliklər kafedrası tarixi baxımdan 1920-ci ildə Bakı Universitetində təşkil edilən hospital terapiyası kafedrasının varisidir. Bu kafedraya 1920-21-ci tədris ilində əvəzçilik üzrə prof. A.M.Levin rəhbərlik etmişdir. 1922-1926-cı illərdə kafedranın müdiri prof. P.Q.Mezernitski olmuşdur.



Prof. *P.T.Mezernitski*

Polien Qriqoryeviç Mezernitski (1878-1943) 1901-ci ildə Peterburq Universitetinin təbiətşünaslıq fakültəsini, 1906-cı ildə Hərbi Tibb Akademiyasını bitirmiş, 1909-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1920-1922-ci illərdə Tiflis Универ Universitetinin tibb fakültəsinin fakültativ terapiya kafedrasının müdiri olmuşdur. Əsas elmi işlərini fizioterapiya və kurort müalicəsi problemlərinə həsr etmişdir. Azərbay-

canda vərəm xəstəliyi əleyhinə mübarizənin təşkilatçılarından biri olmuş, Bakı universitetində fizioterapiya üzrə ilk dəfə mühazirələr oxumuşdur. 1924-cü ildə Azərbaycanda terapevtlərin elmi cəmiyyətini təşkil etmişdir. P.T.Mezernitski 1926-cı ildə Yalta şəhərinə köçmüş, orada ftiziatriya institutunun bioiqlim şöbəsinin rəhbəri olmuşdur.

1926-cı ildən 1951-ci ilə qədər kafedraya prof. N.P.Afonski rəhbərlik etmişdir. Nikolay Pavloviç Afonski (1875-1951) - 1899-cu ildə Peterburq Hərbi-Tibb Akademiyasını bitirmiş, 1907-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Mxtəlif illərdə Hərbi-Tibb Akademiyasında, Krım və Perm Universitetlərində professor vəzifəsində çalışmışdırdir. Bakıda hospital terapiyası kafedrasına rəhbərlik etdiyi illərdə əsasən qan dövranı orqanlarının patologiyasına dair elmi-tədqiqat aparmışdır. Onun Azərbaycanda kurort işinin inkişafında, xüsusən İstisu kurortunun yaranmasında və İstisu mineral suyunun müalicəvi təsirinin araşdırılmasında xidməti böyükdür. 1934-cü ildə çap edilmiş "Daxili xəstəliklər" dərsliyinin müəlliflərindən biridir. O, III çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. N.P.Afonski 1941-cl ildə əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.


*Prof. N.P.Afonski*

1943-cü ildə kafedranın əsasında 2 sərbəst hospital terapiyası (birinci və ikinci) kafedrası yaradılmış, bunlardan birinin müdiri vəzifəsinə N.P.Afonski, digərinə isə prof. C.M.Abdullayev təyin edilmişdir. Yuxarıda göstərildiyi kimi, N.P.Afonski 1951-ci ilə qədər kafedra müdiri vəzifəsində işləmişdir. Onun vəfatından sonra kafedraya 2 il müddətində (1951-1953-cü illər) dos. M.H.Həsənov rəhbərlik etmişdir. 1954-cü ildə kafedranın müdiri vəzifəsinə ə.e.x., prof. S.A.Məmmədzadə seçilmiş və bu vəzifədə 1965-ci ilə qədər işləmişdir. O, bir neçə il ərzində pediatriya fakültəsinin dekanı olmuşdur. S.M.Məmmədzadənin rəhbərliyi dövründə müalicə-profilaktika fakültəsinin V kursunun tələbələrinin tədris yükü II hospital terapiyası fakültəsinə verilmiş, I hospital terapiyası kafedrasında – pediatriya və sanitariya-gigiyena fakültələrinin dərsi saxlanmışdır, VI kursun dərsləri isə bu kafedralar arasında bərabər bölünmüşdür. Prof. S.M.Məmmədzadənin rəhbərliyi altında kafedrada Bakı şəhərində iqlim şəraitinin dəyişmələrinin ürək-damar sistemi xəstəlik-lərinin kəskinləşməsində roluna dair elmi-tədqiqat işləri aparılmışdır.



*Prof. S.M.Salihov*

1966-cı ildən 1976-cı ilə qədər II hospital terapiyası kafedrasına prof. S.M.Salihov rəhbərlik etmişdir. Saleh Mustafa oğlu Salihov (1909-1976) əvvəlcə ali pedaqoji təhsil almış, 1933-cü ildən Bakı şəhərinin orta və orta ixtisas təhsili məktəblərində riyaziyyat müəllimi,

Azərbaycan SSR Xalq Maarifi Komissarlığında müfəttiş və digər vəzifələrdə işləmişdir. 1941-ci ildə S.M.Salihov tibb institutunu bitirərək bir müddət sahə həkimi, tibb texnikumunun müəllimi və direktoru vəzifələrində işlədikdən sonra, 1945-ci ildə II hospital terapiyası kafedrasının assistenti vəzifəsinə qəbul edilmiş, 1950-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 1956-cı ildə kafedranın dosenti vəzifəsinə seçilmişdir. 1966-cı ildə doktorluq dissertasiyası müdafiə edən M.S.Salihov həmin ildə professor vəzifəsinə seçilmiş və kafedraya rəhbərlik etməyə başlamışdır. M.S.Salihov 100-dən artıq elmi işin, o cümlədən 3 monoqrafiyanın, bir neçə elmi-kütləvi kitabın və səmərələşdirici təklifin müəllifidir. Onun rəhbərliyi altında 12 namizədlik və doktorluq dissertasiyası müdafiə edilmişdir. Tibb təhsili üçün çox vacib olan "Daxili xəstəliklərin propedevtikası" (A.L.Myasnikov) dərsliyi M.S.Salihov tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.

M.S.Salihov 1952-ci ildə dünya tibb praktikasında ilk dəfə olaraq ağciyər absesinin müalicəsi məqsədilə penisillinin venadaxili inyeksiyasından istifadə etmişdir. Bu manipulyasiyanın o vaxtlar qorxulu hesab edildiyini nəzərə alan S.M.Salihov preparatın venadaxili inyeksiyasını ilk dəfə öz orqanizmində sınaqdan çıxarmışdır. O, uzun illər ərzində "Naftalan" kurortunun direktoru, 1 №-li BŞKX-nin baş həkimi, ATİ-nin müalicə-profilaktika fakültəsinin dekanı vəzifələrində işləmiş, Azərbaycan Sovet Ensiklopediyasının redaktorlarından biri, Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş terapevti olmuşdur.

M.S.Salihov 1959-cu ildə "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilmiş, 1966-cı ildə respublikanın əməkdar həkimi fəxri adına layiq görülmüş, 1969-cu ildə "Şərəfli əməyə görə" medalı ilə təltif edilmişdir.

Prof. S.M.Salihovun vəfatından sonra kafedraya 1976-1977-ci illərdə prof. H.Abdullabəyov, 1977-1989-cu illərdə prof. Z.A.Zeynalova rəhbərlik etmişdir.



*Prof. Z.A.Zeynalova*

Zərifə Ağarza qızı Zeynalova (1933-1989) – 1950-ci ildə Bakı şəhər 132 saylı orta məktəbi qızıl medalla, 1956-cı ildə Azərbaycan Dövlət Tibb İnsnstitutunun müalicə-profilaktika fakül-təsini Stalin təqaüdü ilə bitirmişdir. Tələbəlik illərində o, institut komsomol komitəsi büro üzvü , Respublka Komsomolu Mərkəzi komitəsinin plenum üzvü, SSRİ Elmlər İttifaqının üzvü secilmiş və İnstitutun tələbə elmi çəmiyyətinə rəhbərlik etmişdir. Zərifə Zeynalova akademik C.M Abdullayevin rəhbərliyi altında 1966-cı ildə namizədlik, 1977 ci ildə doktorluq lissertasiyası müdafiyə etmişdir. 1977-ci ildə zərifə xanım Hospital Terapiya kafedrasının müdiri seçilmiş və ömrünün axırına qədər(1988-ci il) bu kafedraya rəhbərlik etmişdirş. Bu dövrdə kafedrada bəzi ürək-damar sistemi xəstəlikləri zamanı su-duz mübadiləsinin, qanın laxtalanma sisteminin və mikroelementlər mübadiləsinin dəyişmələri tədqiq edilmişdir.

1981- ci ildə Zərifə Zeynalova Azərbaycan SSR-nin əməkdar həkimi fəxri adına layiq görülmüşdü.

1984-cü ildə N.Nərimanov adına ATİ-də aparılan struktur dəyişiklikləri ilə əlaqədar, I hospital terapiyası kafedrasına II daxili xəstəliklər kafedrası adı verildi və o, II müalicə-profilaktika fakültəsinin tərkibinə keçirildi. Nəticədə I müalicə-profilaktika fakültəsində prof. H.M.İsazadənin və prof. S.M.Kərimovun rəhbərliyi ilə fəaliyyət göstərən iki müalicə-profilaktika kafedrası (birinci və ikinci), II müalicə-profilaktika fakültəsində də T.Ə.Əliyev və prof. Z.A.Zeynalovanın rəhbərlik etdiyi 2 eyniadlı kafedra oldu. 1988-ci ildə II müalicə-profilaktika fakültəsinin II daxili xəstəliklər kafedrası ləğv edildi və onun əməkdaşları 1 müalicə-profilaktika fakültəsinin I və II daxili xəstəliklər kafedralarına keçirildi.

Yuxarıda qeyd edildiyi kimi, II hospital terapiyası (II daxili xəstəliklər) kafedrasının müdiri vəzifəsi 1943-cü ildən prof  C.M. Abdullayevə həvalə edilmişdi

Cahangir Məmməd oğlu Abdullayev (1901-1973) - 1932-ci il-də hospital terapiyası kafedrasının assistenti vəzifəsinə qəbul edilmiş, uzun müddət Leninqrad şəhərində elmi ezamiyyətdə olmuş, məşhur tibb alimi Q.F.Lanqın rəhbərliyi altında doktorluq dissertasiyası üzərində işləmişdir. O, terapevtlərin (1960-cı ildən) və kardioloqların (1963-cü ildən) Beynəlxalq Assosia-siyasının üzvü, Respublika Kardioloqlar cəmiyyətinin sədri (1966-cı ildə) olmuş, 1940-cı ildə Azərb. SSR яməkdar elm xadimi adına layiq görülmüş, 1959-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 1968-ci ildə isə həqiqi

üzvü seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

C.M.Abdullayevin tədqiqatları əsasən ürək-damar sistemi patologiyasının etiologiyasına, patogenezinə, klinikasına, profilaktikasına və müalicəsinə həsr edilmişdir. Onun rəhbərliyi altında respublikamızda ilk dəfə praktik həkimin iş praktikasında elektrokardio-qraf tətbiq edilmişdir. O, respublikada birincilər sıra-sında neft sənayesi işçilərində peşə xəstəlikləri probleminə diqqət yetirmiş, neft karbohid-rogenlərinin ürək-damar sis-teminə və qanın laxtalan-masına təsirini öyrənmişdir.


*Prof. C.M. Abdullayev*

Gözəl alim və istedadlı pedaqoq olan C.M.Abdullayev öz davamçılarının böyük bir məktəbini yaratmışdır. Onun bilavasitə rəhbərliyi altında 13 elmlər doktoru, 47 elmlər namizədi hazırlanmışdır. Onlar arasında sonralar məhsuldar elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, öz elmi məktəblərini yaratmış tibb alimləri vardır. Professorlar H.M.İsazadə, S.M.Kərimov, Z.A.Tağızadə, S.Ə.Tağıyeva, M.İrani, Z.A.Zeynalova, M.İ.Livanov, P.D.Kats, L.Hüseynova, A.M.Axundzadə və b. bunlara misal ola bilər. C.M.Abdullayev ürək-damar sistemi xəstəliklərinin diaqnostika və müalicəsinə həsr edilmiş 10 monoqrafiya və dərsliyin, 150-dən artıq elmi məqalənin müəllifidir. Əsas əsərlərindən aşağıdakıların göstərmək olar: "Ürək-damar xəstəliklərinin diaqnostikası və

müalicəsi" - B., 1963; "Ateroskleroz və hipertoniya xəstəliyi", - B;-1964; "Daxili xəstəliklər", - B., 1970.

1974-cü ildən 1989-cu ilə qədər II daxili xəstəliklər kafedrasına akad. C.M.Abdullayevin şagirdi və davamçısı, t.e.d., prof. S. M. Kərimov rəhbərlik etmişdir. Onun rəhbərliyi dövründə kafedrada C.M.Abdullayevin ənənələri davam etdirilmiş, ÜİX-in etiologiyası, patogenezi, klinikası, müasir müalicə və profilaktika üsulları araşdırılmış bu proses zamanı hemokoaqulyasiyanın, elektrolitlərin, lipid və karbohidrat mübadiləsinin vəziyyəti öyrənilmişdir.



*Prof S. M. Kərimov*

Sədrəddin Məmməd oğlu Kərimov (1924-2000) - 140-a qədər çap edilmiş elmi işin, o cümlədən 7 monoqrafiyanın və 1 ixtiranın müəllifidir. Onun rəhbərliyi ilə 3 doktorluq və 6 namizədlik dissertasiyası müdafiə edilmişdir. Kafedrada tədris işlərilə birlikdə tələbələrin elmi-tədqiqat işlərinə də böyük diqqət yetirilmişdir.

1989-1999-cu illərdə kafedraya prof. E.E.Qorin rəhbərlik etmişdir.

Qorin Eldar Emiloviç (1947). Onun rəhbərliyi dövründə kafedrada "İnsan ekologiyası, endo- və ekzotoksikozlar. Orqanizmin dezintoksikasiyası" problemi üzrə tədqiqat işləri aparılmışdır. Bu tədqiqatlar planlaşdırılarkən Bakı şəhərinin neft sənayesi müəssisələri ilə zəngin olduğu və əsrin müqaviləsi ilə

əlaqədar neft sənayesinin inkişaf perspektivlərinin yüksək olduğu nəzərə alınaraq, neft karbohidrogenlərinin insan orqanizminə (ürək-damar və tənəffüs sistemlərinə, qaraciyər və b. orqanlara) təsiri, həmçinin bu təsirin aradan qaldırılma yolları klinik-instrumental və laborator-biokimyəvi üsullarla ətraflı tədqiq edilmişdir. Bu dövrdə prof. E.E.Qorinin rəhbərliyi altında 2 doktorluq, 18 namizədlik dissertasiyası işlənmiş və müdafiə edilmiş, kafedra əməkdaşlarının 150-dən artıq elmi işi, 4 dərs vəsaiti, 2 monoqrafiyası, 4 metodik tövsiyəsi çap edilmiş, həmçinin daxili xəstəliklər üzrə bir əsaslı dərslik rus dilindən tərcümə edilib, azərbaycanlı tələbələrin istifadəsinə verilmişdir.


*Prof E.E.Qorin*

1999-cu ilin dekabr ayından isə kafedranın müdiri vəzifəsinə prof. V. Ə. Əzizov seçilmişdir.


*Prof V. Ə. Əzizov*

Vəsadət Əli oğlu Əzizov (22.12.1955) – Azərbaycan Tibb Universitetini bitirdikdən sonra əmək fəaliyyətinə Naxçıvan Respublika xəstəxanasında həkim-terapevt kimi başlamışdır. 1983-cü ildə ATU-nun "Daxili xəstəliklər" ixtisası üzrə aspiranturasına daxil olmuş V.Ə.Əzizov Ümumittifaq Kardioloji Elmi Mərkəzdə (Moskva şəhəri) 1985-ci ildə namizədlik və 1993-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1994-1998-ci illərdə akademik

C.Abdullayev adına Elmi-tədqiqat kardiologiya institutunun direktoru vəzifəsində çalışmışdır. V.Əzizov 1999-cu ildə Azərbaycan Tibb Universitetinin II Daxili xəstəliklər kafedrasının müdiri vəzifəsinə seçilmiş və hal-hazırda həmin kafedraya rəhbərlik edir.

Onun rəhbərliyi dövründə kafedranın elmi fəaliyyət istiqaməti kökündən dəyişilmiş, müasir təbabətin ən vacib problemlərindən sayılan ürək-damar xəstəliklərinin müxtəlif aspektlərinin öyrənilməsi sahəsində elmi-tədqiqat işləri planlaşdırılmış və müvəffəqiyyətlə həyata keçirilməkdədir. Prof. V.Əzizovun rəhbərliyi altında 9 elmlər doktorluğu və 26 fəlsəfə doktorluğu dissertasiyası müdafiə edilmiş, 3 elmlər doktorluğu və 2 fəlsəfə doktorluğu dissertasiya işi davam etdirilir.



V.Əzizov 700-ə qədər çap olunmuş elmi işlərin, o cümlədən 50-yə yaxın dərslik, dərs vəsaiti, monoqrafiya, 10 metodik tövsiyə, 38 metodik işləmələrin, 3 müəlliflik şəhadətnaməsinin, 2 ixtiranın müəllifidir.

V.Əzizov bir neçə beynəlxalq elmi cəmiyyətlərin, o cümlədən “Avropa Kardiologiya cəmiyyətinin” üzvü, “Avrasiya Kardiologiya Cəmiyyətinin” və “Azərbaycan Kardiologiya Cəmiyyətinin” idarə heyətinin üzvüdür. O, "Кардиология" (Moskva), “Кардиологический вестник” (Moskva), "Визуализация в клинике" (Moskva) jurnallarının redaksiya şurasının, “Евразийский кардиологитческий журнал” (Moskva), “Sağlamlıq” (Bakı), “Azərbaycan Kardiologiya Jurnalı” (Bakı) və “Azərbaycan ürək və damar cərrahiyyəsi jurnalı”nın (Bakı) redaksiya heyətinin üzvüdür.




V.Ə.Əzizov Universitetin ictimai həyatında da fəal iştirak edir. O, uzun illər ATU-nun terapiya üzrə Problem komissiyasının sədri olmuşdur. O, Universitetin və I müalicə-profilaktika fakültəsinin Elmi Şurasının üzvü, ATU-nun nəzdində FD 03.012 Dissertasiya Şurasının sədridir. V.Əzizov II çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2010-cu ildə V.Əzizov Azərbaycan Resplikasının Prezidentinin sərəncamı ilə “Əməkdar həkim” fəxri adına layiq görülmüşdür.

Hazırda kafedranın professor-müəllim heyəti 32 nəfərdən (3 professor, 17 dosent, 12 assistent) ibarətdir. Onlar bundan sonra da tibb elmini inkişaf etdirmək və tibb kadrları yetişdirmək uğrunda fədakarлıq göstərmək əzmindədirlər.

# I MAMALIQ VƏ GİNEKOLOGİYA KAFEDRASI



I Mamalıq və ginekologiya kafedrası 1920-ci ildə Azərbaycan Respublikanın yeqanə ali təhsil ocağı olan Bakı Universitetinin (indiki BDU-nun) Tibb fakültəsi nəzdində təşkil edilib. Kafedranın ilk rəhbəri professor F.N. İlyin olub. Kafedranın təşkilində professor İlyinlə yanaşı professor M.M.Hacı-Qasımovda fəal iştirak edib. Sonralar Leybzon, Rodionov, Atlas və başqalarıda kafedraya dəvət olunub. Kafedrada tədris işi ilə bərabər elmi və müalicə işləri də aparılırdı.



*Prof F.N.İlyin*

1932-ci ildə tələbələrin sayının artması, həmçinin, ixtisaslaşmış elmi və praktik kadrların hazırlanması məqsədilə prof. İlyinin vəsatəti və Azərbaycan SSR-nin Xalq Səhiyyə Komissarlığının xüsusi göstərişilə Əzizbəyov adına doğum evinin bazası nəz-

dində 350 çarpayılıq I Mamalıq və ginekologiya kafedrasının filialı təşkil edilib, onunda rəhbəri prof. M.M.Hacı-Qasımov olub. O zaman kafedranın ştatı yeni milli kadrlardan: A.K.Şahtaxtinskaya, T.F.Ağabəyov, A.P.Atayev, K.X. Bağırbəyov, S.H.Nəzərli, M.Z.Mahmudbəyova, R.H.Hüseynov kimi bacarıqlı kadrlarla zənginlənib.

Professor R.N.Hüseynov, professor M.M.Hacı-Qasımovun ilk tələbəsi olub. O, 1926-ci ildə Bakı Universitetinin Tibb fakültəsini bitirib. Professor R.N.Hüseynov 1968-ci il fevralın 23-də qəflətən vəfat edib. 1968-ci ildən 1976-ci ilin mart ayına qədər I Mamalıq və ginekologiya kafedrasına professor M.M.Hacı-Qasımovun digər tələbəsi dosent A.N.Sultanova rəhbərlik edib.

1976-ci ildə kafedranın müdiri vəzifəsinə professor F.N.İlyinin tələbəsi olan profesor T.D.Mehdiyeva seçilib. Onun tərəfindən qadın və kişi sonsuzluğunun diaqnostika və müalicəsinə dair bir sıra elmi tədqiqatlar aparılıb, rəhbərliyi altında tibb elmləri namizədliyi üzrə 6 dissertasiya işi yerinə yetirilib.

I Mamalıq və ginekologiya kafedrasında dosent H.Kambay respublikada qadınlara yüksək səviyyədə mama-ginekoloji yardım göstərib. Ginekologiyada əvəzolunması cərrahi əməliyyatları fəsadsız yerinə yetirib. Dosent Kambay H.Q. 80-dən artıq dərc olunmuş elmi işin, o cümlədən metodik tövsiyələrin, dərsliklərin müəllifi olub.

1991-ci ildən 1 saylı Klinik Doğum Evinin təmiri ilə əlaqədar olraq I mamalıq və ginekologiya kafedrası

Səhiyyə Nazirliyi nəz-dində olan Respublika Doğum Evinə köçürülüb. 1991-1993-cü il-lər ərzində kafedraya dosent Z.M. Topçubaşova rəhbərlik edib.

1993-2008-ci illər ərzində I mamamlıq və ginekologiya kafedrasına dosent L.R.Kərimova-nın rəhbərliyi altında fəaliyət göstərib. Eyni zamanda L.R.Kə-rimova Respublikanın baş mama-ginekoloqu olub, doğuşayardım komissiyanın rəhbəri kimi çalışıb. Kafedra bu müddət ərzində 8 dissertasiya işi tamamlayıb.


*Dos. L.R.Kərimova*

2008-ci ildən 2011-ci ilə qədər kafedraya yenidən respub-likanın əməkdar müəllimi, Bakı şəhəri üzrə baş mütəxəssis, Prezident təqaüdçüsü, dosent Z.M. Topçubaşova rəhbərlik edib. Kafedrada eyni zamanda dosentlərdən N.M.Po-ladova və H.Məcidova yülsək fəallıq göstərib.


*Prof. Z.M.Topçubaşova*

2011-ci ildə ATU-da aparılan islahatlara görə I və III Mamalıq və ginekologiya kafedraları birləşdirilib vahid kafedra I Mamalıq və ginekologiya kafedrası kimi fəaliyyətə başlayıb. 2011-ci

ildən bu günə qədər kafedraya tibb elmləri doktoru, əməkdar hə-kim, professor E.M. Əliyeva rəhbərlik edir.



Bu müddət ərzində prof. E.M. Əliyevanın rəhbərliyi altında 40 nəfər tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 2013-2023-cü illər ərzində kafedrada ümumiyyətlə 30 iddiaçı tibb üzrə fəlsəfə doktoru və 17 iddiaçı tibb elmlər doktoru dissertasiyası müdafiə edib. Hal-hazırda kafedrada 20 iddiaçı namizədlik dissertasiyası və 15 iddiaçı doktorluq dissertasiyası üzərində çalışır. Kafedra ATU-nun Tədris Cərrahiyyə Klinikasında fəaliyyət göstərir.



*Dos. E.M. Əliyeva*

I Mamalıq və ginekologiya kafedrasında tibbin inkişafı istiqamətində bir sıra elmi-təcrübi araşdırılmalar aparılır. Əsasən reproduktiv sağlamlığa təsir edən mamalıq, ekstragenital və ginekoloji xəstəliklərin müasir diaqnos-tikası və korreksiyası üsullarının tətbiqi kimi prioritet mövzu istiqa-mətində tədqiqat işləri aparılır. Professor E.M.Əliyeva tərəfindən 435 elmi işin, o cümlədən 1 dərslik, 11 dərs vəsaitlərin müəllifidir.

Son 10 ildə kafedra əməkdaşları tərəfindən cəmi çap olunmuş elmi işlərin sayı 248-dir, bunlardan respublika üzrə - 168, xaricdə - 80 elmi iş dərc olunub. Tezislərin cəmi sayı - 85-dir, bunlardan respublika üzrə - 60, xaricdə - 25 tezis, məqalələrin 153 respublikada, 133 xarici mətbuatda dərc olunub. Kafedrada 4 dərslik, 4 dərs vəsaiti işlənərək dərc edilib.




I Mamalıq və ginekologiya kafedrasında davamlı olaraq TEC fəaliyyət göstərir. Hər il 2-3 tələbə mamalıq və ginekologiya problemlərinə aid mövzularla TEC konfranslarda uğurla iştirak edib.

Hal-hazırda I Mamalıq və ginekologiya kafedrasında 51 əməkdaş çalışır. Onlardan 37 nəfərini professor-müəllim heyəti, o cümlədən 4 nəfər t.e.d., 4 professor, 12 nəfər dosent, 26 t.ü.f.d. assistent, 1 assistent elmi dərəcəsiz, 10 baş laborant çalışır.

# III CƏRRAHİ XƏSTƏLİKLƏR KAFEDRASI



III cərrahi xəstəliklər kafedrası (keçmiş I fakültə cərrahiyyəsi kafedrası) ilk olaraq Azərbaycan Dövlət Universitetinin tibb fakultəsinin nəzdində 1919-cu ildə təşkil edilmiş və kafedraya professor A.A.Oşman rəhbər seçilmişdir. O, 1930-cu ilə qədər kafedraya başçılıq etmişdir.

1930-1981-ci illərdə kafedraya akademik M.A.Topçubaşov rəhbərlik etmişdir.



*Akad. M.A.Topçubaşov*

Eksperimental tədqiqatlar və çoxsaylı klinik müşahidələrin nəticəsi olaraq yeni metodika – inyeksion efir-yağ anesteziyası təklif edilmiş və sonradan M.A.Topçubaşovun kombinə edilmiş analgeziyası adı ilə anestezioloji praktikada geniş tətbiq edilməyə başlamışdır. Sonrakı illərdə həmin üsul travmatik şok və tetanus qıcol-

maları zamanı, qoğuşun ağrısızlaşdırılması məqsədilə də istifadə edilmişdir. Kafedranın elmi-tədqiqat işlərinin arasında öddaşı xəstəliyinin probleminin öyrənilməsi geniş yer almışdır.

Ikinci Dünya Müharibəsi dövründə klinika yaralıların və ordu sıralarında olan xəstələrin müalicəsində aktiv iştirak etmişdir. M. A. Topçubaşov Azərbaycan SSR-i Səhiyyə Nazirliyinin Evakohospital İdarəsinin baş cərrahı və neyrocərrahiyyə hospitalının məsləhətçisi təyin olunmuşdur. Kafedranın bir çox əməkdaşı istərsə cəbhədə, istərsə də hospitallarda aktiv çalışmışlar.

Müharibə illərində klinka cəbhədə alınmış travmalarla bağlı araşdırmaları və ətrafların periferik sinirlərinin güllə yaralanmalarından sonrakı zədələnməsini əhatə edən problemlər üzərində işləmişdir. Sinirlərin regenerasiyasını yaxşılaşdırmaq məqsədilə əməliyyatdan sonra mum-parafin tubajının aparılması təklif edilmişdir. Kəllə sümüklərinin defektlərini örtmək üçün kranioplastika üsulu – M.A.Topçubaşov tərəfindən sümük loskutları təklif edilmiş və klinik təcrübədə tətbiq edilmişdir. Klinikada metal yad cismlərin yerləşməsini dəqiq təyin etməyə və onu xaric etməyə imkan verən xüsusi qurğu hazırlanmışdır.

1946-cı ilin sonunda kafedranın nəzdində eksperimental şöbə yaradılmış və heyvanlarda qaraciyər, portal sistem, dalaq, mədəaltı vəzi, ətrafların magistral damarlar üzərində minlərlə eksperimental əməliyyat icra olunmuşdur.

Klinka kollektivinin məşğul olduğu vacib problemlərdən biri də portal hipertenziya olmuşdur. 1935-ci ildə M.A.Topçubaşov tərəfindən malariya spleno-

meqaliyasının müalicəsinə dair doktorluq dissertasiyası müdafiə olunmuşdur. Həmçinin, profuz qastroduodenal qanaxmalarla nəticələnən portal hipertenziya zamanı kompleks operativ üsullar təklif edilmişdir. 1951-1965-ci illərdə aparılmış tədqiqatların nəticələri “Portal hipertenziyanın cərrahi müalicəsi” monoqrafiyasında (1961) öz əksini tapmışdır.

Kafedranın elmi-tədqiqat işində xərçəng xəstəliklərinin, xüsusilə də mədəaltı vəzinin və Fater məməciyinn xərçənginin öyrənilməsinə xüsusi yer verilmiş və pankreatoduodenal rezeksiyanın yeni modifikasiyası təklif edlimişdir. 1963-cü ildə t.e.d., professor M.A.Topçubaşovun “Mədəaltı vəzinin və Fater məməciyinin xərçənginin müalivəsi” monoqrafiyası işıq üzü görmüşdür.

1950-ci ildə kafedrada abdominodiafraqmal kəsik işlənib hazırlanmlş və geniş istifadə edilmişdir. Sonralar lümbo-diafraqmal kəsik də təklif edilmişdir.

Klinikada uzun borulu sümüklərin sınıqlarında sümükdaxili fiksasiya geniş istifadı olunmağa başlamış və Sovetlər birliyində ilk dəfə olaraq Azərbaycanda, bu klinikada ştiftləmə üsulu təcili cərrahiyyədə tətbiq edilməyə başlamışdır.

Kafedra müdiri M.A.Topçubaşov tərəfindən qırx illik müşahidələrin nəticələrinə əsasən beş cildlik “Xüsusi Cərrahiyyə” kitabı yazılmış və çap etdirilmişdir. Əməkdaşlar tərəfindən “Kliniki terminlər lüğəti”, “Qaraciyər və öd yollarının cərrahi xəstəlikləri”, “Xroniki appendisit”, “Diafraqma altında yerləşən orqanlara operativ yollar”, “Obliterasiyaedici endoarteriit zamanı

yüksək bel simpatektomiyası" və digər monoqrafiyalar çap etdirilmişdir (Ə.P.Əliyev, Ə.Ə.Abbasov, Ə.Ə.Əhmədov, A.S.Hüseynov). 1930-1980-cı illər ərzində kafedra əməkdaşları tərəfindən 29 namizədlik, 11 doktorluq dissertasiyaları müdafiə edilmiş, 12 dərs vəsaiti, 800-dən artıq elmi məqalələr çap etdirilmiş, 20-dən artıq monoqrafiya yazılmışdır (H.Paşayev, E.Rəhimov, B.R.Baxşəliyev, Z.A.Tahirova, Ş.X.Əliyev, A.B.Şadlinski, G.Kərimova, T.Burtikova, Q.Hüseynov, Ə.Ə.Abbasov, A.S.Hüseynov, F.Axundov, R.Salayev, D.Şəfiyeva, R.Aslanzadə, H.Əmiraslanov, İ.Qafarov, Z.Ağabəyli).

Akademik M.A.Topçubaşovun vəfatından sonra 1981-1983-cü illərdə kafedraya müdir əvəzi professor Əliyev Ə.P. rəhbərlik etmişdir.



1983-1994-cü illərdə isə kafedra müdiri vəzifəsində Prof. Kərimov H.M. çalışmışdır. Professor H.M.Kərimovun rəhbərlik etdiyi dövrdə kafedrada cərrahi qastroenterologiyanın bir sıra problemlərinə xüsusən mədə və 12 barmaq bağırsaq xoraları münasibətilə üzv saxlayıcı əməliyyatlara aid çoxsaylı tədqiqat işləri aparılmışdır.

1994-2003-cü illərdə kafedraya Prof. Ağayev İ.N. başçılıq etmişdir.

Bu illərdə kafedra əməkdaşları Elmi Tədqiqat Mərkəzi ilə əlaqəli tədqiqat işləri aparmışlar. Həmin dövr üçün kafedra əməkdaşları əsasən peritonitin müalicəsini optimallaşdırmaq istiqamətində eksperimental və kliniki tədqiqatlar apararaq, namizədlik dissertasiyaları müdafiə etmişlər (Y.Q.Əliyev, Ə.H.Əliyev, V.Ə.Rəhimov). Eksperimental və kliniki müşahidələrin nəticələrinə əsaslanaraq "Peritoneal intoksikasiya" adlı monoqrafiya çap etdirilmişdir (Q.Ş.Qarayev, Ş.X.Əliyev, Y.Q.Əliyev).

Çox illik müşahidələrin nəticələrinə əsaslanaraq kafedra əməkdaşlarından B.R.Baxşəliyev, E.M.Rəhimov doktorluq dissertasiyaları müdafiə etmişlər.

B.R.Baxşəliyev tərəfindən "Qarın boşluğu orqanlarının kəskin cərrahi xəstəlikləri" adlı monoqrafiyası çap etdirilmişdir.

2004-2015-ci illər ərzində kafedraya professor Ə.M.Məmmədov rəhbərlik etmişdir. Bu illər ərzində kafedra əməkdaşlarının əsas elmi-tədqiqat işləri qarın boşluğu üzvlərinin kəskin cərrahi xəstəlikləri və endotoksikoz probleminə həsr olunmuşdur.

Kafedra əməkdaşları tərəfindən xarici və yerli mətbuat səhifələrində 10 ildə 500 elmi məqalə, 3 monoqrafiya, 10 metodiki tövsiyyə, 4 dərslik çap etdirilmiş, 8 patent alınmışdır.

I Müalicə-Profilaktika Fakültəsi

1944 - cü ilin əvvəllərində tələbələrin sayının getdikcə artması ilə əlaqədar olaraq Azərbaycan Dövlət Tibb Institutunda bir sıra yeni kafedraların yaranması zərurəti meydana çıxmışdır.



Bu məqsədlə 1944 -cü ildə yeni yaradılan cərrahi xəstəliklər kafedrası akademik M.A.Topçubaşovun rəhbərlik etdiyi fakultə cərrahiyyəsi kafedrasından ayrılaraq Pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrası adı altında fəaliyyət göstərməyə başlamışdır. Yeni yaradılan kafedraya rəhbərlik akademik M.A.Topçubaşovun ən bacarıqlı şagirdlərindən biri olan 33 yaşlı tibb elimləri doktoru Fuad Ələddin oğlu Əfəndiyevə tapşırılmışdır.

1944-cü ildən 1949-cu ilə qədər kafedra Semaşko adına 1 №-li şəhər klinik xəstəxanasında fəaliyyət göstərmişdir. 1949-cu ildən etibarən kafedra 4 №-li şəhər klinik xəstəxanasının cərrahi klinikasına köçürülmüşdür.

Böyük Vətən müharibəsi illərində və müharibədən sonrakı illərdə elmi-tədqiqat işləri və müalicə prosesi əsasən yaralılara və yaralanmaların fəsadları ilə əlaqədar xəstəliklərin müalicəsinə yönəldilmişdir.

Müharibədən sonrakı illərdə prof. F.Ə.Əfəndiyev kafedrada köks qəfəsi cərrahiyyəsinin əsasını qoymuş və burada təkcə yaralanmaların fəsadları ilə deyil, həm də ağciyər vərəminin cərrahi müalicəsi, plevranın empiyeması və ağciyərin irinli-iltihabı proseslərinin müalicəsi ilə məşğul olmuşdur.

Professor F.Ə.Əfəndiyevin bilavasitə rəhbərliyi altında kafedrada demək olar ki, ilk dəfə ürək cərrahiyyəsinin, cərrahi - hematologiyanın əsası qoyulmuş və sonradan bu sahələr ayrı-ayrı elmi-tədqiqat institutları kimi inkişaf etmişdir.

Kafedrada ilk dəfə ürək və magistral damarlar üzərində rekonstruktiv cərrahi əməliyyatlar aparılmış, müasir anesteziolokiyanın və eksperimental cərrahiyyənin əsası qoyulmuşdur.

Prof.F.Ə.Əfəndiyevin rəhbərliyi altında klinikada bir sıra yeni original üsullar tədbiq edilmişdir. Hematorakslar zamanı onun təklif etdiyi "ekspress" metod böyük nəzəri və praktiki əhəmiyyətə malik olduğundan akademik N.N.Burdenko adına mükafata layiq görülmüşdür.

O, beynəlxalq cərrahlar assosasiyasının həqiqi üzvü, beynəlxalq hematoloqlar cəmiyyətinin üzvü seçilmişdir.Dəfələrlə Azərbaycan və o vaxtı Sovetlər Ittifaqının elmini müxtəlif beynəlxalq simpozium və qurultaylarda: İngiltərədə, İtaliyada, Avstraliyada və s. ölkələrdə təmsil etmişdir.

Prof. F.Ə.Əfəndiyev öz əməkdaşları Quliyeva X.Ç., Rzayev N.M., Kərimov H.M., Xanəliyev N.M., Məlikova M.X., Qiyasbəyova S.İ. və başqaları ilə

birlikdə cərrahiyyənin müxtəlif sahələrinə həsr olunmuş elmi əsərlərlə çıxış etmişdir.

Fuad Ələddin oğlu Əfəndiyev 20 sentyabr 1963-cü ildə 54 yaşında həyat və elmi fəaliyyətinin çiçəkləndiyi bir dövrdə dünyasını dəyişdi.

F.Ə. Əfəndiyev qısa elmi fəaliyyəti dövründə 200-dən artıq elmi əsər, 3 monoqrafiya, 2 səmərələşdirici təklif dərc etdirmişdir. Respublika tibb aləmi üçün 9 tibb elmləri doktorları, 14 tibb elmləri namizədləri hazırlamışdır.

1964-1973-cü illərdə kafedraya prof. Tahirov Aslan Nəzər oğlu rəhbərlik etmişdir. A.N.Tahirovun rəhbərliyi altında kafedrada pedaqoji və müalicəvi işlərlə yanaşı elmi-tədqiqat işləri də aparılmışdır(qarın boşluğu üzvlərinin müxtəlif xəstəliklərində qanın laxtalanma sisteminin öyrənilməsi, müharibədən sonrakı dövrdə hərbi zədələnmələrin fəsadlarının müalicəsi, qaraciyər və öd yollarının cərrahi xəstəlikləri, yanıqların müalicəsi və s.).

Prof A.N.Tahirovun Böyük Vətən müharibəsi dövründə qazandığı zəngin təcrübə kafedranın əməkdaşları üçün dəyərli elmi və praktiki məktəbə çevrilmişdir. Prof. A.N. Tahirov 130-dan artıq elmi əsərin, 2 metodik vəsaitin və çoxlu əməli təkliflərin müəllifi olmuşdur.

Prof A.N. Tahirovun vəfatından sonra kafedraya rəhbərlik üçün prof. Quliyeva Xurşud Cəmil qızı seçilir.

Prof. Quliyeva X.C 1970-1980-ci illərdə kafedraya rəhbərlik etmiş və bu dövrdə prof. F.Ə. Əfəndiyevin və prof A.N. Tahirovun başlayıb apardıqları elmi-metodik istiqamətləri davam etdirərək kafedranın elmi tematikasını cərrahi endokrinolokiyaya aid elmi axtarışlarla zənginləşdirir.

Prof. X.C Quliyeva 100-dən artıq elmi əsərin müəllifidir.Onun rəhbərliyi altında 2 doktorluq və 2 namizədlik dissertasiyaları yerinə yetirilmişdir.

Sonrakı 10 il müddətində (1980-1991-ci illər) kafedraya ə.e.x.professor Quliyev Şamil Bəşir oğlu rəhbərlik etmişdir.Bu dövrdə kafedranın ümumi elmi problemləri periferik damarların patalogiyası, onların şəkər xəstəliyi fonunda ağırlaşmaları və i.a./ öyrənilməkdə davam etdirilir.Bundan əlavə kafedranın əməkdaşları institutun elmi - tədqiqat labaratoriyası və patofizologiya kafedrasının əməkdaşları ilə birlikdə geniş elmi tədqiqat axtarışlarına girişərək müxtəlif mənşəli peritonitlərin müalicəsində böyük əhəmiyyəti olan endolimfatik müalicə üsullarını eksperimental olaraq işləyib, araşdırılır və klinik təcrübəyə tətbiq edirlər.

Kafedra əməkdaşlarının hərbi səhra cərrahiyyəsi sahəsində dərin nəzəri bilikləri və geniş təcrübəsini nəzər alaraq institut rəhbərliyi hərbi səhra cərrahiyyəsi üzrə tədris saatlarının bu kafedrada aparılmasını məsləhət bilir. Kafedrada tələbələrin sayının artması ilə əlaqədar Respublika klinik xəstəxanasının cərrahi şöbəsi əlavə baza kimi kafedranın ixtiyarına verilir.

10 ildən artıq kafedraya rəhbərlik etmiş prof. Quliyev Ş.B. 120-dən artıq elmi əsərin, 2 monoqrafiyanın, 3 metodik vəsaitin müəllifidir.



*Prof. M.Y.Nəsirov*

1991-ci ildə kafedraya rəhbərlik üçün professor Nəsirov Məmməd Yəhya oğlu seçilir. Həmin ildən başlayaraq klinikada praktik cərrahiyyə nöqteyi nəzərindən yeni canlanma dövrü başlanır.Qısa müddətdə cərrahiyyə bloku yenidən qurulur, yeni avadanlıq və cərrahi alətlərlə təchiz olunur.

Klinikanın elmi tematikası: şəkərli diabet fonunda periferik damarların angiopatiyası, aşağı ətraf arteriyalarının obliterasiyaedici xəstəlikləri və onların fəsadları, müxtəlif mənşəli peritonitlərdə endolimfatik müalicə üsullarının daha geniş tədbiqi və elmi əsaslandırılması ilə bərabər qaraciyər, öd yolları, mədə və 12 barmaq bağırsaq sisteminin patalogiyası və onların fəsadlarının cərrahi müalicəsi istiqamətində mühüm işlər aparılır. Bundan başqa,, əlaqədar kafedralar, institutlar və labaratoriyalarla birlikdə Tibb Universitetinin Elmi - Tədqiqat Mərkəzi, Mikrobiologiya, farmakalogiya, sitologiya, embriologiya və histologiya kafedraları və Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu və s. müştərək elmi - tədqiqat işlərinin aparılması təşkil edilir.

Professor M.Y.Nəsirovun bilavasitə iştirakı və rəhbərliyi altında klinikada mədə və 12 b. bağırsaq xoralarının cərrahi müalicəsində mütərəqqi üsulların tədbiqi və eləcə də cərrahi əməliyyatın texnikası sahəsində bir sı-

ra metodiki və səmərələşdirici təkliflər işlənib hazırlanmışdır.

Klinikada yeni istiqamət kimi başlanan və Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutu



ilə müştərək aparılan elmi axtarışlar mədə və 12 b. Bağırsağın xora xəstəliyinin patogenezinə yeni baxışların və münasibətlərin meydana gəlməsinə, Tibb Universitetinin farmakologiya kafedrasının əməkdaşları ilə aparılan axtarışlar isə cərrahi əməliyyatlardan sonra xəstələrin optimal qidalanması üçün yeni "Empid" adlı preparatın yaradılmasına gətirib çıxarır, bu da Dövlət reyestrindən keçərək Patentə layiq görülür.

Kafedrada elmi və praktik işlərin yeni istiqamətləri ilə bərabər tədris prosesində də dəyişikliklər baş verir. Kafedranın elmi, praktiki və kadr potensialının güclənməsi ilə əlaqədar olaraq əvvəlki illərdən fərqlənərək universitetin müalicə - profilaktika fakultəsinin tələbələri / subordinatorlar / və həkim - internlər kafedrada tədris prosesinə cəlb olunurlar.

Beləliklə başlanğıcda / 1944-cü il / 2 nəfər əməkdaşı olan kafedra uzun mürəkkəb yol keçərək 2015-ci ilə qədər pedoqoji, elmi, praktiki və mənəvi nöqteyi - nəzərdən möhkəm və sağlam ailə şəklində formalaşaraq 36 nəfərlik bir kollektivə çevrilmişdir. O cümlədən 2 əməkdar elm xadimi, 7 professor, 8 dosent, 19 assisent, baş laborantlar, aspirant, klinik ordinatorlar, dissertantlar, rezidentlər və s.

Fəaliyyət göstərdiyi müddətdə kafedrada 22 tibb elmləri doktorlari, 40-dan artıq tibb elmləri namizədləri yetişmişdir.Kafedranın əməkdaşları tərəfindən 2500-dən yuxarı elmi əsər nəşr etdirilmiş, 24 monoqrafiya işıq üzü görmüş, 25 səmərələşdirici təklif və 70-ə qədər metodik vəsait dərc olunmuşdur.

Ə.e.x.professor M.Y.Nəsirovun rəhbərliyi altında kafedranın əməkdaşları tərəfindən Tibb Universitetinin tələbələri, Həkimləri Təkmilləşdirmə institutunun dinləyiciləri və praktiki cərrahlar üçün "Cərrahi xəstəliklər", "Hərbi Səhra cərrahiyyəsi", "Cərrahiyyə" Azərbaycan və ingilis dillərində dərsliklər və dərs vəsaitləri, o cümlədən Azərbaycanca - rusca - ingiliscə - fransızca - ərəbcə tibbi danışıq kitabları dərc etdirmişlər.

Kafedrada bir qayda olaraq daim tələbə - elmi cəmiyyəti fəaliyyət göstərir. Kafedranın əməkdaşları müxtəlif dövrlərdə Azərbaycan Tibb Universitetinin, eləcə də Respublikanın müxtəlif elmi strukturlarında müxtəlif vəzifələri tutmuş və indi də tutmaqdadırlar.

Ölkəmiz müstəqillik qazandığından sonra təhsil proqramlarında gedən dəyişikliklərlə əlaqədar Universitetin kafedralarında müəyyən struktur dəyişikliklərin aparılmasına ehtiyac duyulur. Buna görə hələ 1944-cü ildə bir-birindən ayrılaraq 70 ildən artıq bir dövrdə paralel

fəaliyyət göstərən iki cərrahi xəstəliklər kafedralarının birləşməsi zəruriyyəti meydana çıxır.

Bu məqsədlə Azərbaycan Tibb Universiteti rektorunun əmri ilə III cərrahi xəstəliklər kafedrası və pediatriya fakultəsinin cərrahi xəstəliklər kafedrası birləşdirilərək akademik M.A.Topçubaşov adına III cərrahi xəstəliklər kafedrası adı altında öz fəaliyyətini davam etdirir. Kafedraya ümumi rəhbərlik isə ə.e.x.professor M.Y.Nəsirova həvalə olunur.

Professor Camalov Fariz Hidayət oğlu 2017-ci ildə müsabiqə yolu ilə kafedra müdiri seçilmişdir. Bu müddət ərzində o, özünü yaxşı rəhbər və təcrübəli cərrah kimi göstərdi. Əməkdaşlarla elmi əsərlər, məqalələr çap etdirir. Kafedra müdiri gənc kadrlara çox diqqət yetirir. Gənc alimlərlə müxtəlif patologiya ilə olan əməliyyatlara cəlb edir.



*Prof. F.H.Camalov*

Professor F.H.Camalovun rəhbərliyi ilə Camalova T.P. "Piylənmədən əziyyət çəkən, əməliyyatdan sonrakı ventral yırtığı olan xəstələrin kompleks müalicəsində təkmilləşdirilmiş abdomino-və hernioalloplastika metodlarının birmomentli tətbiqinin effektivliyi", Zahidov Z.T. "Əməliyyatdan sonrakı eventrasiyalarda absorbtiv adnezion baryer və monoakril profilen torun birgə tətbiqinin klinik qiymətləndirilməsi" tibb üzrə fəlsəfə doktorluq dissertasiyasını müdafiə etmişlər.

I Müalicə-Profilaktika Fakültəsi

Professor F.H.Camalovun rəhbərliyi altında Abdullayev A.C. “Yüksək riskli kəskin xolesistitli xəstələrin kompleks müalicəsində qanın venadaxili lazer şüalandırılması fonunda laennek preparatının effektivliyi”, Hüseynova G.T. “Qasıq yırtıqlarının cərrahi müalicəsində Trabukko üsulu ilə yeni rekonstruktiv hernioalloplastika metodunun rolu” (ilkin müzakirəsi keçib), Kosayeva G.A. qızının “Pilonidal sinusun cərrahi müalicəsində doksisiklin hopdurulmuş kollagen süngərin və dəri plastikasının birgə tətbiqinin effetivliyi”, kafedranın dissertantı Piriyeva S.E. “Nekrozlaşan fassitli xəstələrin kompleks müalicəsində immunokorreksiya və antibiotik terapiyası” dissertasiya işlərinin mövzusunun və planının universitetin “Cərrahiyyə” üzrə Problem komissiyasında və fakültə Elmi Şurasında müzakirə və təsdiq olunmuşdur.

Professor F.H.Camalov 1995-2005-ci illərdə Azərbaycanın rayonlarında (Sabirabad, Ağcabədi, Saatlı, Biləsuvar, İmişli və s.) məcburi köçkünlərə cərrahi tibbi yardım göstərmiş.

Professor Camalov F.H. 2021 ci il tarixindən Dissertasiya Şurasının elmi katibidir.

Hazırda kafedranın bütün əməkdaşları sağlam bir ailədə birləşərək mətinlik göstərir, bütün bacarıq və imkanlarından istifadə edərək tədrisin keyfiyyətcə yaxşılaşmasına, hazırki dövrdə tələbələrin mənəvi saflığının onlarda milli şüurunun formalaşmasına və Azərbaycan tibb elminin daha da zənginləşməsi və yüksəlməsi üçün səylə çalışırlar.

# I UŞAQ XƏSTƏLİKLƏRİ KAFEDRASI



Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin ilk Pediatriya kafedrası 1924-cü ildə N.Nərimanov adına Uşaq Xəstəxanasının nəzdində yaradılmış və 1924-1930-cu illərdə kafedraya prof. A.O.Karnitski rəhbərlik etmişdir. Ölkəmizdə Pediatriyanın əsaslı inkişafı bu kafedranın adı ilə bağlıdır.

1930-1935-ci illərdə kafedranın müdiri olan B.P. Bruxanski, eyni zamanda N.K.Krupskaya adına "Ana və uşaqları mühafizə" institutunun direktoru olmuşdur.



*Prof. A.O.Karnitski*

1935-ci ildə kafedraya rəhbərlik Z.A.Hüseynbəyova həvalə edilmişdir. Həmin vaxtlarda kafedranın əməkdaşları tərəfindən məhsuldar pedaqoji və elmi-tədqiqat işləri aparılmışdır.



*Prof. Ə.F.Qarayev*

1937-ci ildə Pediatriya fakültəsində iki uşaq xəstəlikləri kafedrası təşkil edilmişdir. Bunlardan biri "Uşaqların fiziologiyası və dietetikası" kursu daxil olmaqla kiçik yaşlı uşaqların xəstəlikləri kafed-rası (müdiri professor Z. Hüseynbəyov), digəri isə pro-fessor Ə.Qarayevin rəhbərlik etdiyi "Uşaq yoluxucu xəstəlikləri və vərəm" kursu daxil olmaqla böyük yaşlı uşaqların xəstəlikləri kafedrası idi. Bu kafedralar fəaliyyət göstərdikləri müddətdə pediatriyada həkim kadrlarının hazırlanmasında əsas rol oynamışlar.

1940-1955-ci illərdə kafedraya prof.C.Q.Şteyn rəhbər-lik etmişdir. Bu dövrdə kafedranın elmi problem mövzusu rev-matizm, raxit və malyariya olmuşdur.

1956-1959-cu illərdə kafedraya yenidən professor Z.A.Hüseynbəyov (1900-1959) rəhbərlik etmişdir. Təcrübi həkim, alim, pedaqoq kimi tanınmış, respublikamızda uşaqlar arasında geniş yayılmış xəstəliklərin diyar patologiyasının aktual problemlərinin öyrənilməsi ilə əlaqədar böyük iş aparmışdır.

1963-1965-ci illərdə kafedranın müdiri N.X.Mustafayeva,1965-1970-ci illərdə akademik A.Ə.Namazova (1926-1920) olmuşdur.



*Akad. A.Ə.Namazova*

1970-1992-ci illərdə Uşaq xəstəlikləri kafedrasına prof. N.A.Hüseynova rəhbərlik etmişdir. İstedadlı alim, Respublikanın əməkdar həkimi, professor N.A.Hüseynovanın Azərbaycanda uşaqlar arasında mədə-bağırsaq pozğunluqlarının öyrənilməsində böyük əməyi vardır. Onun "Mədə-bağırsaq pozuntusu keçirmiş erkən yaşlı uşaqlarda klinik-biokimyəvi paralellər" adlı doktorluq (1969) dissertasiyası tibb aləmində yüksək qiymətləndirilmişdir. İlk dəfə olaraq uşaqlarda endoskopik, bakterioloji və ultrasəs tədqiqat metodlarından istifadə olunmuşdur.

1992-2017-ci illərdə kafedraya əməkdar elm xadimi, prof.N.C.Quliyev rəhbərlik etmişdir. Professor N.C.Quliyev 1994-2020 illərdə həmçinin K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru vəzifəsini icra etmiş, Türk Dünyası Pediatrlar Birliyinin prezidenti olmuşdur. "Azərbaycan Perinatologiya və Pediatriya Jurnalı"nın baş redaktorudur. 2000-ci ildə əməkdar



*prof.N.C.Quliyev*

elm xadimi fəxri ada layiq görülmüş və 2007-ci ildə isə Tərəqqi medalı ilə təltif edilmişdir.

2017-2023-ci illərdə kafedraya professor S.Ş. Həsənov (1956-2023) rəhbərlik etmişdir. O, 1999-cu ildən Azərbaycan Tibb Universitetinin Neonatologiya kafedrasının professoru, 2005-2012-ci illərdə K.Y.Fərəcova adına ET Pediatriya İnstitutunun el-mi işlər üzrə direktor müa-vini, 2010-2016-cı illərdə Neonatologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.



*Prof. S.Ş.Həsənov*

2023-cü ildən prof.Bəylərov Rauf Oruc oğlu rəhbərlik edir. 1996-2005-ci illərdə Səhiyyə Nazirliyinin Pediatriya üzrə Attestasiya Komitəsinin üzvü olub. 2017-cı ildən ATU-nun elmi işlər üzrə prorektoru vəzifəsində çalışır. 2021-ci ildə Pediatriya ixtisası üzrə tibb elmlər doktorluq dissertasiya işini müdafiə edib. 2019-cu ildən Səudiyyə Ərəbistanının Beynəlxalq Urologiya və Transplantasiya Jurnalının, Həştərxan Tibb Jurnalının və Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalının redaksiya şurasının üzvüdür. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Əməkdar Həkim" fəxri adına layiq görülmüşdür. Hal-



*Prof.R.O.Bəylərov*

hazırda Uşaq nefrologiyası istiqamətində elmi və müalicə işləri ilə məşğul olur, kafedra müdiri kimi qoyulmuş bütün ənənələri ləyaqət və şərəflə davam etdirir. Hazırda kafedra 40 əməkdaş fəaliyyət göstərir, onlardan, professor –müəllim heyəti 30 nəfərdən (4 professor, 8 dosent, 18 assistent) ibarətdir. Bundan əlavə kafedrada 13 rezident fəaliyyət göstərir.

Kafedra uzun illərdir K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitunun bazasında yerləşir və kafedranın əməkdaşları İnstitutunun klinik şöbələrində fəaliyyət göstərirlər, İnstitutun elmi və ictimai fəaliyyətində əməkdaşlarımızın böyük rolu olmuşdur. Kafedranın əməkdaşlarının səhiyyədə göstərdikləri fəaliyyətləri çoxsaylı təltif və fəxri fərmanlara layiq görülmüşdür.



Kafedrada son illərdə çalışan əməkdaşlar tərəfindən 1000-dən artıq elmi məqalə, 8 dərs vəsaiti, 4 dərslik, 5 monoqrafiya və 10 tədris - metodik tövsiyə nəşr edilmişdir. Kafedramızın professor-müəllim heyyəti tərəfindən həkim-rezident pilləsində təhsil alan gələcəyin peşəkar mütəxəsislərinin ixtisaslarına uyuğun olaraq müxtəlif mövzularda mühazirələr oxunur və rotasiya keçirilir. I Uşaq xəstəlikləri kafedrasında I müalicə profilaktika və Hərbi tibb fakültələrinin tələbələrinə dərs

keçirilir. Kafedrada tədris azərbaycan, rus və ingilis dillərində kredit sistemi ilə aparılır.

# ALLERQOLOGİYA VƏ İMMUNOLOGİYA KAFEDRASI



Allerqologiya və immunologiya kafedrası ilk olaraq, 2009-cu ildə "Klinik Allerqologiya və İmmunologiya" kursu adı altında öz fəaliyyətinə başlamışdır. Səkkiz nəfər əməkdaşla fəaliyyətə başlayan kursa rəhbər professor Allahverdiyeva Lalə İsmayıl qızı təyin edilmişdir. Sonralar əməkdaşların sayı 11 nəfərə çatdırılmışdır. 2005–ci ildən isə ATU-nun II Uşaq xəstəlikləri kafedrasının nəzdində "İmmunologiya" kursu açılmışdır. 2017-ci ildə ATU-nun rektoru professor



*Prof.L.İ.Allahverdiyeva*

G.Ç.Gəraybəyli tərəfindən hər iki kurs “Allerqologiya və İmmunologiya” kafedrası adı altında birləşdirilmişdir. Kafedranın müdiri isə professor Allahverdiyeva Lalə İsmayıl qızı müsabiqə yolu ilə seçilmişdir. Hal-hazırda kafedrada 1 professor, 2 dosent, 6 assisent, 3 baş laborant və 2 kiçik işçi olmaqla, 14 əməkdaş çalışır. Kafedrada I və II-Müalicə-profilaktika fakultəsinin VI kurs tələbələri təhsil alırlar. Dərslər müasir standartlara uyğun olaraq, prezentasiyalarla azərbaycan, rus və ingilis dilində tədris olunur. Kafedranın əsas elmi istiqaməti bunlardır: Allergik rinit, bronxial astma və atopik dermatitin molekulyar diaqnostikası, dəri sınaqları, IgE-IFA və molekulyar allerqodiaqnostikanın nəticələrinin müqayisəsi, ASİT üçün pasiyentlərin seçilməsi və bu müalicə üsulunun gözlənilən effektivliyinin molekulyar allerqodiaqnostika vasitəsilə qiymətləndirilməsi, həmçinin, İmmun patologiyalar, onların diaqnostikası sahəsində aparılan nəticələrin qiymətləndirilməsi.



Kafedranın əsas elmi mövzusu: «Molekulyar allerqodiaqnostika əsasında allergenspesifik immunoterapiyası (ASİT) üçün xəstələrin seçilməsi, müalicənin effektivliyinin proqnozlaşdırılması və qiymətləndirilməsi» Elmi rəhbər: t.ü.e.d, professor L.İ Allahverdiyeva. İcraçılar: kafedranın bütün əməkdaşları, o cümlədən: tibb üzrə fəlsəfə doktoru, dosent-2 nəfər, tibb üzrə fəlsəfə doktoru, assistent- 6 nəfər, elmi dərəcəsi olan assistent-1 nəfər, elmi dərəcəsi olmayan assistent- 3 nəfər. Kafedrada atopik xəstəliklərin müasir diaqnostikası və müalicənin təkmilləşdirilməsinə dair məsələlər araşdırılır. Eyni zamanda, bu istiqamətdə aparılan elmi tədqiqatlar və araşdırmalar sayəsində bir sıra uğurlu nəticələr əldə edilmişdir. Elmi tədqiqatların mövzusu allerqologiya və kliniki immunologiyanın aktual problemlərinin araşdırılmasına yönəlmişdir və öz əksini elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyalarında, dərsliklərdə, tədris-metodik tövsiyələrdə və monoqrafiyalarda tapmışdır. Kafedra əməkdaşları tərəfindən respublikanın, yaxın və uzaq xarici ölkə jurnallarının səhifələrində 500-dən çox elmi məqalələr, 2 dərslik, 2 monoqrafiya, "COVİD-19 əsrin xəstəliyi" adlı monoqrafiya və "Autoiltihab patologiyalar" adlı dərs vəsaiti və 10 tədris-metodik vəsaitlər nəşr edilmişdir. Kafedra əməkdaşları bir çox beynəlxalq allerqoloji və immunoloji konfrans və simpoziumlarda çıxış və iştirak etmişlər. Kafedra tibb üzrə elmlər doktorluğu və tibb üzrə fəlsəfə doktorluğu elmi dərəcəsi almaq üçün 11 dissertasiyalar uğurla müdafiə edilmişdir. Hazırda allerqologiya və immunologiya kafedrasında doktoran-

tura, dissertantura və iddiaçılıq yolu ilə müxtəlif mövzularda dissertasiyalar yerinə yetirilir.

Prof. L.İ.Allahverdiyevanın rəhbərliyi altında 1 doktorluq, 3 namizədlik dissertasiyaları müdafiə olunub. Hal-hazırda 1 doktorluq və 4 namizədlik dissertasiyası işinə rəhbərlik edir.

Prof. L.İ.Allahverdiyeva Azərbaycan Tibb Universitetinin Böyük elmi şurasının və I Müalicə - Profilaktika fakultəsinin Elmi Şurasının üzvüdür. Azərbaycan Respublkasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tibb üzrə ekspert şuranın sədr müavinidir. Azərbaycan Allerqologiya və klinik İmmunologiya elmi-praktiki jurnalının təsisçisi və baş redaktorudur. Azərbaycan və BMT ölkələrin Allerqoloq, İmmunoloq və İmmunorea-bilitoloqlar, Avropa Aka-demiyasının Allerqoloq və klinik İmmunoloqlar, EA-ACİ (Avropa Allerqoloqlar, Klinik İmmunoloqlar Aka-de-miyası) Avropa Respi-rator elmi cəmiyyətlərinin qızıl üzvü, ERS *(Avropa Respirator* Cəmiyyəti), Kanada İmmunoloqların Elmi cəmiyyətinin üzvüdür.



“Allerqologiya və immunologiya” kafedrasının bütün işçiləri Azəbaycan allerqoloqlar, immunoloqlar və immunoreabilitoloqlar cəmiyyətinin üzvüdür.

# ANESTEZİOLOGİYA VƏ REANİMATOLOGİYA KAFEDRASI



Anesteziologiya və reanimatologiya kafedrası N.Nərimanov ad. Azərbaycan Dövlət Tibb İnistitutunun (hazırda Azərbaycan Tibb Universiteti) nəzdində 1974-cü ildə yaradılmışdır. Gənc elmlər doktoru Abbas Əhməd oğlu Axunbəyli həmin kafedraya mü-dir təyin edilmişdir. Bu dövrdən anesteziologiya və reanima-tologiyanın tədrisi yüksək səviy-yədə təşkil edilmiş, geniş miq-yaslı elmi-tədqiqat işləri planlaşdırılaraq həyata keçiril-mişdir. O, cümlədən ilk 10 il ərzində ildə bir dəfə elmi konfrans keçirilmiş, orada aneste-



*Prof. A.Ə.Axundbəyli*

ziologiya-reanimatologiyanın vacib və aktual problemləri müzakirə edil-mişdir.



Anesteziologiya və reanimatologiya kafedrası 1991-ci ildə ATU-nun I daxili xəstəliklər kafedrası ilə birləşmiş və 2010-cu ilə qədər prof. A.Ə. Axunbəylinin rəhbərliyi altında "I Daxii xəstəliklər və reanimatologiya" adı ilə fəaliyyət göstərmişdir. 2010-2018-ci illər ərzində həmin kafedraya prof. A.Ə. Axunbəylinin tələbəsi, əməkdar həkim, t.ü.e.d., prof. İsbəndiyar Səlimxan oğlu İsmayılov rəhbərlik etmiş, 2018-ci ilin sentyabr ayında "Anesteziologiya və reanimatologiya" kafedrası (kafedra müdiri prof. İ.S. İsmayılov) yenidən təşkil olunmuşdur.

Prof. A.Ə. Axunbəyli (1938-2014) Azərbaycanda Anesteziologiya və reanimatologiya elmi məktəbinin yaradıcısıdır. O, Respublikamızda bu ixtisas üzrə ilk elmlər doktoru elmi dərəcəsi almış, onun rəhbərliyi altında 30-dan çox namizədlik və doktorluq disser-



tasiyaları yerinə yetirilmişdir.

Hazırda kafedraya rəhbərlik edən prof. İ.S. İsmayılov (1952) 1986- ci ildə namizədlik, 1999-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 2018- ci ildən etibarən yenidən yaradılmış anesteziologiya və reanimatologiya kafedrasının müdiri vəzifəsində çalışır, 254 elmi işin müəllifidir. Rəhbərliyi altında 2 doktorluq və 2 namizədlik dissertasiya müdafiə olunmuşdur. Onun redaktəsi ilə ana dilində ilk dərslik və dərs vəsaitləri işıq üzü görmüşdür.



*Prof. İ.S. İsmayılov*

Kafedrada son 10 ildə yerinə yetirilən tədris-metodik və elmi işlər:



Elmi işlərin ümumi sayı 189, o cümlədən, 74 məqalə (15-i xaricdə) və 107-si tezis (12 xaricdə), 1 dərslik , 5 dərs vəsaiti, 2 tədris-metodik və-sait, 2 fənn proqramı dərc olunmuşdur.

Kafedra yaranan gündən hal -hazıradək qədər cəmi 37 olmaqla 5 doktorluq və 32 namizədlik dissertasiyası müdafiə olunmuş, onlardan 6 namizədlik dissertasiyası son 10 ilə aiddir.

Beynəlxalq əlaqələri: Rusiya federasiyasının "Dövlət Elmi Lazer mərkəzi" ilə 5 illik müqavilə əsasında birgə elmi işlər həyata keçirilmişdir.

# DERMATOVENEROLOGİYA KAFEDRASI



Azərbaycan Tibb Universitetinin dəri və zöhrəvi xəstəliklər kafedrası, 1919-cu ildə yaradılmış və sonradan Azərbaycan Dövlət Universiteti adlanan Bakı Universitetinin tibb fakültəsi mövcud olduğu dövrdə - 1920-1921-ci illərdə təşkil olunmuş ilk kafedralardandır. 1922-1930-cu illərdə dəri və zöhrəvi xəstəliklər kafedrasının ilk müdiri, Moskva dermatoveneroloqlar məktəbinin banisi, professor A.N.Pospelovun tələbəsi, görkəmli rus dermatoveneroloqlarından biri, Moskva Dövlət Universitetinin professoru, t.e.d. Mixail Aleksandroviç Çlenov (1871-1936) ol-



*Prof. M.A.Çlenov*

muşdur. Təcrübəli klinisist, erudit pedaqoq və alim M.A.Çlenov Azərbaycanda fəaliyyət göstərdiyi dövrdə çoxlu sayda ixtisaslaşmış milli mütəxəssis-dermato-veneroloqlar hazırlamışdır ki, bunların da əksəriyyəti elmlər doktoru və elmlər namizədi olmuşdur: İ.M. İsmayılzadə, M.K.Sultanov, Ə.C.Cəfərov, M.M.Hüseynov, D.İldırım, D.S.Xudatov, M.X.Hüseynova, H.K. Hüseynov. Onun rəhbərliyi altında regional patologiyalara aid aktual suallar üzrə bir sıra elmi-tədqiqat işləri yerinə yetirilmişdir: dəri leyşmaniozu, maduromikoz, cüzam.

1930-cu ildə ADU-nun tibb fakültəsi Azərbaycan Tibb İnstitutu ilə əvəz edildi. Tibbi tədris 2 dildə - azərbaycan və rus dillərində aparılmağa başlandı. Bu səbəbdən 2 dəri və zöhrəvi xəstəliklər kafedrası təşkil edildi. Azərbaycan dilində tədris aparılan kafedraya ə.e.x., professor İ.M.İsmayılzadə, rus dilində tədris aparılan kafedraya professor M.K.Sultanov rəhbərlik etmişdir.

1933-1938-ci illərdə azərbaycan dilində tədris aparılan dəri və zöhrəvi xəstəliklər kafedrasının müdiri t.e.d., professor İbrahim Məmməd oğlu İsmayılzadə (1898-1962) olmuşdur. O, ilk azərbaycanlı alim-dermatoveneroloqrarından biri idi. İ.M.İsmayılzadə ali tibbi təhsilin təşkilində aktiv iştirak etməklə, elmi katib, dekan (1927-1931), institutun elmi və tədris işləri üzrə prorektorunun (1936-1937) vəzifə borcunu yerinə yetirmişdir. Kafedrada onun rəhbərliyi altında dəri leyşmaniozu, naftalan terapiyası, neft və neft məhsullarının dəriyə təsiri haqqında suallara həsr edilmiş elmi-tədqiqat işləri aparılmışdır. İ.M.İsmayılzadənin əldə etdiyi ən yüksək nailiyyət azərbaycan dilində tərtib etdiyi dərs vəsaitləri: dəri xəstəlikləri üzrə ilk dərslik, 1933-cü ildə 3

dildə (latın-rus-azərbaycan) nəşr olunmuş ümumi tibbi terminologiya və dəri-zöhrəvi xəstəliklərin terminologiyası üzrə lüğət, bir sıra elmi-populyar kitabçalar olmuşdur. İ.M.İsmayılzadənin azərbaycan dilində nəşr edilmiş işləri elmi-təcrübi milli kadrların hazırlanmasına böyük köməklik göstərmişdir.

1933-1939-cu illərdə rus dilində tədris aparılan dəri və zöhrəvi xəstəliklər kafedrasının müdiri t.e.d., professor Məlikbəy K.Sultanov (1880-1939) olmuşdur. Kafedrada aparılan elmi-tədqiqat işləri dəri leyşmaniozu, cüzam, dermatomikoz, sifilis və dəri vərəminə həsr olunmuşdur. M.K.Sultanovun "Cüzam və lepromanın histogenezi zamanı dəridə histoloji dəyişikliklərinin öyrənilməsi haqqında" (1927) doktorluq dissertasiyası çox dəyərli olmaqla, Azərbaycan Respublikasında cüzamla mübarizə tədbirlərinin təşkil edilməsində böyük rol oynamışdır.



1938-1964-cü illərdə azərbaycan dilində tədris aparılan dəri və zöhrəvi xəstəliklər kafedrasına t.e.d., professor Əbdül Xaliq Cəfər oğlu Cəfərov (1890-1964) rəhbərlik etmişdir. O, 1930-cu ildə "İnsan dərisinin patoloji və fizioloji piqmentasiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Ə.C.Cəfərovun rəhbərliyi altında kafedrada regional patologiya üzrə tədqiqat davam etdirilmişdir: Azərbaycanda dəri leyşmaniozunun endemik ocaqlarının və patomorfoloji təzahürlərinin öyrənilməsi. Xroniki dermatozların naftalan neftinin tətbiq etməklə müalicəsi və zöhrəvi xəstəliklərlə mübarizə tədbirlərinin təşkil edilməsi metodlarının mükəlləşdirilməsinə böyük diqqət yetirilmişdir.

1940-1964-cü illərdə rus dilində tədris aparılan dəri və zöhrəvi xəstəliklər kafedrasına əməkdar elm xadimi, t.e.d., professor Bahadur Əsgər oğlu Eyvazov (1907-1987) rəhbərlik etmişdir. B.Ə.Eyvazov kafedrada 1929-cu ildən fəaliyyət göstərmişdir. O, 1936-cı ildə "Klinika və patoloji anatomiya – favusun histogenezi" mövzu-sunda doktorluq dissertasiyasını müdafiə etmişdir. B.Ə. Eyvazov 1946-1964-cü illərdə rus dilində tədris aparılan dəri və zöhrəvi xəstəliklər kafedrasının müdiri olmaqla eyni zamanda Azərbaycan Dövlət Universitetində rektor vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında kafedrada dermatomikozların, sifilisin epidemiologiya, klinika, müalicəsi üzrə tədqiqatlar aparılmışdır. B.Ə.Eyvazov respublikada ali tibbi təhsilin təşkilində, ixtisaslı elmi və təcrübi kadrların hazırlanmasında aktiv iştirak etmiş, yoluxucu dəri və zöhrəvi xəstəlikləri ilə mübarizədə səhiyyə müəssisələrinə yaxından yardım göstərmiş, gör-kəmli ictimai xadim olmuşdur. O, respublikanın bir çox

ictimai təşkilatlarının rəhbər heyətinin tərkibində üzv olmuş və dövlət mükafatları ilə təltif edilmişdir.



1964-1990-cı illərdə dəri və zöhrəvi xəstəliklər kafedrasına t.e.d., professor Rasim Hacı oğlu Hacıyev (1926-1999) rəhbərlik etmişdir. Onun əmək fəaliyyəti 1955-ci ildən Azərbaycan Tibb İnstitutunun dəri və zöhrəvi xəstəliklər kafedrası ilə qırılmaz bağlı olmuşdur. R.H.Hacıyev 1965-ci ildə “Dermatologiyada radiaktiv P-32 fosfor izotopunun tətbiqi. Klinik-eksperimental tədqiqat” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Kafedraya rəhbərlik etdiyi dövrdə kafedranın tədris və metodik işində mühüm dəyişikliklər baş vermişdir. 1969-cu ildə dəri və zöhrəvi xəstəliklər kafedrasının azərbaycan və rus dillərində tədris aparan bölmələri birləşdirilmişdir. Görkəmli alim, istedadlı klinisist R.H.Hacıyev Azərbaycanda dermatovenerologiyanın inkişafına elmi zənginlik gətirmiş, özünün elmi dermatovenerologiya məktəbini yaratmışdır. Professor R.H.Hacıyev tərəfindən professor M.M.Davatdarova və dosent H.A.Hüseynzadənin həmmüəllifliyi ilə cinsi yolla yoluxan infeksiyalar üzrə “Zöhrəvi xəstəliklər” adlı

ilk dərslik tərtib edilmişdir. Onun rəhbərliyi dövründə dəri və zöhrəvi xəstəliklər kafedrasının adı “dermatovenerologiya” (1987) adı ilə əvəz edilmişdir. Professor R.H. Hacıyev istedadlı pedaqoq olmaqla yanaşı respublikada milli tibb kadrlarının hazırlanması üçün əlindən gələni əsirgəməmişdir. Kafedrada onun rəhbərliyi altında yoluxucu dəri və zöhrəvi xəstəliklərin, nadir dermatozlar – genodermatozların patogenezi, klinikası, diaqnostikası və terapiyası öyrənilmişdir.


*Prof. M.M.Davatdarova*

1991-2008-ci illərdə dəri və zöhrəvi xəstəliklər kafedrasının müdiri əməkdar elm xadimi, t.e.d., professor Mina Müzəffər qızı Davatdarova olmuşdur.

Azərbaycan dermatovenerologiyasında ilk qadın - t.e.d., professor olan M.M. Davatdarova əmək fəaliyyətinə 1960-cı ildən ATİ-nun dəri və zöhrəvi xəstəliklər kafedrasında başlamışdır. 1991 -ci ildə “Dərman toksidermiyasının inkişafının immun mexanizmi və onların efferent terapiya metodları” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. M.M.Davatdarova dəri və zöhrəvi xəstəliklər kafedrasına rəhbərlik etməklə elmi-tədqiqat işini canlandırmışdır. M.M.Davatdarovanın rəhbərliyi altında kafedrada xroniki və ağır dermatozların, yoluxucu dəri və zöhrəvi xəstəliklərin patogenezi, müalicə və profilaktikasının problemlərinin işlənib hazırlanması davam etdirilmiş, Azərbaycan dermatologiyasında ilk

dəfə efferent terapiya metodlarının – plazmaferezin tətbiqinə başlanmışdır. 2008-2017-ci illərdə dermato-venerologiya kafedrasına əməkdar elm xadimi, t.e.d., professor Zülfüqar Həsən oğlu Fərəcov (1950) rəhbərlik etmişdir. 1990-cı ildə Z.H.Fərəcov "Dərinin bədxassəli limfomaları və Kapoşi sarkoması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildə Z.H.Fərəcov ATU-nun dermatovenerologiya kafedrasına professor seçilmişdir. Z.H.Fərəcovun rəhbərliyi altında kafedrada pemfiqus, dermatomikoz, sifilisin patogenez, diaqnostika və müalicəsi problemləri üzrə tədqiqatlar aparılmışdır. Z.H.Fərəcovun redaktəsi altında latın



*Prof. Z.H.Fərəcov*



qrafikalı azərbaycan dilində ilk dərslik - "Dermatologiya" tərtib edilmişdir.


*Prof. F.R.Mahmudov*

2017-ci ildə t.ü.e.d., professor Fərid Rüfət oğlu Mahmudov (1959) dermato-venerologiya kafedrasına müdir vəzifəsinə seçilmişdir. F.R.Mahmudov 19-90-cı ildən ATU-nun dermatovenerologiya kafedrasında çalışır, 1991-1993-cü illərdə kafedrada işləməsi ilə eyni zamanda RDZD-də baş həkim vəzifəsində fəaliyyət gös-tərmişdir. 2010-cu ildə F.R. Mahmudov "Генитальный герпес у мужчин в Азербайджане" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. F.R.Mahmudov kafedraya rəhbərlik etməklə kafedradaxili elmi-təcrübi konfransların keçiril-məsini yeniləndirdi, rezidentlərin fəaliyyət dairəsini ge-nişləndirdi. Kafedrada onun rəhbərliyi altında dəri leyşmaniozu, lipoid nekrobiozu, dermatomikozlar, sifilis üzrə elmi-tədqiqat işiləri yerinə yetirilir; latın qrafikalı azərbaycan dilində ilk dəfə - "Venerologiya", "Dermatologiya", rus dilində "Дерматовенерология", ingilis dilində "Venerology" dərslikləri çapdan çıxmışdır və hazırda ingilis dilində "Dermatology" dərsliyi tərtib edilərək çapa verilmişdir.

# İNSAN ANATOMİYASI VƏ TİBBİ TERMİNOLOGİYA KAFEDRASI



100 ildən artıq şərəfli ömür yolu keçmiş İnsan anatomiyası və tibbi terminologiya kafedrası hal-hazırda müasir dövrün tələblərinə yüksək səviyyədə cavab verə biləcək elmi-pedaqoji və maddi- texniki bazaya malik bir elm ocağına çevrilmişdir.

1919-cu ilin 15 sentyabrında yeni təşkil olunmuş Bakı Universitetində fəaliyyət göstərən tibb fakültəsinin nəzdində yaradılmış, 1930-cu ildən isə Azərbaycan Tibb İnstitutu nəzdində (indiki Azərbaycan Tibb Universiteti) fəaliyyət göstərir.

İnsan anatomiyası və tibbi terminologiya kafedrası 1919-cu ildə indiki Bakı Dövlət Universitetinin tibb fakültəsi nəzdində "İnsan anatomiyası" kafedrası adı altında fəaliyyətə başlayıb. Təşkil olunduğu gündən 1920-ci ilə qədər kafedraya Universitetin ilk rektoru və tibb

fakültəsinin Anatomiya kafedrasının ilk kafedra müdiri professor V.İ.Razumovski rəhbərlik etmişdir.



*Prof. V.İ.Razumovski*

V.İ. Razumovski, 1857- ci ildə Samara quberniyasında anadan olmuş, Kazan Universitetinin tibb fakültəsini bitirdikdən sonra Peterburq, Moskva klinikalarında cərrah kimi çalışmışdır. O ,təcrübi təbabətlə yanaşı elmi-pedaqoji sahədə də öz bilik və bacarığını əsirgəməmişdir. Belə ki, V.İ. Razumovski 1909-cu ildə Saratov Universitetini təşkil etmiş, sonra isə Azərbaycana gələrək Bakı Universitetinin təşkilatçılarından biri olmuşdur.

1919-cu il sentyabrın 20-də o, Universitetin Tibb fakültəsinin tələbələri üçün özünün geniş məzmunlu giriş mühazirəsini oxumuşdu. Həmin mühazirənin materialları V.İ. Razumovskinin elmi-pedaqoji fəaliyyətinin 35-illiyi münasibətilə 1923-cü ildə kafedranın o vaxtkı prozektoru C.B.Urusov tərəfindən «Təbabətə və anatomiyaya giriş adı ilə olduğu kimi nəşr edilmişdir.

Ə.e.x., professor V.İ. Razumovski 1919-cu ilin sentyabrından 1920-ci ilin may ayına kimi anatomiya kafedrasına rəhbərlik etmiş və həmin il Saratov tibb institutunun ümumi cərrahlıq kafedrasına qayıtmışdır. O, 1930-cu ilə kimi həmin kafedraya rəhbərlik etmiş və 1935-ci ldə Yesentuki şəhərində dünyasını dəyişmişdir. 1920-ci ilin may ayından mühazirələrin oxunması

kafedranın prozektoru Y. B. Urusova həvalə edildi. 1922-ci il fevralın 21-dən 1926-cı il may ayının 1-nə kimi kafedraya Konstantin Nikolayeviç Malinovski (1876-1926) rəhbərlik etmisdir.

O, 1900-cü ildə Moskva Universitetinin tibb fakültəsini bitirmişdir. 1906-cı ildə "Aşağı ətrafın limfa sistemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, 1922-ci ilə qədər Moskva, Xarkov və Krasnodar şəhərlərində fəaliyyət göstərən tibb institutlarında müxtəlif vəzifələrdə çalışmışdır. K.N.Malinovski, əsil anatom kimi ən mürəkkəb preparatların (o cümlədən embriologiya və müqayisəli anatomiyaya aid), hazırlanmasında şəxsən iştirak etmişdir. Ona görə də istər splanxnologiya, istərsə də müqayisəli anatomiya və embriologiya muzeylərinin təşkili onun adı ilə bağlıdır. K.N. Malinovski qısa, lakin mənalı ömür sürmüşdür. 1926-cı ildə sidikliyin bədxassəli şişindən vəfat etmiş prof. K.N. Malinovskinin meyitinin kremasiya olunmuş külü və sidik orqanlarından hazırlanmış preparat kafedranın muzeyində saxlanılır.



*Prof. K.N.Malinovski*

K.N. Malinovskinin ölümündən sonra kafedraya rəhbərlik N.İ.Anserova (1898-1944) həvalə olundu.



*Prof. N.İ.Anserov*

Nikolay İvanoviç Anserov, 1898-ci ildə Moskva şəhərində anadan olmuş, ruhani seminariyasını bitirdikdən sonra Varşava Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1915-ci ildə Moskva Universitetinə keçərək orada ali təhsilini başa vurmuş və 1918-ci ildən Rostov-Dondakı qadın tibb institutunda assistent, sonralar isə normal anatomiya kafedrasının prozektoru işləmişdir. 1922-ci ildə "Onurğa beyni və hüdudi simpatik kötük qanqlionlarını qidalandıran arteriyaların anatomiyası" mövzusunda dissertasiya müdafiə edərək, dosent, 1925-ci ildə isə professor vəzifəsinə seçilmişdir. O, 1923-1926-cı illərdə Perm, 1926-1937-ci illərdə Azərbaycan tibb institutunun anatomiya kafedrasına, eyni zamanda ayrı-ayrı illərdə Azərbaycan Kənd Təsərrüfatı və Bədən Tərbiyəsi İnstitutunun anatomiya kafedrasına rəhbərlik etmiş, özünü gözəl anatom, təşkilatçı və metodist kimi tanıda bilmişdi.

N.İ.Anserovun yaş anatomiyası, antropologiya, angiologiya və Azərbaycan xalqının antropoloji xüsusiyyətlərinin öyrənilməsi sahəsində çox böyük xidmətləri olmuşdur. N.İ. Anserov 1937-ci ildə Moskva şəhərinə qayıdaraq, üçüncü Moskva tibb institutunun anatomiya kafedrasına rəhbərlik etməyə başlamışdır.

1937-ci ilin avqustundan kafedraya rəhbərlik K.Ə. Balakişiyevə həvalə olundu. 1938-ci ildə isə o, kafedranın müdiri seçildi və ona professor elmi adı verildi.



*Prof. K.Ə. Balakişiyev*

Əməkdar elm xadimi, professor Kamil Əbdülsalam oğlu Balakişiyev, 1906-cı il, sentyabrın 20-də Bakı şəhərində anadan olmuşdur. 1916-cı ilin sentyabrında özəl gim-naziyaya daxil olan K.Ə. Balakişiyev fitri istedadı hesabına səkkiz illik proq-ramı beş ilə başa vuraraq, 1921-ci ildə Bakı Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Elə ilk gündən kafedranın müdiri prof. K.N.Malinovskinin aydın və məzmunlu mühazirələri onun diqqətini cəlb etmişdir. Sonralar anatomiya kafedrası K.Ə. Balakişiyevin "İkinci evinə çevrilmişdir. Gənc azərbaycanlı tələbənin zəhmətsevərliyi, anatomiya elminə olan məhəbbəti prof. K.N. Malinovskinin diqqətindən yayınmadı və 1923-cü ildə o (hələ ikinci kursda oxuyarkən) kafedraya preparator vəzifəsinə götürüldü. Öz müəlliminin tövsiyə və tapşırıqlarını böyük həvəslə yerinə yetirən K.Ə. Balakişiyev üçüncü kursda oxuyarkən I və II kurslarda anatomiyadan təcrübə dərsləri aparmağa başlamışdır. 1926-cı ildə o, tibb fakültəsini əla qiymətlərlə bitirdi və anatomiya kafedrasında prozektor köməkçisi işləməyə başlamışdır. 1930-cu ildə ona privat-dosent, bir il sonra isə dosent vəzifəsi verilmişdir. 1935-ci ildə elmi işlərinin

sayına görə K.Ə. Balakişiyevə tibb elmləri namizədi elmi dərəcəsi verilmişdir. Eyni zamanda K.Ə. Balakişiyev 1926-1927-ci illərdə Bakıdakı Paster adına xəstəxanada həkim köməkçisi, 1927-1928-ci illərdə Xalq Səhiyyə Komissarının müalicəxanasında assistent, 1929-1930-cu illərdə Semaşko adına xəstəxanada akademik M.Topçubaşovun rəhbərliyi altında cərrahiyə üzrə həkim-ekstern kimi fəaliyyət göstərmişdir.

Yorulmaq bilmədən həm pedaqoji, həm də elmi fəaliyyətini davam etdirən K.Ə. Balakişiyev 1936-cı ildə "Sidik kanalı soğanağının Meri və Kuper vəziləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsini qazanmışdır. Ona 1938-ci ildə professor vəzifəsi, 1942-ci ildə isə əməkdar elm xadimi fəxri adı verilir.



K.Ə. Balakişiyev Azərbaycanda anatomiya, histologiya və embriologiya elmi üzrə terminologiyanın pioner-lərindən biridir.

K.Ə. Balakişiyevin rəhbərliyi altında 3 doktorluq və 13 namizədlik dissertasiyası müdafiə olunmuşdur..

Prof. K.Ə. Balakişiyevin vəfatından sonra kafedraya onun tələbəsi prof. G.A.Hacıyev rəhbərlik etməyə başlamışdır. 1944-cü il oktyabrın 1-dən kafedrada baş laborant vəzifəsindən əmək fəaliyyətinə başlamış G.A.Hacıyev (1923 - 1993), professor və kafedra müdiri vəzifəsinə qədər yüksələ bilmişdir. O, 1953-cü ildə "Saidin və əlin dərisinin innervasiyasında iştirak edən sinirlərin anatomiyası" mövzusunda namizədlik, 1968-ci ildə isə «İnsanın yuxarı və bəzi onurğalıların ön ətraflarının dəri sinirləri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Hər iki dissertasiyada müəllif kifayət qədər anatomik və histoloji material tədqiq edərək, insanın yuxarı ətraflarını və bəzi onurğalıların ön ətraflarını innervasiya edən sinirlərin yaş və fərdi xüsusiyyətlərini, innervasiya zonasını, topoqrafiyasını, eləcə də şaxələnmə tiplərini öyrənə bilmişdir.



*Prof. G.A.Hacıyev*




1990-cı ilin iyun ayından 1995-ci ilin aprel ayına kimi kafedraya prof. R.Ə.Əsgərov rəhbərlik etmişdir. O, 1933 il may ayının 11-də Bakıda anadan olmuşdur. 1952-1957-ci illərdə ATİ-nin müalicə-profilaktika fakültəsində təhsil almış və 1953-cü ildə kafedrada laborant vəzifəsində əmək fəaliyyətinə başlamışdır. R.Ə. Əsgərov ayrı-ayrı dövr-lərdə ATİ- nin elmi işlər üzrə prorektoru, operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsində çalışmış və ilk fəhlə fakültəsinin dekanı olmuşdur. Prof. R.Ə. Əsgərov 1963-cü ildə namizədlik ("İnsanın traxeya və bronxlarının innervasiyası"), 1978-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib.



*Prof. R.Ə.Əsgərov*

1995-ci ilin aprelindən kafedraya rəhbərlik tibb elmləri doktoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü V.B.Şadlinskiyə həvalə olundu. Həmin ilin may ayında isə o, müsabiqə yolu ilə kafedra müdiri vəzifəsinə seçildi.



*Akad.V. B. Şadlinski*

V.B. Şadlinski, 1940-ci il, yanvarın 24-də anadan olmuş, V. B. Şadlinski 1963-cü stomatologiya fakültəsinə daxıl olmuşdur.

V.B.Şadlinski 1964-cü ildə ATİ- nin 3 saylı tələbə yataqxanası üzrə tələbə şurasının sədri, 1965-ci ildə fakültə tələbə həmkarlar şurasının sədri, 1966-cı ildə isə İnstitut Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır.

V. B. Şadlinski 1967-ci ildə institut partiya komitəsi bürosunun və Respublika Tibb İşçiləri Həmkarlar İttifaqı Komitəsinin üzvü, həmçinin Ümumittifaq Həmkarlar İttifaqı İşçilərinin X qurultayına nümayəndə seçilmişdir. İctimai fəaliyyəti elmə və təhsilə olan hədsiz sevgi ilə üzvi surətdə birləşdirən V.B. Şadlinski 1970-ci ildən Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasında çalışmağa başlamış, Vətənə və xalqa nümunəvi xidməti ilə bu tədris ocağında professor və kafedra müdiri vəzifəsinə qədər yüksəlmişdir. O, 1988–1991-ci illərdə I müalicə-profilaktika fakültəsinin dekan

müavini, 1992–1994-cü illərdə ATU-nun Həmkarlar - İttifaqı Komitəsinin sədri, 1994–1995-ci illərdə ATU-nun Ümumi işlər üzrə prorektoru, 1996–2001-ci illərdə Tədris işləri üzrə prorektoru vəzifələrində uğurla fəaliyyət göstərmişdir. V. B. Şadlin-ski ATU-nun Böyük Elmi Şurasının üzvü, eləcə də yaradıcısı olduğu Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin sədridir. V. B. Şadlinski ölkəmizdə dərc olunan bir sıra nüfuzlu və beynəlxalq aləmdə tanınmış elmi jurnalların – o cümlədən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Azərbaycan Tibb Jurnalı", Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil" jurnalının, Azərbaycan Tibb Universitetinin "Sağlamlıq" jurnalının Redaksiya şurasının üzvüdür.

1982-ci ildə o, "İnsanın gözyuvasıaltı sinirinin və aşağı alveol sinirinin topoqrafiyası və kötükdaxili quruluşu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. V.B. Şadlinski 1999-cu ilin dekabrında Tbilisi şəhərində müdafiə etdiyi "Norma və zobogen təsir şəraitində qalxanabənzər vəzinin struktur homeostazı və morfofunksional xüsusiyyətləri" adlı doktorluq dissertasiyasında qalxanabənzər vəzin struktur xüsusiyyətlərini müasir morfoloji metodlarla öyrənmişdir. O, ilk dəfə olaraq qalxanabənzər vəzin quruluş vahidini-tireomorfo-kompleksi və qalxanabənzər vəzidə proqramlaşdırılmış hüceyrə olümünü apoptozunu təsvir etmişdir.

Fəaliyyət göstərdiyi zaman ərzində bir cox xarici ölkələrdə keccirilən konfranslarda iştirak və cıxış etmiş və aşağıda sadalanan mükafatlara layiq görülmüşdür:

2000 il - Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar həkim" fəxri adına layiq görül-

müşdür, 2009 il - Türkiyə Respublikası Uluslararası Araşdırmalar Akademiyasının üzvü və həmin akademiyanın qızıl medalına layiq görülüb. 2004 il – Rusiya Tibb Elmləri akademiyasının akademikidir,10.07.2009-Avropa Təbiət Elmlər Akademiyasının həqiqi üzvü seçilib. 2009 il-Avropa Təbiət Elmlər Akademiyasının Rəyasət heyəti tərəfindən Albert Şveytser adına Gümüş medala layiq görülüb, 2010 il - Avropa Elmi Cəmiyyətlərinin Rəyasət heyəti tərəfindən elm sahəsinə avəzsiz töhfəsinə görə Hannover şəhərində Avropanın Fəxri Alimi diplomuna və Robert Kox adına medalla təltif olunmuşdur, 2010 il - Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Əməkdar Elm Xadimi fəxri adına layiq görülüb, 2014 il -Rusiya Elmlər Akademiyasının üzvü seçilmişdir, 23.01.2020 - Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir, 23.01.2020 -"Dədə Qorqud" Milli Fondu tərəfindən "Vətən Övladı" ordeni ilə təltif edilmişdir, 2021-ci il -Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri seçilmişdir, 2022-ci il -Azərbaycan Respublikası Prezideninin sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. 2024 ildən isə Avropa Tibb Elmi Cəmiyyətinin üzvüdir.

V. B. Şadlinski 600-dən artıq elmi əsərin, o cümlədən 18 monoqrafiyanın, 46 dərsliyin,23 tədris-metodik vəsaitin, "İnsan anatomiyası üzrə Atlas"-ın, Azərbaycan,

rus, ingilis və latın dillərində "Anatomik terminologiya"-nın müəllifidir.



2020-ci ildən tibb üzrə fəlsəfə doktoru, dosent Anar Sərdar oğlu Abdullayev kafedra müdiri vəzifəsini icra etmiş, 2022 ci ildən isə kafedraya rəhbərlik edir.



*Dos. A.S.Abdullayev*

Anar Sərdar oğlu Abdullayev “Azərbaycan Anatomiya, Embriologiya və Histologiya Cəmiyyəti”- İctimai Birliyinin, “Sabah qrup-ları” lahiyəsində tədris prosesinə cəlb olunmaq üçün müsabiqə komis-siyasının , 2019-2023-cü illər üçün Azərbaycan Respublikasının ali təhsil sisteminin beynəlxalq rə-qabətliliyinin artırılması üzrə Dövlət Proqramında doktoranturaya qəbul ekspert komissiyasının, Azərbaycan

Tibb Universitetinin nəzdində Dissertasiya işlərinin ilkin sənədlərinin yoxlanılması komissiyasının üzvü və Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən FD2.08 qeydiyyat nömrəli Dissertasiya Şurasının üzvüdir.O, 107 elmi əsərlərin, 8 dərs vəsaitini,2 monoqrafiyanın,1 metodik vəsaitin müəllifidir. Dəfələrlə Azərbaycan respublikası və xarici ölkələrdə keçirilən mötəbər elmi konfranslarda çıxış etmişdir. 2024 –cü ildə "Orhun mübadilə proqramı" çərçivəsində Türkiyyənin Ərzurum şəhərində Atatürk Universitetində mühazirə oxumuş və praktik dərslər aparmışdır.

Hazırki Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının anatomik tədris muzeyi 1919- cu ildə V.İ.Razumovski tərəfindən "Ümumi sümük muzeyi" adı altında təşkil edilmişdir. Bu muzeydə tədris əhəmiyyətinə malik olan sümük preparatları kolleksiyası, həmçinin kəllələr və müqayisəli anatomiyaya aid sümük preparatları toplanılmışdır. O dövrdə tədris muzeyində anatomiyanın digər bölmələri hələ öz əksini tapmamışdır.

1923-cü ildən 1926-cı ilə qədər ki, dövrdə muzeyin daxili orqanlar və embriologiya ilə birlikdə müqayisəli anatomiya şöbələri yaradılmışdır. Muzeyin bu şöbələrinin yaradılmasına 1922-1926-cı illərdə Bakı Universitetinin tibb fakultəsinin normal anatomiya kafedrasına rəhbərlik edən professor K.N.Malinovski böyük əmək sərf etmişdir.

1937-ci ildən başlayaraq professor K.Ə.Balakişiyevin rəhbərliyi ilə anatomiya muzeyi intensiv surətdə böyüməyə başladı və yeni preparatlarla zənginləşdirildi.

Həmin dövrdə osteologiya, artrologiya ilə yanaşı miologiya, angiologiya və duyğu orqanları ilə birlikdə sinir sistemi muzeyi yaradıldı. Muzeyin daxili orqanlar və embriologiya ilə birlikdə müqayisəli anatomiya şöbələri yeni preparatlarla tamamlandı və fundamental muzey təşkil edildi. Fundamental muzeydə elmi-tədqiqat işlərinin, o cümlədən dissertasiya işlərinin materialları saxlanılırdı.

1995-ci il həm Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminologiya kafedrasının, həm də anatomiya muzeyinin fəaliyyətində dirçəlişə doğru dönüş mərhələsinin başlanğıcını təşkil etmiş, bu ildən etibarən kafedraya rəhbərlik etməyə başlayan professor V.B.Şad--linski kafedranın əməkdaşları ilə birlikdə muzeyin yendən qurulmasında əhəmiyyətli rol oynamışdır. "Dayaq-hərəkət aparatı", "Daxili orqanlar", "Sinir sistemi", "Qan-damar sistemi", "Anomaliya və eybəcərliklər" tədris muzeyləri səliqə ilə saxlanılır, preparatlar yenilənir, onlara qayğı ilə yanaşılır və tələbələrin istifadəsinə verilir.

# KLİNİKİ FARMAKOLOGİYA KAFEDRASI



Klinik farmakologiya kafedrası Tibb Universitetinin nisbətən cavan kafedrasıdır. Bu fənn üzrə məşğələlər 90-cı illərin əvvəllərində daxili xəstəliklər kafedralarında tədris edilirdi. 1992-ci ildə I daxili xəstəliklər kafedrasının nəzdində klinik farmakologiya kursu təşkil edilmişdir. 1993-cü ildə isə ATU-nun Elmi Şurası Klinik farmakologiya kursunun sərbəst kafedraya çevrilməsi haqqında qərar çıxarmışdır. Kafedranın müdiri prof. A.B.Baxşəliyev təyin olunmuş və o, 1993-cü ildən kafedraya rəhbərlik edir. Kafedra yarandığı vaxtdan M.Məlikov adına 6 saylı BŞKX-nın bazasında fəaliyyət göstərmiş, 2007-ci ildən isə C.M.Abdullayev adına ET Kardiologiya İnstitutunun nəzdində fəaliyyətini davam etdirmiş, 2011-ci ildən etibarən isə ATU TTK-da fəaliyyət göstərir. 1996-cı ildə M.Mirqasımov adına Respublika klinik xəs-

təxanasının bazasında kafedranın filialı yaradılmışdır. İlk illər ərzində kafedrada klinik farmakologiya fənni müalicə-profilaktika və pediatriya fakültəsinin tələbələrinə tədris edilirdi. 1995-ci ildə tibbi-biologiya və əczaçılıq fakültələrinin, 1997-ci ildə stomatologiya, 2004-cü ildən hərbi-tibbi fakültəsinin tələbələri tədrisə cəlb edilmişdir. 2014-2015-ci tədis ilindən isə farmakoterapiya seçim fənni kimi VI kurs müalicə profilaktika fakultəsi tələbələri üçün tədris olunur.Kafedranın fəaliyyətdə olduğu müddətdə burada 15 t.ü.f.d , 2 doktorluq dissertasiyası işlənmiş, hazırda 6 t.ü.f.d, 1 t.e.d. üzərində iş aparılır. Kollektivdə 4 elmlər doktoru, 4 dosent, 2 assistent , 2 baş laborant (onlardan biri həmçinin doktoranturada təhsil alır) və 2 doktorant çalışır. Kafedranın əməkdaşları son illərdə bir neçə tədris vəsaiti və dərsliklər yazıb çap etdirmişlər. Bunlara «Antiaritmik vasitələr, ürək qlikozidləri (A.B.Baxşəliyev, 1993), «Hipotenziv dərman maddələri» (A.B.Baxşəliyev, F.İ. İbrahimli və həmm., 1995), «Klinik farmakologiya» (A.B.Baxşəliyev 2018) və Arterial Hipertenziya-müalicənin taktika və strategiyası (Quliyeva S.Ş.-2014) , Müxtəlif fizioloji vəziyyətlərin və dövrlərin farmakoterapiyasının əsasları( Bəydəmirova Arzu Arif qızı, Baxşəliev Adil Baxşəli oğlu) , Clinically Pharmacology - 2022 (dərslik) , Ürək qan damar xəstəliklərinin farmakoterapiyası s. misal ola bilər.


*Prof. A.B.Baxşəliyev*

Kafedranın müdiri prof. A.B.Baxşəliyev 1993-1998-ci illərdə Respublika Farmakoloji Komitəsinin sədri, 1997-2018 ci illərdə C.Abdullayev ad. ETKİ-nun direktoru vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Kardioloq-lar Cəmiyyətinin təsisçi üzvü, Dissertasiya üzrə ixtisas-laşmış şuranın üzvü, ATU-un elmi şurasının üzvüdür. Kafedra əməkdaşlarından dos .t.ü.f.d A.A.Bəydəmirova 2017-ci ildən ATU-nun II Müalicə Profilaktika fakül-təsinin dekan müavini vəzifəsində , prof.t.e.d. Y.Q. Nağıyev 2019 -cu ildən ARSN –nin Baş Kardioloqu vəzi-fəsində çalışır. Assistent B.A.Əliyeva 2000-ci ildən hal hazıra qədər kafedra müdirinin tədris hissə üzrə köməkçisi vəzifəsini yerinə yetirir.

Kliniki farmakologiya kafedrasınım müdiri prof. A.B. Baxşəliyevin rəhbərliyi altında 45 t.ü.f.d, 2 doktorluq dissertasiyası işlənmiş, («Yeni dərman preparatlarının təyini əsasında hipertoniya xəstəliyi və ürəyin işemik xəstəliyinin müalicəsinin optimallaşdırılması (AÇFİ, AT-II blokatorları, β-AB)» , «Metabolik sindromun AH və ÜİX –in klinik gedişatı, təsadüf etmə tezliyi və müalicəsinin optimallaşdırılması»,” Ü.İ.X. zamanı xəstə-lərdə rast gəlinən hormonal disbalansın xəstəliyinin kliniki gedişinə, rastgəlmə tezliyinə ‚proqnozuna və onun medikamentoz korreksiyasının optimallaşdırılması“ bunlardan 18 t.ü.f.d və iki doktorluq dissertasiyası son 10 ilə aiddir. Hal hazırda isə 3 tibb üzrə fəlsəfə doktoru dissertasiyası üzərində iş aparılır ki, bunlardan 1-nə şəxsən rəhbərlik edir. 336 məqaləsi və tezisi var.

Kafedra əməkdaşları tərəfdən ümumilkdə 411 elmi məqalə və tezis çap olunmuşdur ki, bunlardan 32-i ( 12-i

xarici 20 –i yerli jurnallarda) sonuncu 5 ilə aiddir. 2016-2020-ci il üçün ”Kardiovaskulyar sistemin xəstəliklərində endotelial disfuksiya zamanı miokardın və magistal damarların morfofunksional dəyişikliklərinin və hipoksemik vəziyətlər zamanı iltihab göstəricilərinin diaqnostik və müalicə prospektivlərinin öyrənilməsi” mövzusunda elmi işi planlaşdırılmış və təsdiqlənmiş, kafedrada bu mövzu ətrafında elmi məqalələr və tezislər əməkdaşlar tərəfindən xarici və ölkə mətbuatında dərc edilib.
2021-2025-ci il üçün ”Bəzi ürək-damar(HX, ÜİX, XÜÇ), AXOX-də polimorbidliyin patogenetik xüsusiyyətlərinin tədqiqi və farmakoterapiyasının optimallaşdırılması” mövzusunda elmi işi planlaşdırılmış və təsdiqlənmiş, hal hazırda kafedrada bu mövzu ətrafında elmi məqalələr və tezislər əməkdaşlar tərəfindən xarici və ölkə mətbuatında dərc edilir.

# MƏHKƏMƏ TƏBABƏTİ KAFEDRASI




Azərbaycanda meyit ilk dəfə Mirzə Məhəmməd İbn Əbdül Əbur Təbrizi Qobolli tərəfindən XIX əsrin əvvəllərində müayinə olunuraq sənədləşdirilmişdir. Digər ölkələrlə müqayisədə Azərbaycanda XX əsrə qədərki dövrlərdə məhkəmə tibbi elmi və məhkəmə-tibbi ekspertiza xidməti haqqında məlumatlar demək olar ki, yox dərəcəsindədir.

Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər məhkəmə tibbi ekspertizasının təşkili Rusiya İmperiyasının qanunlarına əsasən aparılırdı.

Belə ki, 1920-ci ilə qədər Azərbaycanda məhkəmə-tibbi ekspertiza xidməti bir təşkilat kimi fəaliyyət göstərməmişdir. Məhkəmə-tibbi müayinələri polis həkimləri aparırdılar. Hadisələrin əksəriyyətində meyitlər tam müayinədən keçirilmir, meyitlərin yalnız xarici müayinəsi aparılırdı. Bununla belə, bizim əldə etdiyimiz arxiv sənədlərindən məlum olur ki, hələ 1915-ci ildə

Azərbaycanda – Bakının Mixaylov (indiki Hacıqasımov adına 1 saylı doğum evi) xəstəxanasında meyitlərin müayinəsi üçün xüsusi təşrih otağı ayrılmışdı.



Həmin otaqda meyitlərin müayinəsini aparmaqdan ötrü o zaman üçün lazimi şərait yaradılmışdı: təşrih masası, təşrih üçün alətlər, süni işıqlandırma və s. Meyitlərin müayinəsi əsasən təbii işıqda aparılırdı. Bu mümkün olmadıqda, süni işıqlanmadan da istifadə edilirdi.



*Prof. İ.M.Leplinski*

Azərbaycanda məhkəmə tibb elminin və məhkəmə-tibb ekspertizasının yaranması və milli həkim mütəxəssislərdən məhkəmə-tibbi ekspert kadrlarının hazırlanması 1920-ci ildə Bakı Dövlət Universitetinin (o zaman ADU) tibb fakültəsi nəzdində məhkəmə təbabəti kafedarısının təşkil edilməsi ilə bir vaxta düşür. İlk vaxtlar kafedraya rəhbərlik Mixaylov (indiki Hacıqasımov adına 1 saylı doğum evi) xəstəxanasının prorektoru İ.M.Leplinskiyə həvalə olunmuşdur.

1922-ci ildə məhkəmə təbabəti kafedrasına müvəqqəti olaraq Şimali Qafqaz Universitetinin professoru A.İ. Şibko rəhbərlik etmişdir. 1922-1928-ci illərdə kafedraya rəhbərlik yenidən İ.M.Leplinskiyə tapşırılmışdır. O, həmçinin 1924-cü ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tərəfindən təsis edilmiş Səhiyyə Komissarlığının ilk Baş məhkəmə-tibb eksperti olub, bu vəzifəni 1928-ci ilə qədər icra etmişdir. 1926-cı ildə Azərbaycan SSR Xalq Komisarları Soveti məhkəmə-tibbi ekspertiza xidmətini daxili işlər orqanlarının tabeçiliyindən çıxararaq, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının tabeçiliyinə vermişdir.

İ.M.Leplinskinin vəfatından sonra, yəni 1928-ci ildə patoloji anatomiya kafedrasının müdiri İ.İ.Şirokoqorov eyni zamanda məhkəmə təbabəti kafedrasına rəhbərlik etmişdir. 1928-1929-cu illərdə Azərbaycanda məhkəmə-tibbi ekspertiza xidmətinə K.İ.Tatiyev rəhbərlik etmişdir. Onun 1928-ci ildə «Meyitin tapıldığı yerdə ilkin müayinəsi» adlı dərs vəsaiti çap olunmuşdur. Sonralar K.İ.Tatiyev məhkəmə təbabəti kafedrasında assistent, dosent vəzifələrində işləmiş, doktorluq dissertasiyası müdafiə edib, 1938-ci ildə kafedra müdiri vəzifəsinə seçilmişdir. Həmin il o, müsabiqədə iştirak edib Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun məhkəmə təbabəti kafedrasının müdiri vəzifəsinə seçilərək Moskva şəhərinə köçmüş və ömrünün sonunadək (1963) həmin kafedraya rəhbərlik etmişdir.

1929-cu ildən 1948-ci ilə qədər Azərbaycanda məhkəmə-tibbi ekspertiza xidmətinə və məhkəmə təbabəti kafedrasına professor V.A.Rojanovski (1874-1949)

rəhbərlik etmişdir. Onun 1935-ci ildə «Məhkəmə tibbi kursu» adlı dərs vəsaiti nəşr olunmuşdur. Bundan başqa, V.A.Rojanovski «Rusiyada inqilaba qədər və SSRİ-də məhkəmə-tibbi ekspertiza» adlı monoqrafiyanın müəllifidir. 1948-ci ildə prof.V.A.Rojanovski Leninqrad şəhərinə köçmüş və 1-ci Leninqrad İnstitutunun məhkəmə təbabəti kafedrasının müdiri vəzifəsini icra etmişdir.

Bu illər ərzində məhkəmə təbabəti sahəsində ilk azərbaycanlı alim M.Ə.Qənbərov 1934-cü ildə «Cinsin qana görə təyini» mövzusunda, Y.A.Dasayev isə həmin ildə «Yaşın təyinində tüklərin rolu» mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşlər.

1941-ci ildə məhkəmə təbabəti kafedrasının assistenti vəzifəsinə ilk qadın müəllim və həmçinin məhkəmə-tibb eksperti kimi fəaliyyətə başlayan azərbaycanlı qadın Zülfiyyə İmanverdi qızı Adıgözəlova seçilmişdir.

1947-ci ilə qədər Azərbaycanda şəhər və rayon məhkəmə-tibb ekspertləri səhiyyə şöbəsi müdirlərinin tabeçiliyində idi. 1947-ci ildə SSRİ Səhiyyə Nazirliyi məhkəmə-tibb ekspertizası xidmətinin yeni ştat normativini təsdiq etdi və 1948-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin əmri ilə Respublika «Məhkəmə-tibbi ekspertiza bürosu» təşkil edildi. Bununla şəhər, rayon və rayonlararası məhkəmə-tibb ekspertləri müvafiq şəhər, rayon səhiyyə şöbə müdirlərinin tabeçiliyindən çıxarılıb Səhiyyə Nazirliyinin Baş məhkəmə-tibb eksperti vəzifəsini icra edən «Məhkəmə-tibbi ekspertiza bürosu»nun rəisinə tabe edildi.

1948-ci ildə yeni yaradılmış «Məhkəmə-tibbi ekspertiza bürosu» nun rəisi və Səhiyyə Nazirliyinin Baş məhkəmə-tibb eksperti vəzifəsinə Y.N.Semyonov (1907-1970) təyin edilmiş və 1967-ci ilə qədər bu vəzifələrdə çalışmışdır.



*Prof.Y.N.Semyonov*



*Prof. Ə.Ə.Sultanov*

1948-1949-cu illərdə məhkəmə təbabəti kafedrasına Y.A. Dasayev (1896-1957), 1950-ci ildən 1970-ci ilə qədər isə normal anatomiya kafedrasının professoru, əməkdar elm xadimi Ə.Ə.Sultanov (1903-1970) rəhbərlik etmişdir.

1960-cı ildə məhkəmə təbabəti kafedrasında prof. Ə.Ə.Sultanovun elmi rəhbərliyi altında ilk azərbaycanlı qadın alim Əxirə İbrahim qızı Bağbanzadə (1926-1972) «Çanaq sümükləri xəsarətlərinin xarakterinin avtomobil nəqliyyat vasitələrinin təsir me-xanizmindən asılılığı» mövzu-sunda dissertasiya işini müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görül-müşdür. 1961-ci ildə o, kafed-ranın assistenti, 1968-ci ildə baş müəllim, 1970-ci ildən isə kafed-ranın dosenti vəzifəsində çalışmışdır.



*Dos.Ə.İ.Bağbanzadə*

1967-ci ildən Səhiyyə Nazirliyinin Baş məhkəmə-tibb eksperti, «Məhkəmə-tibbi ekspertiza bürosu»nun rəisi vəzifəsinə professor Ə.R.Atakişiyev (1925-1996) təyin edilmişdir.

1970-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun məhkəmə təbabəti kafedrasının müdiri vəzifəsinə dosent Ş.A.Səlimxanov (1923-2008) seçilmişdir. 1980-ci ildə isə o, Səhiyyə Nazirliyinin Baş məhkəmə-tibb eksperti və «Məhkəmə-tibbi ekspertiza büro»sunun rəisi vəzifəsinə təyin edilmiş və bu vəzifələrdə 1985-ci ilə qədər çalışmışdır. 1981-ci ildə Ş.A.Səlimxanova professor elmi adı verilmişdir. 1972-ci ildə onun ilk dəfə Azərbaycan dilində nəşr olunan və öz orijinallığı ilə fərqlənən «Məhkəmə təbabəti» dərsliyi çapdan çıxmış, 1992-ci ildə prof.Ş.A.Səlimxanov həmin dərsliyin bəzi fəsillərini yenidən işləmiş və əlavələr edərək yenidən nəşr etdirmişdir. Bundan əlavə, prof. Ş.A.Səlimxanov 78-dən çox elmi əsərin, o cümlədən, tüklərin müayinəsinə dair ixtira və 5 səmərələşdirici təklifin müəllifidir. O, həkimlər və tələbələr üçün 5 tədris və tədris-metodik vəsait nəşr etdirmişdir. Bunlardan «Bədən xəsarətlərinin ağırlıq dərəcəsinin təyini» (prof. R.M Yusifli ilə birlikdə), «Meyitlərin məhkəmə-tibbi müayinəsi», «Meyitin tapıldığı yerin müayinəsi», «Yanmış meyitlərin ekspertizası», «Meyitin məhkəmə-tibbi ekspertizasının (müayinəsinin) sənədləşdirilməsi və ölüm haqqında həkim şəhadətnaməsinin tərtib edilməsi»ni göstərmək olar.



Prof. Ş.A.Səlimxanov

Prof. Ş.A.Səlimxanovun pedaqoji fəaliyyətində əsas yerlərdən birini mühazirələrin aparılması tutur. Çoxillik pedaqoji fəaliyyəti, dərin nəzəri biliyi və məhkəmə-tibbi ekspertiza ilə mütəmadi əlaqəsi ona mühazirələri və eləcə də təcrübi məşğələləri böyük pedaqoji ustalıqla və yüksək elmi səviyyədə apar-mağa imkan verirdi.

Milli kadrların hazırlanmasında da prof. Ş.A.Səlimxanovun rolu olduqca böyükdür. Məhz prof. Ş.A.Səlimxanovun elmi rəhbərliyi altında R.Yusifli 1977-ci ildə Moskva şəhərində «İnsan tüklərinin bəzi xüsusiyyətlərinin dəniz suyunun təsirindən, mövsümdən və temperaturdan asılı olaraq dəyişilməsinin dinamikada tədqiqi» mövzusunda namizədlik dissertasiya müdafiə etmişdir.

1985-ci ildə «Məhkəmə-tibbi ekspertiza bürosu»nun rəisi, Səhiyyə Nazirliyinin Baş məhkəmə tibb eksperti vəzifəsinə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu məhkəmə təbabəti kafedrasının dosenti Yusifli Rafiq Mirzə Bala oğlu (1947-2003) təyin edilmiş və bu vəzifələrdə işin keyfiyyətinin yaxşılaşdırılması üçün bir çox konstruktiv və təşkilati tədbirlər həyata keçirmişdir.



Prof.R.M.Yusifli

1985-ci ilin dekabr ayında R.M.Yusifli Moskva şəhərində «Tük xəstəlikləri məhkəmə-tibbi baxımdan» mövzusunda doktorluq dissertasiyası müdafiə edib, Respublikada məhkəmə tibbi sahəsində ilk azərbaycanlı elmlər doktoru olmuşdur. 1988-ci ildə ona professor elmi adı verilmişdir.



1988-ci ildə respublikamızda patoloji anatomiya xidmət sahəsinin fəaliyyətini yüksəltmək, patoloji anatomiya və məhkəmə tibbi elm-lərini yaxınlaşdırmaq məqsədilə R.M.Yusiflinin şəxsi təşəbbüsü ilə məhkəmə-tibbi ekspertiza və patoloji ana-tomiya xidmət sahələri birləşdirilərək, analoqu ol-mayan elmi-təcrübi və tədris



birliyi yaradılmış, R.M. Yusifli birliyin Baş direktoru vəzifəsinə təyin edilmiş və 1992-ci ilin noyabrından, 1993-cü ilin dekabr ayınadək dövr istisna olmaqla, 1997-ci ilin avqust ayınadək Birliyin Baş direktoru və Səhiyyə Nazirliyinin Baş məhkəmə-tibb eksperti vəzifəsini icra etmişdir.

2000-ci ildə prof.R.M.Yusifliyə «əməkdar elm xadimi» fəxri ad verilmişdir.1992-ci ildən başlayaraq birliyin bəzi əməkdaşları – Ş.Musayev, M.Bünyatov, İ.Məmmədov, V.Məmmədov, Ə.Baxışov, V.Məmmədyarov, Ə.Qasımov və digərləri ikinci ali təhsilə - hüquq təhsilinə yiyələn-mişdirlər. 1994-cü ildə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkim-ləri Təkmilləşdirmə İnstitutunda «məhkəmə təbabəti və patoloji anatomiya» kursu yaradılmışdır. 1998-ci ildə bu kursun bazasında «məhkəmə təbabəti, hüququn əsasları və patoloji anatomiya kafedrası» fəaliyyətə başlamışdır.


*Prof.* M.O.Bünyatov

Prof. M.O.Bünyatov 1998-ci ildən 2016-cı ilə qədər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya" Elmi Təcrübi və Tədris Birliyinin Baş direktorunun ekspertiza işl-əri üzrə müavini vəzifəsində çalışıb. O, həmçinin 2004-cü ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Baş məhkəmə tibb eksperti vəzifəsinə təyin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əli-yevin sərəncamı ilə 2010-cu il tarixində prof. M.O. Bunyatova "Əməkdar müəllim" fəxri adı verilmişdir. 120 elmi işin müəllifidir, bun-lardan 1-i tələbələr üçün dərslik, 2-si tədris vəsaiti, 1-i ixtira, 1-i səmərələşdirici təklifdir. Hal-hazırda prof. M.O.Bünyatovun rəhbərliyi altında məhkəmə tibbi travmatologiya sahəsində bir çox elmi tədqiqat işləri aparılmaqdadır.

I Müalicə-Profilaktika Fakültəsi

# NEVROLOGİYA KAFEDRASI




Nevrologiya Azərbaycanda ilk inkişaf etmiş kliniki fənnlərdən biridir. Onun tarixi 1920-ci ildə BakıDövlət Universitetinin Tibb fakültəsinin bazasında təməli məşhur neyrogenetik alim, akademik S.N.Davidenkov (1880-1961) tərəfindən qoyulan psixonevrologiya kafedrasından başlayır. Respublikada Nevrologiyanın əsaslı inkişafı Azərbaycan Dövlət Tibb İnstitutunun sinir xəstəlikləri kafedrasının adı ilə bağlıdır. Belə ki, artıq 30-cu illərdə yüksək ixtisaslı nevroloqlar yetişmişdir ki, onların arasında milli kadrlar da az olmamışdır: M.M.Amosov, A.V.Feyzullayev, M.M.Məlikov, C.B. Mustafayev, S.H.Axundov, Q.X.Yaqubova və b. Bununla yanaşı praktiki fəaliyyət göstərən çoxsaylı həkim-nevroloqların da hazırlanmasına nail olunmuşdur. Kafedra


*Akad.S.N.Davidenkov*

yarandığı gündən indiyə kimi Respublikada nevrologiyanın əsas kliniki, elmi və pedaqoji mərkəzidir.

1946-1948-ci illərdə görkəmli klinisist və mühazirəçi alim, professor M.M.Məlikov kafedranın rəhbəri olmuşdur. M.M.Məlikov 1937-ci ildə“Böyüklərdə kəskin, yarımkəskin və xroniki poliomielit” adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. O, həmçinin baş beynin iltihabi xəstəliklərini, malyariya zamanı sinir sisteminin dəyişikliklərini, sinir sisteminin degenerativ xəstəlikləri və travmatik zədələnmələrə aid elmi axtarışlar aparmışdır.



*Prof.A.V.Feyzullayev*

Kafedraya 1949-1962-ci illərdə orijinal yaradıcı düşüncəyə və böyük klinik təcrübəyə malik olan pedaqoq alim A.V .Feyzullayev rəhbərlik etmişdir. Həmin illərdə neyroinfeksiya, baş beynin damar pozulmaları, eləcə də sinir sistemi xəstəliklərinin yerli kurort amilləri ilə müalicə məsələləri dərindən öyrənilmişdir. Professor A.V.Feyzullayevin “Beyində patoloji proseslər zamanı arxaik pəncə, onun genezi və lokalizasiyası” müvzusunda doktorluq dissertasiyası, “Görmə sinirinin atrofiyası zamanı görmə mərkəzlərinin dəyişilməsinə dair” və “Beyincik şişlərinin simptomatika və diaqnostikası” adlı əsərlərin müəllifidir. O, həmçinin 1952-1957-ci illər ərzində Kurortologiya və fiziki müalicə üsulları Elmi Tədqiqat İnstitutunun nevrologiya şöbəsinə rəhbərlik edib. Azərbaycanda nevro-

logiya məktəbinin yaradılması və inkişafında onun böyük xidmətləri vardır.1960-cı illərdə professor elmi dərəcəli kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun rəhbərliyi altında 2 doktorluq və 16 namizədlik dissertasiyası müdafiə edilmişdir. Professor A.V.Feyzullayev 1949-1962-ci illər ərzində Azərbaycan nevroloqlarının və psixiatrlarının elmi cəmiyyətinin sədri olmuşdur. A.V. Feyzullayevə 1940-cı ildə "əməkdar həkim", 1960-cı ildə isə "əməkdar elm xadimi" fəxri adları verilmişdir.



*Prof. Z.M.Salayeva*

1963-1967-ci illərdə kafedraya tanınmış klinisist və pedaqoq S.H.Axundov rəhbərlik etmişdir. İncə kliniki müşahidə qabiliyyəti, diaqnost istedadı və aktiv yaradıcılıq fəaliyyəti olan alim epilepsiya, neyrocərrahiyə və neyroonkologiya problemlərinin üzərində məhsul-dar işləmişdir. O, 1952-ci ildə "Hidrosefaliyanın müalicəsi zamanı dördtəpəli cisim nahiyəsində cərrahi əməliyyat" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Onun rəhbərliyi altında 2 doktorluq və bir çox namizədlik dissertasiyaları müdafiə olunmuşdur. 1964-cü ildə professorun "Onurğa beyni və onurğa sütunu şişlərinin klinikası, diaqnostikası və müalicəsi" və 1965-ci ildə "Arxa kəllə çuxuru şişlərinin klinikası" mövzusunda yazılan monoqrafiyaları dərc olunmuşdur. O, 65 elmi işin,

5 monoqrafiyanın müəlli-fidir. 1967-ci illərdən 1989-cu ilədək sinir xəstəlikləri kafedrasına əməkdar elm xadimi, professor Z.M.Salayeva rəhbərlik etmişdir. O, 1963-cü ildə Tiflisdə“Hemorragik ensefalitin klinikası və patomorfologiyası” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Professor 150 elmi məqalənin,“Ensefalitlər” və “Beyin damar-larının xəstəlikləri və profilaktikası” adlı elmi əsərlərin, “Azərbaycanda hemorragik ensefalit”adlı monoq-rafiyanın , “Nevrologiyadan praktikum” və “Sinir xəstəlikləri”adlı dərslik və dərs vəsaitlərinin müəllifidir. Onun rəhbərliyi altında 3 doktorluq və 9 namizədlik dis-sertasiyası yerinə yetirilmişdir.Professor Z.M.Salayeva dəfələrlə ümumitfaq nevropatoloqlar və psixiatrlar elmi cəmiyyətin rəyasət heyətinin üzvü seçilmiş, “Böyük Tibbi Sovet Ensiklopediyası”nın redaktorlarından biri, “Nevro-patologiya və psixiatriya” jurnalının, ”Azərbaycan Sovet Ensiklopediyası”nın redaksiya heyətlərinin, Azərbaycan elmlər akademiyasının terminoloji bölməsinin üzvü, Respublikanın Tibbi genetika cəmiyyətinin sədri olmuş-dur. Əməkdar elm xadimi Z.M.Salayeva VII çağırış



(1966-1970) keçmiş SSRİ Ali Sovetinin deputatı olmuşdur.


*Prof. Y.M. Yunusov*

Tanınmış nevroloq Y.M. Yunusovun (1927-1983) el-mi və pedaqoji fəaliyyətini qeyd et-mək təqdirə layiqdir. O, kafedrada ordinatordan professoradək uzun yol keşmişdir. Onun elmi marağı neyrosifilis və neyrotravma istiqamətinə yönəlmişdir.

Qeyd etmək lazımdır ki, həmin illərdə dosentlər R.K. Şirəliyeva, S. S.İmanova, E.A.Feyzullayev,Y.L. Qorbulev, F.M.Gözalova, Q.D.Məmmədov, N.Ə. Quluzadə, F.N. Məmmədbəyov kafedrada elmi-pedaqoji işlər aparıblar. Onların tədqiqatları əsasən beyin qan dövranının pozulması, periferik sinir sisteminin, sinir-əzələ xəstəliklərinin və dağınıq sklerozun müxtəlif aspektlərinə aid olub.


*Prof. T.Q.Qədirova*

Azərbaycan Tibb Universitetində 1969-cu ildə təşkil olunan Uşaq nevrologiyası kursu 1975-ci ildən II Sinir xəstəlikləri kafedrası və kimi fəaliyyətini davam etdirmişdir. Uşaq nevrologiyası kafedrasının və ümumiyyətlə Respublikada uşaq nevroloji xidmətinin yaradıcısı, əməkdar elm xadimi professor Törə Qədir qızı Qədirova olmuşdur. O, Leninqrad şəhərində 1959-cu ildə "Leykozlarda sinir sisteminin patologiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Onun tədqiqatları əsasən

beyin-qan dövranının pozulması ilə əlaqədar olan xəstəliklərin diaqnostika və müalicəsinə, neyrohematologiya və neyroinfeksiya problemlərinə həsr edilmişdir. Professor T.Q.Qədirova 150 elmi əsərin, bir çox monoqrafiyaların ("Leykozlar və sinir sistemi", "Azərbaycan nevrologiyanın tarixi inkişaf mərhələləri","Azərbaycanda neyroinfeksi epidemiologiyası", "Uşaqlarda beyin hipoksiyası", "Hidrosefaliya və timomeqaliya"), "Sinir xəstəlikləri" və "Uşaq sinir xəstəlikləri" dərsliklərinin müəllifidir. Professor T.Q.Qədirovanın rəhbərliyi altında 17 namizədlik dissertasiyası müdafiə edilmişdir.



*Prof. Ş.İ.Mahalov*

1991-ci ildə ATU-da I və II Nevrologiya və tibbi genetika kafedraları fəaliyyət göstərməyə başlayıb. Həmin ildən ATU-nun I Nevro-logiya və tibbi genetika kafedrasına əməkdar həkim, əməkdar elm xadi-mi, professor Ş.İ.Mahalov rəhbərlik edir.

Ş.İ.Mahalov 1987-ci ildə 2-ci Moskva Dövlət Tibb İnstitutunda "Sinir və sinir-əzələ sistemlərinin irsi xəstəliklərinin fenotipik polimorfizmi və epidemiologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Professor Ş.İ.Mahalovun elmi maraq dairəsi çoxşaxəlidir və onun fəaliyyətinin elmi istiqamətinin əsasını neyrogenetika, epilepsiya və baş beynin damar xəstəlikləri təşkil edir. Kafedrada beyin insultu, sinir sisteminin irsi-degenerativ xəstəlikləri, neyrotravma, neyroinfeksiya öyrənilmiş və dissertasiya işləri yerinə yetirilmişdir. Ş.İ.Mahalov Azərbaycanda sinir və sinir-əzə-

lə sistemlərinin irsi xəstəliklərinin klinikasını, epidemiologiyasını, genetikasını, biokimyasını və neyrofiziologiyasını öyrənmişdir. Onun elmi əsərlərində Hantinqton xəstəliyi, spinoserebellyar ataksiya və nevral amiotrofiyadan əziyyət çəkən unikal ailələr, sinir sisteminin irsi xəstəliklərinin nadir formaları və variantları təsvir olunmuşdur.Professor Ş.Mahalov 10 mindən çox insan haqqında məlumat toplamışdır. Həcminə və dərinliyinə görə professor Ş.İ.Mahalovun sinir sisteminin irsi xəstəliklərinin öyrənilməsi sahəsində apardığı tədqiqatların keçmiş SSRİ-də analoqu olmamaşdır. Mütəxəssislər etiraf edirlər ki, çox nadir hallarda dünyada bir tədqiqatçının əlində bu qədər tutarlı material olur. Onun tərəfindən Hantinqton xəstəliyində hiperkinetik pozulmalar ilə dofaminin konsentrasiyası arasında əks korrelyasiya aşkar edilmiş və bunun dofamin mübadiləsinin pozulması ilə əlaqəli olduğu güman edilən patogenetik mexanizmlər olması haqqında əsaslandırılmış hipotez irəli sürülmüşdür.

Professor Ş.İ.Mahalov ilk dəfə olaraq Hantinqton xoreyası və spino-serebellyar ataksiyası olan xəstələrin qohumlarını müayinədən keçirərək sübut etmişdir ki, elektromioqrafiya və elektroneyromioqrafiyada alınan dəyişikliklər xəstəliyin kliniki təzahürlərinin üzə çıxmasını qabaqlayır.

Professor Ş.İ.Mahalov Azərbaycanda angionevrologiyanın da inkişafına xüsusi diqqət yetirir. Onun rəhbərliyi altında insultun yayılması, onun əsas risk faktorları, kliniki təzahürləri və strukturu, biokimyəvi dəyişikliklər, hemorragik transformasiya, insultdan sonrakı əlillik (Ələkbərova S.P., Bədəlova Ü.T., Musayeva A.Ə.) öyrə-

nilmiş və bu sahədə t.ü.f.d. dissertasiyaları müdafiə olunmuşdur.

Keçən əsrin 90-cı illərində Azərbaycanda müharibə nəticəsində Qarabağ regionunda çoxlu sayda uzun müddət müalicə tələb olunan yaralılar və kontuziya almış əsgərlər var idi. Professor Ş.İ.Mahalovun rəhbərliyi altında Qarabağ müharibəsini keçmiş şəxslərdə dəyişiklik- "posttravmatik stress sindromu" aşkar edildi (Paşayeva T.). Bu sindrom "Qarabağ sindromu" kimi səciyyələndirmişdir.

Bunula yanaşı, Ş.İ.Mahalovun rəhbərliyi altında həm də müxtəlif növ hepatitlər zamanı sinir sistemində gedən dəyişikliklər haqqında elmi-tədqiqat işləri aparılıb (Məmmədova T.Ş.). 1995-ci ildə kafedrada "Dağınıq sklerozun diaqnostikası və patogenetik mexanizmləri" ad--lı doktorluq dissertasiyası müdafiə edilmişdir (R.K. Şirəliyeva).

II Nevrologiya və tibbi genetika kafedrasına 1991-ci ildən professor Zakir Məmməd oğlu Əliyev rəhbərlik etmişdır. Z.M.Əliyev 1987-ci ildə Moskvada "Uşaqlarda qapalı kəllə-beyin travması sindromlarının dinamikası" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir.

1990-2010-cu illərdə kafedranın əsas elmi-tədqiqat problemi "Perinatal patologiyanın müxtəlif aspektləri" olmuşdur. Həmin illərdə 3 dissertasiya müdafiə edilmişdir.Kafedranın fəaliyyət göstərdiyi illər ərzində nevrologiyanın müxtəlif aspektlərinə həsr olunmuş bir sıra tədris-metodik vəsaitlər və 590- dən artıq məqalə və tezislər çap olunmuşdur.

Kafedranın professoru Z.M.Əliyev və dosentləri M.M. Məmmədova, R.N.Rzayev, A.K.Məmmədbəyli, N.N.A

basova uşaq nevrologiyasının müxtəlif aspektlərinə ai d elmi araşdırmalar aparmış və çoxsaylı məqalələr ç ap etdirmişlər.

2011-ci ildə I və II Nevrologiya və tibbi genetika kafedraları birləşərək Nevrologiya kafedrası adlanmağa başladı və həmin ildən bu kafedraya professor Ş.İ.Mahalov rəhbərlik edir.

Professor Ş.İ.Mahalovun son 20 ildəki elmi axtarışları epilepsiya sahəsinə yönəlmişdir. Azərbaycanda ilk dəfə olaraq epilepsiyanın əsaslı epidemiologiyasıayrı-ayrı klinik formalarının xarakteristikası,qadınlarda epilepsiya, epilepsiyalı xəstələrin həyat tərzi və keyfiyyəti öyrənilmiş və onun rəhbərliyi ilə dissertasiyalar müdafiə olunmuşdur (Həsənov N.F., Xəlilova D.M., Mehtiyeva Ş.N., İsayeva N.C, Məlikoba Ş.Y.). Bununla yanaşı , kafedrada irsi sinir xəstəliklərinin (Hantinqton xəstəliyinin, spino-serebellyar ataksiyaların və Tomsen miotoniyasının) molekulyar-genetik aspektlərinin öyrənilməsi istiqamətində aparılan işlər uğurla davam edir.

Professor Ş.İ.Mahalovun rəhbərliyi altında 1 doktorluq, 16 namizədlik dissertasiyası yerinə yetirilib. Hal-hazırda o, 1 doktorluq (Salayev K.Ə.) və4 tibb üzrə fəlsəfə doktoru dissertasiyasına (Cəfərova G.R., Sultanova T.Ə., Quliyeva Ş.Q., Səmədova R.F.) rəhbərlik edir. Alim 245-dən çox çap olunmuş elmi əsərin, o cümlədən, ”Epilepsiya” monoqrafiyasının müəllifidir. O, Azərbaycan Nevroloqlar Assosiasiyasının və Epilepsiya ilə Beynəlxalq Mübarizə Liqasının Azərbaycan Bölməsinin prezidenti olmuşdur.

2016-cı ildə Nevrologiya kafedrasında 1 doktorluq işi ( dos. A.K.Məmmədbəyli), 2017-ci ildə isə 2 t.ü.f.d. dissertasiya işi (N.C.İsayeva, Ş.Y.Məlikova) yerinə

yetirilib: 2017-ci ildə kafedranın işçiləri tərəfindən Azərbaycan Epilepsiya ilə Mübarizə Liqasının 4 regional (Gəncə, Quba, Şəki və Lənkəran) və Bakı şəhərində elmi-praktik konfransları keçirilib.Gənc nevroloqların hazırlanması kafedranın əsas strategiyalarından biridir. Belə ki, nevrologiya sahəsində, xüsusən də epilepsiya təcrübəsinin artırılması məqsədilə onların Türkiyə, Serbiya, Xorvatiya, Norveç,Gürcüstan və s. ölkələrdə epilepsiyaya həsr olunmuş beynəlxalq konfranslarda, elmi simpoziumlarda fəal iştirakına və epilepsiyada tətbiq olunan modern təcübənin ölkəyə gətirilməsinə nail olunmuşdur. 2001-ci ildə tanınmış dünya epileptoloqlarının da iştirak etdiyi III Qafqaz Yay Epilepsiya Məktəbi Azərbaycanda təşkilolunmuşdur.Kafedranın əməkdaşları tərəfindən ayda 2 dəfə əhaliyə pulsuz xidmət göstərilir.

2021-ci ildən etibarən nevrologiya kafedrasına Məmmədbəyli Aytən Kamal qızı rəhbərlik edir.



*Prof. A.K.Məmmədbəyli*

O Azərbaycan Respublikası əhalisində irsi əzələ distrofiyası xəstəliyi biokimyəvi və genetik polimorfizmlərin tədqiqi. ATU-nun Nevrologiya kafedrası və Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İns ilə müştərək elmi tədqiqat işi. Məktəbə qədər yaşlı uşaqlarda ambriopriuyanın formalaşmasının polimergik mexanizmləri ATU-nun Nevrologiya kafedrası və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi ilə müştərək elmi tədqiqat işi. Mukopolisaxaridoz xəstəliyinin erkən diaqnostikası və registrin hazırlanması. Azərbaycanda spinal əzələ atrofiynın diaqnostikası və registrin hazırlanması ATU və AMEA Genetik Ehtiyyatlar İnstitutu. Alsqeymer xəstəliyinin erkən diaqnostikası. 6-17 yaş arası baş ağrısı ilə olan uşaqların Azərbaycanda rast gəlməsi və öyrənilməsi. Neonatal qıcolmaların yayilması və risk fak-torların öyrənilməsi kimi lahiyələrdə iştirak etmişdir.

Kafedrada 2011-ci ildən 15 nəfər nevrologiya üzrə rezidentura keçib, 7 nəfər isə hal-hazırda rezidentura təhsilinə davam edir. Rezidentlərimiz Azərbaycanda və bir sıra xarici ölkə-lərdə konfranslarda iştirak etmişlər, sertifikat almışlar. Bundan başqa ATUREK konfransında iştirak edib, diplomla təltif olunublar. Ümmiyyətlə, Nevrologiya kafedrasının fəaliyyətini yekunlaşdıraraq, onun 4 vacib xüsusiyyatini qeyd etmək lazımdır-sosial istiqaməti, elmi-pedaqoji fəaliyyəti, praktik həkim-nevroloqların hazırlanması və elmi tədqiqatların aktuallığı. Böyük sosial əhəmiyyət kəsb edən xəstəliklərə xüsusi diqqət yetirlimişdir (beynin damar xəstəlikləri, epilepsiya, neyroinfeksiyalar, sinir sisteminin irsi xəstəlikləri və s.). Bu illər ərzində nevrologiyanın müxtəlif məsələlərinədair çoxsaylı monoqrafiyalar, dərsliklər, toplular, doktorluq və namizədlik dissertasiyalar, həmçinin yüzlərlə elmi əsərlər nəşr olunmuşdur.

# NEYROCƏRRAHİYYƏ KAFEDRASI



Azərbaycanda Neyrocərrahlıq kafedrası 1968-ci ildə III hospital cərrahlıq kafedrasının nəzdində Respublika klinik xəstəxanasının bazasında yaradılıbdır. Kafedranın ilk müdiri professor Əliqulu Behbud oğlu Ağalarov olmuşdur.



*Prof.Ə.B.Ağalarov*

Əliqulu Behbud oğlu Ağalarov 1920-ci ildə Naxçıvan Muxtar vilayətinin Ordubad şəhərində anadan olubdur. Azərbaycan Tibb Universitetini bitirdikdən sonra Hospital Cərrahlıq kafed-rasında assistent işləmişdir. 1958-ci ildə namizədlik disserta-siyası müdafiə etdikdən sonra həmin kafedranın dosenti ol-

muşdur. 1964-1968-ci illər ərzində Moskvada N.N.Burdenko adına Elmi-Tədqiqat Neyrocərrahlıq İnstitununda doktoranturanı bitirərək, tibb elmləri doktoru olmuşdur. 1968-ci ildə Hospital Cərrahlıq kafedrasının nəzdində ilk dəfə Neyrocərrahlıq kafedrasını yaratmış və ömrünün sonuna-yəni 1981-ci ilə kimi kafedranın müdiri olmuşdur. 1981-ci ildə vəfat etmişdir.

1985-ci ildə kafedra yeni açılmış, 250 çarpayılıq ixtisaslaşmış neyrocərrahlıq xəstəxanasına köçürülmüşdür. Kafedranın, eləcə də xəstəxananın rəhbəri t.ü.f.d. dosent Həsənov Rüfət Səlim oğlu olubdur.



*Dos.R.S.Həsənov*

Həsənov Rüfət Səlim oğlu 1938-ci ildə Bakıda anadan olubdur. Azərbaycan Tibb Universitetini bitirdikdən sonra Moskvada N.N. Burdenko adına Elmi-Tədqiqat Neyrocərrahlıq İnstitununda klinik ordinatura, sonra isə aspirantura bitiribdir. 1969-cu ildə Praqada namizədlik dissertasiyası müdafiə edibdir. 1969-1981-ci illər ərzində kafedranın assistenti, 1981-ci ildən isə dosent vəzifəsində çalışıbdır. 1985-ci ildən eyni zamanda İxtisaslaşmış Neyrocərrahlıq xəstəxanasının baş həkimi olubdur. O, neyrocərrahlığa aid 1 dərsliyin, 3 dərs vəsaitinin, 50 məqalə və tezisin müəllifidir. Rəhbərliyi altında 1 t.ü.f.d. müdafiə etmişdir. 2001-ci ildə vəfat edibdir.

2001-2019-cu illərdə kafedranın müdiri vəzifəsində t.e.d., prof. S.A. Etibarlı çalışmışdır.



*Prof. S.A.Etibarlı*

2019-cu ildən hal-hazırkı dövrə qədər Neyrocərrahiyyə kafedrasının müdiri vəzifsində Dos. R.S. Xəlilizadə çalışır.

Kafedrada Moskva və Sankt-Peterbruqun Elmi-Tədqiqat Neyrocərrahlıq İnstitutunun məzunları tibb elmləri namizədləri A.Ş.Vəlibəyov, G.Ə. Əsədov, R.Ə. Həsənov, R.Ə.Əliyev işləmişlər.



*Dos. R.S.Xəlilzadə*

Yarandığı vaxtdan indiyə qədər kafedrada 584 elmi iş: bunlardan 146 məqalə, 438 tezis olmuşdur. Məqalələrdən 44-ü xaricdə çap olunmuşdur.

Kafedrada son 10 ildə 109 elmi-pedoqoji iş çap olunubdur: 78-i respublika daxilində bunlardan 2-si dərs vəsaiti, 1-i metodiki vəsait, 52 tezis və 23 məqalə, 31 elmi iş xaricdə, bunlardan 11 məqalə və 20 tezis dərc olunubdur.

Kafedrada indiyə qədər 1 doktorluq, 15 fəlsəfə doktorluğu dissertasiyası, müdafiə olunmuşdur. Bunlardan 1 doktorluq və 5 fəlsəfə doktorluğu son 10 ildə müdafiə olunubdur.



Kafedranın əməkdaşlarından bir qrupu 1983-ci ildən bu günə kimi akademik A.Romodanov adına Ukrayna Elmi-Tədqiqat Neyrocərrahlıq institutu ilə birlikdə elmi-tədqiqat işi aparır. Ukrayna Neyrocərrahlar Assosasiyasının hər il keçirdiyi konfrans və qrultaylarda iştirak edir, tezis və məqalələr çap etdirir.

Kafedranın əməkdaşları 2017-2018-2019 cu illər ərzində Türkiyənin və Almaniyanın müxtəlif klinikaları ilə birgə 5 elmi konfrans keçiribdir.

2019-cu ildə Azərbaycan Tibb Universitetinin Neyrocərrahlıq kafedrasının yaranmasının 50 illiyinə həsr olunmuş “Beynəlxalq Elmi-Praktik Konfrans” keçirilibdir. Konfransda İngiltərədən, Almaniyadan, Türkiyədən və Ukraynadan gəlmiş neyrocərrah-alimlər çıxışlar ediblər.



I Müalicə-Profilaktika Fakültəsi

# OFTALMOLOGİYA KAFEDRASI



Göz xəstəlikləri kafedrası 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin nəzdində təşkil olunmuşdur. Bu zaman tədris işi müvəqqəti olaraq Varşavskiyə tapşırılmışdı. Sonralar kafedranın rəhbəri Orlov və 1923-cü ildən başlayaraq ömrünün sonunadək isə (1945) professor A.Q. Trubin olmuşdur. Qeyd etmək lazımdır ki, A.Q.Trubinin respublikamızda oftalmologiyanın inkişafı və yerli kadrların yetişdirilməsində böyük xidmətləri olmuşdur. Kafedranın yetişdirmələrindən tibb elmləri doktorları B.V. Buqulovu, X.O.Bulaçı, B.C. Məmmədovu, Q.K. Qambayı, A. Alferovu, Q.V. Ağayevi



*Prof. A.Q.Trubin*

və başqalarını qeyd etmək olar. Kafedranın sonrakı rəhbəri A.Q. Trubinin istedadlı tələbəsi professor Ümnisə Musabəyli olmuşdur. 1932-ci ildən etibarən oftalmologiya üzrə mühazirələri professor Ü. Musabəyli oxuyub. Professor Ümnisə Musabəyli simpatik innervasiyanın akkomodasiya əzələlərinə təsirini və uzağa akkomodasiyada fəal iştirakını aşkar edib. Onun rəhbərliyi altında kafedranın bir qrup əməkdaşları oftalmologiyanın çox mühüm problemi ilə - görmənin fiziologiyası və mühafizəsi ilə məşğul olub. 1935-ci ildə ilk dəfə olaraq Azərbaycan dilində göz xəstəlikləri dərsliyini Ü. Musabəyli yazıb. Ü. Musabəyli "Hamiləlik toksikozu zamanı göz dibində baş verən patoloji dəyişikliklər" adlı monoqrafiya yazmışdır.



*Prof. Ü. Musabəyli*

O, 1945-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib, 1959-cu ildə Dünya Sülh Şurasının fəxri fərmanı ilə təltif olunub. Ümnisə xanım Musabəyli həmçinin IV çağırış SSRİ Ali Sovetinə deputat seçilib. Ümumilikdə, 26 adda orden və medallarla – o cümlədən, Lenin ordeni ilə təltif olunub. Onun məsləhətçiliyi və rəhbərliyi altında 3 doktorluq, 13 namizədlik dissertasiyası müdafiə edilib.



*Prof. Z.T.Quliyeva*

1975-ci ildən 1991-ci ilədək kafedraya əməkdar elm xadimi professor Zəhra Tahir qızı Quliyeva rəhbərlik edib. O, 1958-ci ildə namizədlik, 1967-ci ldə doktorluq dissertasiyası müdafiə edib, 1972-1983-cü illərdə Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik edib, 1975-2000-ci illərdə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri olub, dəfələrlə SSRİ Ali Sovetinə, Bakı şəhər Sovetinə deputat seçilib. 1998-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinə sədrlik edib. Onun rəhbərliyi altında 2 namizədlik dissertasiyası müdafiə olunub.



*Prof.P.İ.Musayev*

1991-ci ildən kafedraya professor Paşa İsmayıl oğlu Musayev rəhbərlik edir. Onun namizədlik dissertasiyası "Buynuz qişanın bullyoz distrofiyası olan xəstələrdə interlamelyar kapsulokeratoplastika mövzusundadır. O, 1982-ci ildə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyası müdafiə edib. Professor P. Musayev Amerika Oftalmologiya Akademiyasının üzvü seçilib. O, eksperimental və kliniki təbabətdə yeni tədqiqat metodlarının işlənib hazırlanması və tətbiqinə görə Ümumittifaq Lenin Komsomolu mükafatına layiq görü-

lüb. Onun rəhbərliyi və məsləhətçiliyi altında 11 namizədlik, 2 doktorluq işi yerinə yetirilib.

Professor P.İ.Musayev Qəlbinur və tibb elmləri doktoru S.İ.Əkbərova çoxsahəli təsir mexanizminə malik virusəleyhinə "Aktipol" adlı preparat ixtira ediblər. Həmin preparat 2002-ci ildə Brüsseldə Böyük Qızıl medala və Belçika Maliyyə Nazirliyinin xüsusi mükafatına layiq görülüb. Buynuz qişa bulanmalarında Nano texnologiyalarının köməyi ilə korneal kök hüceyrə köçrülməsini həyata keçirmişdir.O, 2010-cu ildə əməkdar həkim fəxri adına layiq görülüb, həmçinin həmin ildə Rusiya Tibb Elmləri Akademiyasının fəxri doktoru seçilib.



Hal-hazırda kafedranın professor-müəllim heyəti 20 nəfərdən ibarətdir. Bunlardan 2-si tibb elmləri doktoru, 13 tibb üzrə fəlsəfə doktorudur.

I Müalicə-Profilaktika Fakültəsi

# ONKOLOGİYA KAFEDRASI



ATU-nun onkologiya kafedrasının əsası 1974-cü ildə qoyulmuşdur. Bundan əvvəl isə respublikada onkologiya üzrə həkim kadrlarının hazırlanması Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda 1947-ci ildə təşkil edilmiş onkologiya kafedrasında həyata keçirilirdi. Adı çəkilən kafedraya 1967-ci ildən ömrününü sonuna qədər (1973) Azərbaycan tibb elminin inkişafında əvəzsiz xidmətləri olan professor ***Arif Kərbalayı Tağı oğlu Abbasov*** (1928-1973) rəhbərlik etmişdir. 1974-cü ildə isə "Onkoloji xidmətin əsaslı surətdə yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin qərarı əsasında ATU-nun onkologiya kafedrası təşkil edilmişdir.

Azərbaycan Tibb Universitetinin onkologiya kafedrasının klinik bazası 1974-1979-cu illərdə Respublika Onkoloji Dispanseri, 1979-2007-ci illərdə A.T. Abbasov adına Bakı şəhər Onkoloji Dispanseri olmuş, 2006-cı ilin noyabr ayında Onkoloji Klinikanın təşkili haqqında qərar qəbul edilmiş, bu qərara əsasən 2007-ci ilin iyun ayında Azərbaycan Tibb Universitetinin

Onkoloji Klinikası yaradılmış və onkologiya kafedrası həmin klinikaya köçürülmüşdür.

Kafedranın ilk müdiri professor Məmməd Cabbar oğlu Abdullayev olmuşdur.

Professor *M.C. Abdullayev* (1924-1998) 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsini bitirmiş, 1948-1972-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Rentgenologiya, Radiologiya və Onkologiya İnstitutunda əvvəlcə cərrahiyyə şöbəsində həkim-ordinator, sonra isə eksperimental onkologiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, 1955-ci ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1969-cu ildə ona professor elmi adı verilmişdir. 1972-1974-cü illərdə Naxçıvan MSSR-in Səhiyyə Naziri vəzifəsində işləmişdir. M.C. Abdullayev 1974-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təşkil edilmiş onkologiya kafedrasına müdir təyin edilmişdir. O, bu vəzifədə 1990-cı ilə qədər işləmiş, 1991-1994-cü illərdə kafedranın professoru, 1994-cü ildən ömrünün sonuna qədər (1998) isə məsləhətçi-professoru vəzifəsində çalışmışdır. Professor M.C. Abdullayev 120-dən çox elmi işin müəllifi olmuşdur. Onun rəhbərliyi altında 1 doktorluq və 4 namizədlik dissertasiyası müdafiə edilmişdir.

1974-1992-ci illərdə onkologiya kafedrasının əməkdaşları tərəfindən 73 elmi iş, o cümlədən 3 tədris-metodik vəsait və 1 metodik tövsiyyə dərc edilmiş, kafedranın əməkdaşlarından 1 nəfər doktorluq, 3 nəfər isə namizədlik dissertasiyası müdafiə etmişdir.



*Akad.Ə.T.Əmiraslanov*

1993-cü ildən Onkologiya kafedrasına Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə Komitəsinin sədri, SSRİ Dövlət Mükafatı Laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının və Polşa Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Elmlər Akademiyasının xarici üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, SSRİ Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasinin N.N. Bloxin adına qızıl medalının təltifçisi, Polşa Tibb Elmləri Akademiyasının Albert Şvayster mükafatı laureatı, dünyanın bir çox nüfuzlu elmi assosiasiya və cəmiyyətlərinin üzvü və ali məktəblərinin fəxri doktoru, akademik Əhliman Tapdıq oğlu Əmiraslanov rəhbərlik edir.

Akademik Əhliman Əmiraslanov (1947) 1971-ci ildə ATİ-ni bitirmiş, bir neçə il Bakı şəhərindəki onkoloji klinikada əvvəl ordinator, sonra isə cərrahi şöbənin müdiri vəzifəsində işləmişdir. 1974-cü ildə SSRİ TEA-nın Ümumittifaq Onkoloji Elmi Mərkəzinin (ÜOEM) aspiranturasına daxil olan Ə.T. Əmiraslanov 1977-ci ildə vaxtından əvvəl “Bədxassəli şişlərə görə aşağı ətrafı amputasiya edilmiş xəstələrin reabilitasiyası” mövzusunda namizədlik dissertasyası müdafiə etmişdir. Aspiranturanı bitirdikdən sonra ÜOEM-də işə qəbul edilən Ə.T. Əmiraslanov 1984-cü ildə “Osteogen sarkomanın kompleks müalicə üsulları” mövzusunda doktroluq

dissertasiyası müdafiə etmiş, müxtəlif illərdə Moskvadakı Onkoloji Elmi Mərkəzdə kiçik elmi işçi, baş elmi işçi və professor vəzifələrində çalışmışdır.

Akademik Əhliman Əmiraslanovun onkologiyanın



müxtəlif sahələrinə dair apardığı çoxşaxəli sanballı elmi-tədqiqat işləri və aldığı uğurlu nəticələr ona dünya şöhrəti qazandırmışdır. Sümük şişlərinin kompleks müalicə üsullarının işlənib hazırlanması və klinik praktikaya tətbiqiI istiqamətində apardığı elmi-tədqiqat işləri nəticəsində bu xəstəliklərin müalicəsi nəticələri 4-5 dəfə yaxşılaşmışdır. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri Beynəlxalq, Ümumittifaq və respublika miqyaslı jurnal, qurultay, simpozium və konfrans materiallarında dərc edilmiş, əldə olunan nəticələr barədə dəfələrlə ABŞ, Fransa, Yaponiya, İtaliya, İsveç, Türkiyə, Almaniya, Rusiya, İsrail, Pakistan, Kanada, Avstriya, Yunanıstan və b. ölkələrdə keçirilən müxtəlif səviyyəli elmi forumlarda və nüfuzlu yığıncaqlarda məruzələr etmişdir. O, Moskvada işlədiyi 20 ilə yaxın

müddətdə "Dayaq-hərəkət aparatı şişləri olan xəstələrin reabilitasiya və müalicəsi" sahəsində əldə etdiyi nailiyyətlərə görə, dəfələrlə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin medalları ilə təltif edilmişdir. "Onkoloji xəstələrdə bərpa müalicəsi metodlarının işlənib hazırlanması və klinik praktikaya tətbiqi" istiqamətində apardığı elmi-tədqiqat işlərinin nəticələrinə görə 1986-cı ildə elm və texnika sahəsində SSRİ Dövlət mükafatına, eləcə də sümük sarkomalarının müasir müalicə üsullarını da özündə əks etdirən "Sümük sarkomaları" monoqrafiyasına görə 1985-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının məşhur N.N.Petrov adına mükafatına layiq görülmüşdür.

Monoqrafiyalardan "Опухоли костей" kitabı Moskvanın "Medisina" nəşriyyatında, "Bədxassəli sümük şişlərinin proqnozu" və  "Sümük şişləri" əsərləri isə Ankarada çapdan çıxmışdır. Eləcə də göstərilən mövzuda apardığımız elmi-tədqiqat işlərinin nəticələri 1987-ci ildə Nyu-Yorkda və 1989-cu ildə Tokioda müvafiq olaraq dünyanın məşhur onkoloqlarından W.F.Enneking və T.Yamamura kimi görkəmli alimlərin redaktorluğu ilə çap olunmuş sanballı rəhbərliklərin müvafiq bölmələrində öz əksini tapmışdır.

Akademik Əhliman Əmiraslanov onlarla yüksək ixtisaslı kadr potensialı yetişdirmişdir.

Akademik Əhliman Əmiraslanov sümük şişlərinə görə saxlayıcı və şikəstedici operasiyalar keçirmiş xəstələrin tibbi reabilitasiyası üsulları işlənib hazırlanmış və klinik praktikaya tətbiq edilmişdir. O cümlədən, aşağı ətrafların amputasiyasından sonra onkoloji xəstələrdə erkən birincili-daimi protezləşdirmə metodu işlənib hazırlanmış və klinik praktikaya tətbiq edilmişdir.

Budun ekzartikulyasiyası, qalça-qarınarası ayırma və kürək-döçarası amputasiya operasiyası keçirmiş xəstələr üçün təlim-məşq protezləri hazırlanmış və təkmilləşdirilmişdir.

Sümük şişlərinə görə saxlayıcı və şikəstedici operasiyalar keçirmiş xəstələrin tibbi reabilitasiyasının effektivliyi qiymətləndirilmişdir.

Sümük şişlərinə görə operasiya edilmiş xəstələrin psixosomatik vəziyyəti öyrənilmiş və onlara psixoterapevtik yardım üsulları işlənib hazırlanmışdır.

Bir amilli və çoxamilli analizlə bədxassəli sümük şişlərinin əsas növlərinin proqnostik amilləri göstərilmişdir.

Sümük şişləri zamanı hormonal-metabolik dəyişikliklərin öyrənilməsi istiqamətində tədqiqatlar aparılmış, sümük şişlərində cinsi steroid hormonların reseptorları öyrənilmişdir.

Bədxassəli şişlər zamanı şiş toxumasında şişn histotipindən və histodiferensiasiya dərəcəsindən asılı olaraq angiogenezin meyarları öyrənilməklə, angiogenezin xəstəliyin klinik gedişi və proqressiyasındakı (residiv- və metastazvermədə) rolu aydınlaşdırılmış, VEGF sekresiyasından asılı olaraq xəstəliyin proqnostik amillərinin parametrləri dəqiqləşdirilmişdir.

Yumşaq toxuma şişləri zamanı angiogenezin immunohistokimyəvi göstəricilərinin təyini əsasında xəstəliyin proqnostik meyarları optimallaşdırılmışdır.

Sümük şişləri zamanı kompleks klinik, instrumental, morfofunksional, statistik təhlil, axar sitometrik, immunohistokimyəvi göstəricilərin təyini əsasında bu

metodların klinik dəyəri qiymətləndirilmişdir. Tədqiatda sümük şiləri zamanı klinik, instrumental və statistik təhlillərlə yanaşı, şiş toxumasında axar sitometrik və immunohistokimyəvi meyarlar əsasında molekulyar genetik göstəricilərin də rolu aydınlaşdırılmışdır. əldə edilən nəticələr sümük şişlərinin müalicəsini daha səmərəli etmək üçün müalicə proqramına xüsusi təsir istiqamətli preparatların daxil edilməsinə imkan verə bilər.

Bədxassəli şişlərin erkən diaqnostikasında və proqnozunda parakrin və immun humoral faktorların kompleks klinik, instrumental, morfohistokimyəvi, immunohistokimyəvi və statisik təhlilini aparmaqla, prosesin təsnifat parametrləri obyektivləşdirilmiş və müalicə taktikası yaxşılaşdırılmışdır.

Yumşaq toxumaların fibrohistiositar şişlərinin proqnozunun optimallaşdırılması məqsədilə klinik-morfoloji meyarlar müəyyənləşdirilmiş və bu neoplazmalarda axar sitometriya üsulunun klinik əhəmiyyəti qiymətləndirilmişdir.

Akademik Əhliman Əmiraslanov elmi-pedaqoji məktəbinin yetirmə-ləri nəinki Azərbay-canın, eləcə də dünya-nın bir çox ölkələrinin nüfuzlu klinikalarında çalışaraq onun yolunu uğurla davam etdirirlər. O, 520-dən çox elmi əsərin, o cümlədən 14 monoqrafiya, 9 ixtira və səmərələşdirici təklif, 30 dərslik, dərs vəsaiti və



metodik ədəbiyyatın müəllifidir. Rəhbərliyi altında 57 dissertasiya işi, o cümlədən 12 elmlər doktorluğu, 45 tibb üzrə fəlsəfə doktorluğu dissertasiyaları müdafiə edilmişdir. Tələ-bələrinin bir qismi Azərbaycanda, digər qismi isə onun hüdudlarından kənarda, ABŞ-da, Rusiya Federasiyasında, Çexiyada, Belarusda, Macarıstanda, Türkmənistanda, Ukraynada, Tacikistanda, Moldovada və b. ölkələrdə fəaliyyət göstərir. Fəaliyyəti dövründə 20000-ə yaxın cərrahiyyə əməliyyatı icra etmişdir.

Akademik Ə.T. Əmiraslanov 1992-2015-ci illərdə, 24 ilə yaxın bir dövrdə Azərbaycan Tibb Universitetinə rəhbərlik edərək ölkəmizdə tibbi kadrların hazır-lanmasında, tibb təhsilinin və tibb elminin inkişafında böyük xidmətlər göstərmişdir. Onun rektorluğu dövründə Tibb Universiteti böyük tərəqqiyə nail olmuş, Universitetin maddi-texniki bazası və Beynəlxalq əlaqələri genişləndirilmiş, 4 klinikası yaradılmışdır və uğurla fəaliyyət göstərir.

Akademik Ə.T. Əmiraslanovun onkologiya kafed-rasına rəhbərlik etdiyi 1993-cü ildən hazırki vaxta qədər kafedranın əməkdaşları tərəfindən 951 elmi iş, o cüm-lədən 13 monoqrafiya, 4 dərslik, 6 dərs vəsaiti, 14 tədris-metodik vəsait, 4 metodik tövsiyyə çap edilmiş, 3 səmərə-ləşdirici təklifə vəsiqə alınmış, 7 tibb üzrə elmlər doktoru, 33 tibb üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edilmişdir. Hazırda 13 tibb üzrə fəlsəfə doktoru və 1 tibb üzrə elmlər doktoru elmi dərəcələrinə iddia olunan disser-tasiya işləri üzərində tədqiqatlar davam etdirilir.

Onkologiya kafedra əməkdaşlarının 2011-ci ildən etibarən 456 elmi və tədris-metodik işi, o cümlədən 116

məqalə, 332 tezis, 2 dərslik, 4 dərs vəsaiti, 2 monoqrafiyası dərc edilmiş, onlardan 132 elmi iş xarici, 287 elmi iş respublika elmi mətbuatında çap edilmişdir. Məqalələrdən 75-i respublika, 41-i xarici elmi mətbuatda çap edilmişdir. Tezislərdən isə 227-ü respublika, 105-i xarici elmi mətbuatda çap edilmişdir. Həmin dövrdə kafedrada 11 tibb üzrə fəlsəfə doktorluğu və 1 tibb üzrə elmlər doktorluğu dissertasiyaları müdafiə edilmişdir.

Kafedrada aparılan elmi-tədqiqat işləri üzrə 2 layihə 2013-cü və 2015-ci illərdə kompleks elmi-tədqiqat proqramları layihələri müsabiqəsinin qalibi olmuşdur.

2007-ci ildə Azərbaycan Tibb Universitetinin müasir standartlara uyğun qaydada tikilmiş, təmir edilmiş və ən müasir tibb avadanlığı ilə təchiz edilmiş onkoloji klinikası açılmış və istifadəyə verilmişdir. Klinikanın zəngin maddi-texniki bazası və yüksək hazırlıqlı kadr potensialı burada onkoloji xəstələrə yüksəkixtisaslı ixtisaslaşdırılmış tibbi yardım göstərməyə tam imkan verir. Klinikada 2 şöbə nəzdində aşağıdakı elmi bölmələr fəaliyyət göstərir: dayaq-hərəkət aparatı orqanlarının onkologiyası, onkoginekologiya, baş-boyun onkologiyası, torako-abdominal onkologiya və süd vəzisi onkologiyası. Bunlardan başqa, klinikada poliklinika və diaqnostika bölmələri, kimyəvi dərman terapiyası bölməsi, cərrahi blok və anesteziologiya bölməsi də fəaliyyət göstərir. Klinikada texniki cəhətdən mürəkkəb olan bir sıra operasiyalar müvəfəqiyyətlə yerinə yetirilir. Bura iri oynaqların rezeksiyası və endoprotezləşdirilməsi, kürəkdöşarası amputasiya, pankreatoduodenal rezeksiya, larinqektomiya və səs protezlərinin qoyulması, pulmonektomiya kimi müasir klinik onkologiyada yerinə yeti=rilən mürəkkəb cərrahi əməliyyatları misal göstərmək

olar. Klinikanın fəaliyyət göstərdiyi dövrdə 100 mindən çox xəstə stasionar müalicəsi almış, onlardan 32 mindən çoxunda cərrahi əməliyyat aparılmışdır.

Klinika həm də ATU-nun onkologiya kafedrasının bazasıdır. Burada ATU-nun I və II Müalicə-Profilaktika (V kurs – “Onkologiya” fənni və VI kurs – “Bədxassəli şişlərin kimyəvi terapiyası” seçim fənni), Stomatologiya (IV kurs – “Onkologiya” fənni), Hərbi-tibb (IV kurs – “Onkologiya” fənni), İctimai səhiyyə (Tibb bacısı işi IV kurs tələbələrinə – “Onkologiya” fənni, Fizioterapiya və tibbi reabilitasiya IV kurs tələbələrinə seçim fənni – “Onkoloji xəstəliklərin reabilitasiyası”) fakültələrinin tələbələrinə tədris həyata keçirilir. Klinikada həmçinin onkologiya ixtisası üzrə rezident hazırlığı həyata keçirilir.

Kafedranın professor-müəllim heyətinin tərkibi baş laborantlarla birlikdə 41 nəfərdən (1 akademik, 4 t.ü.e.d., professor, 15 t.ü.f.d., dosent, 8 t.ü.f.d., assistent, 1 assistent, 1 t.ü.f.d., baş laborant, 12 baş laborant) ibarətdir.



# SİTOLOGİYA, EMBRİOLOGİYA VƏ HİSTOLOGİYA KAFEDRASI



Respublikada sitologiya, embriologiya və histologiya elmlərinin formalaşma və inkişaf tarixi 1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetinin tibb fakultəsinin histologiya kafedrası ilə bağlıdır. 1930-cu ildə tibb fakultəsinin ayrılaraq müstəqil Azərbacan Dövlət Tibb İnstitutuna çevrilməsi ilə əlaqədar olaraq histologiya kafedrası sonuncunun tərkibinə daxil oldu. Histologiya kafedrasının yaradıcısı və onun ilk rəhbəri məşhur alman alimi R.Virxoffun tələbəsi və dünyanın ən görkəmli morfoloqlarından biri professor Moisey Samueloviç Milman olmuşdur (1919-1940-cı illər). Yaradıldıqdan sonrakı ilk illərdə kafed-



*Prof. M.S. Milman*

ra həddindən artıq ağır şəraitdə fəaliyyət göstərirdi: tədris auditoriyaları, mikroskoplar çatışmırdı, əyani-illüstrativ vəsaitlər demək olar ki, yox idi. Beləcə, 1919-1927-ci illərdə diqqətçəkən Histoloji İnstitut adını daşıyan kafedranın universitetin əsas binasınd 4 ədəd orta böyüklükdə dərs otağı vardı. Bu otaqlardan həm praktik məşğələlərin keçirilməsi üçün, həm də ümumi laboratoriya kimi istifadə olunurdu. 1927-1937-ci illərdə institut başqa binaya köçürülür. Burada fənnin praktik kursunun tədrisi üçün dəhlizdən istifadə olunur, ümumi laboratoriyada hüceyrə kulturaları üçün otaqlar formalaşdırılır. Bu illərdə kafedranın avadanlığı 25 mikrosko (onlardan çoxunu kafedra öz gücünə təsadüfi satıcılardan almışdı və nəticədə mikroskopların yalnız 15-i işə yararlı idi), 3 mikrotom, 3 termostat, cüzi miqdarda şüşə qab və metal ləvazimatlarla məhdudlaşırdı.

Bütün bu çətinliklərə baxmayaraq prof. M.S. Milman tərəfindən I kurs üçün ümumi histologiya və sitologiyadan, II kurs üçün isə xüsusi histologiya və embriologiyadan fənnindən yüksək keyfiyyətli mikropreparatların ətraflı nümayişi ilə proffesional səviyyədə mühazirələr oxunurdu. Eyni zamanda praktik məşğələlərdə tələbələr tədris preparatlarını dərindən öyrənir, histoloji preparatların hazırlanması texnikasının əsaslarına yiyələnirdilər. Tədris prosesində o zamanlar geniş yayılmış mikromühazirələr formasında izahat metodu, frontal sorğu, mikroskopda tədqiq olunan preparatların təsvirinin çəkilməsi, həmçinin kollokviumların qəbulundan geniş istifadə edilirdi.

Prof. M.S. Milmanın rəhbərliyi altında çox qısa bir müddətdə histoloji laboratoriya və hüceyrə kulturası laboratoriyası yaradıldı. Elə bununla da sitologiya üzrə, həmçinin birləşdirici və sinir toxumalarının histogenezi sahəsində elmi tədqiqat işlərinin əsası qoyuldu. Sitologiya üzrə sentriol və xromosomların histofiziologiyası, kariokinezin mexanizmləri, sinir hüceyrələrinin lipoid piqmentlərinin sitokimyası ətraflı öyrənildi.

Kafedranın histoloji laboratoriyasında təcrübədə geniş istifadə olunan nüvənin dəmir hematoksilinlə boyanması üsulunun modifikasiyası detalları ilə işlənib hazırlandı. Qanyaradıcı üzvlərin və neyroqliyanın histogenezinin öyrənilməsi də məhz o illərlə bağlıdır. Eyni vaxtda vegetativ sinir sisteminin ontogenezi, mərkəzi sinir sisteminin qocalması və daxili orqanların xərçəngi proseslərinin tədqiqi ilə bağlı elmi işlər dərc olunmuşdu. Prof. M.S. Milman ümumbioloji xarakterə malik bir sıra nəzəri bilikləri əsaslandırmışdır. Bunların arasında kariokinezin neyrogen nəzəriyyəsi, xərçəngin vegetativ nəzəriyyəsi, inkişafın trofik nəzəriyyəsi, qocalıq və ölüm, panenzemiya nəzəriyyələri də vardır. Qeyd etmək lazımdır ki, ilk dəfə M.S. Milman tərəfindən təklif olunan bəzi terminlər («bioreduktiv proseslər», «biopatologiya») sonradan elmi-tibbi ədəbiyyatda özünə yer eləmişdir.

1941-1964-cü illərdə kafedraya professor Nikolay Mixayloviç Kolesnikov rəhbərlik etmişdir. Onun elmi işləri sənaye nefti və aşqarları ilə bağlı peşə xəstəliklərinin histopatologiyası və immunomorfologiya sahələrini əhatə edirdi. II Dünya Müharibəsindən sonrakı illər kafedrada tədris metodikası əsasən yenidən qurulur, yeni tədris planları və proqramları işlənib hazırlanır. Tədris 20-ci və 30-cu illərdə olduğu kimi yalnız müalicə-profilaktika fakultəsinin rus bölməsində deyil, həmçinin bütün fakultələrin həm rus, həm də Azərbaycan bölmələrində aparılır. 1953-cü ildə kafedra yeni bazaya köçürülür və tədris prosesinin maddi təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşır.



*Prof.M.M.Abdullayev*

1965-1969-cu illərdə kafedraya professor Məmmədsadıq Məmmədağa oğlu Abdullayev rəhbərlik etmişdir. Bu müddət ərzində periferik sinirlərin kötükdaxili quruluşu və mieloarxitektonikası dərindən öyrənilmişdir.

1970-1982-ci illər ərzində kafedra müdiri dosent Hacı Seybət oğlu Abiyev olmuşdur. Bu müddətdə kafedrada ölkənin histoenzimoloji profilli aparıcı laboratoriyaları sırasında özünə yer tutmuş elmi-tədqiqat histo-kimyəvi laboratoriya təşkil olun-muşdur. Laboratoriyada yüksək elmi-metodik səviyyədə müxtəlif araşdırmalar aparılmış, o cümlə-dən qlükozanın histokimyəvi analizi , mono-aminoksidazanın , orqanizmin endokrin hüceyrələrinin sekretor fəaliyyətinin aktivliyi və s. öyrə-nilmiş, bəzi metodlar yeniləş-dirilib tədqiqat işləri proqramına daxil edilmişdir. Eyni dövrdə müalicəvi naftalan neftinin insan orqanları və hüceyrələrinə təsirinin öyrənilməsinə həsr olunmuş araşdırmalar silsiləsi yerinə yetirilmişdir.



*Dos.H.S. Abiyev*

Dos. H.S. Abiyevin rəhbərliyi dövründə sitologiya, histologiya və embriologiya fənnləri üzrə tədris proqramına uyğun olaraq metodik işləmələr hazır-lanmış, Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin nəşrinə başlanılmışdır.

Kafedrada ilk dəfə olaraq tədris otaqlarının əsaslı təmiri həyata keçirilmiş, konfrans zalı təşkil olunmuş və kafedra muzeyinin yaradılması üçün lazımi tədbirlər həyata keçirilmişdir. Dos. H.S. Abiyev histologiya və histokimya ixtisasları üzrə keçmiş SSRİ-də tanınmış alimlərdən biri olub, müasir elmi biliklərlə zəngin-ləşdirilmiş mühazirələr oxumuşdur.

Sitologiya, embriologiya və histologiya kafedrasının köməyi ilə respublikada tibbi-bioloji profilli müxtəlif elmi tədqiqat tədris müəssələrinin tərkibində histologiya və histokimya laboratoriyaları yaradılmışdır. Həmin laboratoriyalara histologiya kafedrasında xüsusi hazırlıq keçən elmi kadrlar başçılıq edirlər.



*Dos. K.İ. Mazitov*

1982-1989-cu illərdə kafedraya dosent Kamil İslamoviç Mazitov rəhbərlik etmişdir. Bu dövrdə kafedrada tədris-metodik işlərin yeni dərs proqramına uyğun olaraq yeniləşdirilməsi və təkmil-ləşdirilməsi həyata keçirilmişdir.

1989-1996-cı illərdə kafed-ra müdiri professor Bahəddin Məciroviç Qorxmazov olmuşdur. Bu illərdə həyata keçirilən işlər arasında in-san dərisi şişlərinin və şişəbənzər zədələnmələrinin histogenezi və differensial diaqnostikasının his--tokimyəvi və ultrastruktur aspekt-ləri ilə bağlı fundamental tədqiqat-ları xüsusi qeyd etmək lazımdır. Ekstremal şəraidə, xüsusilə orqa-nizmin dehidratasiyası zamanı hüceyrə, toxuma və üzvlərin fun--ksional morfologi-yasının müxtəlif aspektlərini əhatə edən tədqiqatlar da diqqətə layiqdir.



*Prof. B.M. Qorxmazov*

Böyük elmi potensiala malik olan prof. B.M. Qorxmazov kafedraya rəhbərlik etdiyi dövrdə yeni histo-

kimyəvi metodların tətbiqinə və elektron-mikroskopik tədqiqatların aparılmasına xüsusi diqqət yetirmişdir. Qısa müddət ərzində onun elmi rəhbərliyi və məsləhətçiliyi altında kafedra əməkdaşları ilə yanaşı (Həsənov İ.Ə., Ağayev Y.Ə., Şabanov Ə.H., Büniatzadə E.C., Muradov H.K., Sultanova T.Ə.), digər kafedraların, həmçinin Səhiyyə Nazirliyi və bir sıra ali təhsil müəssisələrinin əməkdaşları da (ATU-nun onkologiya, ümumi cərrahlıq, məhkəmə təbabəti, patoloji anatomiya, patoloji fiziologiya, operativ cərrahlıq və topoqrafik anatomiya, ortopedik stomatologiya, uşaq xəstəlikləri kafedraları, Elmi-Tədqiqat Mərkəzi; akad. Z.Ə.Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu, Ə.Əliyev adına Elmi-Tədqiqat Həkimləri Təkmilləşdirmə İnstitutu, Sumqayıt şəhər təcili yardım xəstəxanası, 19 saylı şəhər poliklinikası, N.Tusi adına APU, Müdafiə Nazirliyi məhkəmə-tibbi ekspertiza bürosu və s.) müvafiq dissertasiya işlərini yerinə yetirmişlər.

Prof. B.M. Qorxmazovun elmi yaradıcılıq fəaliyyətinin çiçəkləndiyi bir dövrdə qəflətən vəfat etməsindən sonra onun işləri yetirmələri prof. İ.Ə. Həsənov və prof. H.K.Muradov tərəfindən müvəffəqiyyətlə davam etdirilmişdir.

1996-1999-cu illər kafedraya dosent İlqar Əli-xan oğlu Həsənov rəhbərlik etmişdir. Kafedraya rəhbərlik etdiyi dövrdə o, APUD-sistemə aid elmi işləri davam etdirərək 1997-ci ildə Tbilisi Dövlət Tibb Universitetinin İxtisaslaşdırılmış Elmi Şurasında tibb elmləri doktoru elmi dərəcəsini almaq üçün «Norma və bədxassəli şiş transformasiyası şəraitində qadın cinsi yollarında en-dokrin sekresiya» mövzusunda dissertasiya işini müdafiə etmişdir. Göstərilən illər ərzində kafedranın preparat fon-dunun təzələnməsi və tədris proqramlarının tərtibi sahəsində məqsədyönlü işlər görülmüşdür.



*Prof. İ.Ə. Həsənov*

Qeyd etmək lazımdır ki, prof. İ.Ə. Həsənovun rəhbərliyi altında 1997-2002-ci illərdə «Normada və patologiyada diffuz endokrin sistem» mövzusunda elmi-tədqiqat işi yerinə yetirilmişdir. Bu mövzu üzrə 2 doktorluq (tibb elmləri doktorları İ.Ə. Həsənov və H.K. Muradov) 7 namizədlik dissertasiyaları müdafiə olunmuş, tədqiqatın nəticələri 73 elmi məqalə və məruzə tezisləri şəklində çap olunmuşdur. Bu zaman histoloji, histokimyəvi və elektron-mikroskopik tədqiqatların müasir metodlarından istifadə olunmuşdur. Kafedra əməkdaşlarının əldə etdikləri bəzi nəticələr histologiya üzrə dərslik və dərs vəsaitlərinə, sovet morfoloqlarının monoqrafiyalarına daxil edilmişdir.



*Prof.E.K.Qasımov*

1999-cu ildən hazırki müddətədək kafedraya professor **Eldar Köçəri oğlu Qasımov** rəhbərlik edir. Elə bu ildən kafedra Univesitetin 3 №-li tədris binasının 3-cü mərtəbəsini əhatə edən yeni bazaya köçmüşdür. Bununla əlaqədar olaraq kafedranın maddi-texniki təc-hizatı xeyli artmış, elmi və tədris-metodik işlərin inkişafı üçün böyük imkanlar yaranmışdır. Hazırda kafedrada 2 mühazirə zalı, konfrans zalı və kompüter mərkəzi, 24 tədris auditoriyası, 2 tədris laboratoriyası vardır. Bütün otaqlar və dəhliz müasir tələblər səviyyəsində təmir olunmuşdur.

Kafedrada tədris prosesi son illərdə xeyli müsbət dəyişikliyə uğramış, elmi cəhətdən yenidən əsaslandırılmış və metodik baxımdan məqsədəuyğun formalarla zənginləşdirilmişdir. Kafedrada tədris prosesi yüksək ixtisaslı mütəxəssislər tərəfindən üç dildə (Azərbaycan, rus və ingilis) aparılır. Fənnin öyrənilməsi üçün kafedrada mühazirə və təcrübə məşğələlərinin təqvim-mövzu planları əsaslı şəkildə işlənib hazırlanmış, hər mühazirə və məşğələ üçün tədris materiallarının həcmi, məzmunu və funksional quruluşu dəqiq müəyyənləşdirilmişdir. Tədris olunan bütün mövzular üzrə tədris-metodik işləmələr yenidən işlənmişdir.

Kafedranın mikroskop fondu xeyli genişləndirilmiş və bütün dərs otaqları mikroskoplarla təchiz olunmuşdur. Belə ki, tədris prosesi üçün müxtəlif ölkələrdə istehsal olunmuş 123 tələbə  mikroskopu, elmi işlərdə

istifadə üçün 1 ədəd rəqəmli fotokamera «Pixera Professional» (ABŞ) və Primo Star (ZEISS – Almaniya) işıq mikroskopu əldə edilmişdir.

Universitet rəhbərliyinin təşəbbüsü ilə tədris prosesinə elektron resursların tətbiqi dərslərin keyfiyyətində mühüm dəyişikliyə səbəb olmuşdur. Belə ki, mühazirələrin gedişi zamanı slaydların nümayişi multimedia sisteminin köməkliyi ilə həyata keçirilir. Həmçinin, bütün dərs otaqlarında yerləşdirilmiş kompyuterlər vasitəsilə təcrübə məşğələlərində tələbələrə dünyanın müxtəlif histoloji atlaslarından götürülmüş tədris şəkilləri, elektronoqramlar və sxemlər göstərilir. Bu zaman tələbələrin mikroskoplarla sərbəst işləməsinə, histoloji preparatları və elektronoqramları «oxuma» təcrübəsinə və təhlil etmə qabiliyyətinə yiyələnmələrinə xüsusi diqqət yetirilir.

Kafedrada aparılan təmir işləri, tədris-metodik işlərin yerinə yetirilməsi, fənn üzrə imtahanların təşkili və s. universitet rəhbərliyinin daimi nəzarəti altında həyata keçirilir.

Elektron mikroskopiya, immunhistokimya, gen mühəndisliyi və s. metodların inkişafı ilə əlaqədar olaraq



müasir elmi məlumatlar həddindən artıq çoxalmış və bunların tələbələrə çatdırılması zərurəti yaranmışdır. Hüceyrə biologiyasına həsr olunmuş müasir məlumatları özündə əks etdirən fundamental "Sitologiya" dərsliyi, kafedrada tədris olunan fənnlərə aid materialları əhatə edən üç dildə "Histologiya atlası", 11 dərs vəsaiti, 7 tədris -metodik işləmə və 2 səmərələşdirici təklif dərc etdirmişdir.

Kafedra əməkdaşları tərəfindən beynəlxalq və resrpukliya səviyyəsində keçirilən yeddi qrant müsabiqəsində qalib gələnlər arasında olmuşlar. Hal-hazırda Prof. Eldar Qasımovun rəhbərliyi ilə Azərbaycan Elm Fondunun Ümummilli Lider Heydər Əliyevin 100-illik yubileyinə həsr olunmuş "Əsas qrant müsabiqəsi-2023" (AEF-MCG-2023-1(43)) qalibi olmuş "Qrinyar reagentləri və benzamidlər əsasında sintez olunan ketonların xərçəng əleyhinə in siliko və in vitro tədqiqatları" lahiyəsi yerinə yetirilir.

Professor E.K. Qasımovun rəhbərliyi ilə "Respublikada biologiya və tibb sahəsində ultrastruktur tədqiqatların müasir səviyyədə təşkili üçün Transmission Elektron Mikroskopun, müvafiq cihaz, avadanlıq və materialların alınması" mövzusunda hazırlanan və ümumi dəyəri bir milyon ABŞ dolları olan Pilot layihəsi AR Prezidenti yanında Elmin İnkişaf Fondunun xətti ilə keçirilən müsabiqədə qalib gəlmişdir. 2012-ci ilin dekabr ayında Yaponyanın JEOL firmasının istehsalı olan JEM-1400 Transmissiya Elektron Mikroskopu, Almaniyanın LEICA firmasının istehsalı olan Ultracut EM UC7 markalı ultramikrotomu, Leica EM KMR3 markalı şüşə bıçaq hazırlayanı və lazımi reaktivlər əldə olunmuş və universitetin 4-cü tədris binasında yerləşdirilmişdir. Onun

rəhbərliyi ilə universitetin 21 kafedrasının, AMEA 6 institutunun, BDU-nun beş laboratoriyasının, Aviasiya akademiyasının, Gürcüstanın İlia Dövlət Universitetinin Kimyəvi Biologiya İnstitutları ilə pro-, eukariot orqanizmlərin, nanohissəciklərin quruluş xüsusiy-yətlərini, sonuncuların təsir mexanizmlərinin, müxtəlif patoloji və eksperimental şəraitlərdə hüceyrə, toxuma və orqanlarda baş verən dəyişikliklərin ultrastruktur səviyyədə öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri yerinə yetirilir. Hal-hazıra qədər JEM-1400 Transmissiya Elektron Mikroskopu ilə 40 000-dən artıq elektrno-qramma çəkilmişdir.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, ancaq 2023-cü ildə kafedranın əməkdaşları tərəfindən ümu-milikdə 49 elmi əsər, o cümlədən 1 Beynəlxalq patent, 13 ədəd məqalə Web of Science bazasına daxil olan yüksək impakt faktorlu jurnallarda dərc edilmişdir. Onlardan 13 ədədi, o cümlədən 3-ü Q1, 3-ü Q2, 1-i Q3, 3-ü isə Q4 kateqoriyalı jurnallarda çap olunmuşdur.

Professor E.K. Qasımovun rəhbərliyi ilə bir nəfər t.e.d (Şadlinskaya Ramidə Vaqif qızı); bir nəfər b.ü.f.d (Mehrəliyeva Gülşən Əkbər qızı); yeddi nəfər t.ü.f.d (Əkbərov Elçin Cingiz oğlu, Orucov Müşfiq Teyyub oğlu, Mürsəlova Sevil Ələmşah qızı, Quliyeva Nigar Taryel qızı, Əyyubova Günel Maarif qızı, Quliyev Təmraz Raqib oğlu, Əliyarbəyova Aygün Əliyar qızı) elmi dərəcəsini almaq üçün dissertasiya işlərini uğurla müdafiə etmişlər.

Kafedranın şəxsi heyətində də nəzərə çarpacaq dəyişikliklər baş vermişdir. Belə ki, əgər 1922-ci ildə kafedranın ştatında 8 işçi (kafedra müdiri, iki assistent, üç

prozektor və iki prozektor köməkçisi) vardısa, hazırda kafedranın 37 nəfər işçisi vardır. Onlardan 24 nəfəri akademik işçilər, o cümlədən 2-si professor, 5-i dosent, 8-i baş müəllim, 7-i assistent və 2-i isə baş laborantdır. Akademik işçilər içərisində 2 nəfər tibb üzrə elmlər doktoru, 8 nəfəri tibb üzrə fəlsəfə doktoru, 2 nəfər isə biologiya üzrə fəlsəfə doktorudur.

2023-2025-ci illərdə kafedrada yerinə yetirilməsi nəzərdə tutulmuş elmi işlər "Müxtəlif ürək qüsürları zamanı ciftin ana və uşaq tərəflərinin təşkilində iştirak edən strukturların, qan damarlarının, hemato-plasentar səddin, terminal xovların qarşılıqlı histotopoqrafiyası, histoloji, histokimyəvi, immunhistokimyəvi və elektron mikroskopik quruluş xüsusiyyətləri" mövzusu üzrə həyata keçirilir.

Fəaliyyət göstərdiyi bütün illər ərzində kafedrada yeddi min beş yüzdən çox məqalə dərc olunmuş və 49 dissertasiya işi hazırlanmışdır ki, bunlardan 7-si doktorluq və 42-si namizədlik elmi dərəcələrinin alınması üçün yazılmışdır.

Hal-hazırda sitologiya, embriologiya və histologiya kafedrası respublikada müvafiq profilli yeganə və aparıcı elmi müəssisə olmaqla, yüksək ixtisaslı həkim kadrlarının hazırlanmasında, morfologiya elminin qarşısında duran aktual problemləri özündə əks etdirən elmi-tədqiqat işlərinin aparılmasında öz fəaliyyətini uğurla davam etdirir.

# TİBBİ BİOLOGİYA VƏ GENETİKA KAFEDRASI



1919-1930-cu illərdə Bakı Dövlət Universitetində Tibb fakültəsinin yaranması ilə əlaqədar xüsusi biologiya kursları təşkil edilmiş, 1930-cu il 19 iyunda Bakı Dövlət Universitetinin tibb fakültəsi müstəqil, 2 fakültədən ibarət (müalicə-profilaktika və sanitariya-gigiyena) Azərbaycan Tibb İnstitutuna çevrildikdən sonra 1930-1964-cü illərdə biologiya kafedrası (sonradan ümumi biologiya adlandırılmış) fəaliyyət göstərmiş, daha sonra isə həmin kafedranın adı dəyişdirilərək "Tibbi biologiya və genetika" kafedrası adlandırılmışdır. Kafedra hazırda fəaliyyətini yeni tədris metodlarından istifadə etməklə, eyni zamanda elmi-tədqiqat işlərinə üstünlük verməklə davam etdirir.

Kafedraya 1930-cu ildən başlayaraq aşağıda adları göstərilmiş şəxlər rəhbərlik etmişlər.



*Prof. F.Ə. Rzabəyli*

1930-1933-cü illərdə və 1946–1964-cü illərdə professor Fətulla Əzizoğlu Rzabəyli (1885-1964). Professor 1911-ci ildə Odessanın Novorosiya Universitetini bitirmiş və 1913-cü ilə qədər həmin Universitetdə işləmişdir. Professor F.Ə. Rzabəyli kollektivin köməyi nəticəsində elmi-tədqiqat laboratoriyası, tələbə elmi dərnəyi yaratmış, bioloji preparat və tablolar əldə edərək kafedranı tədris vəsaitləri ilə zənginləşdmişdir. F.Ə. Rzabəyli parazitologiyanın tibbi biologiyadakı böyük rolunu göstərərək tədris zamanı bu sahəyə üstünlük verməyi məsləhət görmüşdür. O, 1950-ci ildə professor, 1960-cı ildə isə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.



*Prof.V.S.Yelpatevskiy*

1933-1944-cü illərdə professor Yelpatevskiy Vladimir Sergeyeviç (1877-1948) kafedraya rəhbərlik etmişdir.

1944-1946-cı illərdə professor Zəhra Mustafa qızı Şahtaxtinskaya (1895-1978).

Professor Z.M. Şahtaxtinskaya bu qısa dövr ərzində kafedranın elmi və pedaqoji potensialının genişləndirilməsi istiqamətində yorulmadan çalışmışdır.



*Prof. Z.M. Şahtaxtinskaya*

1964-1999-cu illərdə Azərbaycan SSR EA-nın müxbir üzvü (AMEA), əməkdar elm xadimi, professor Dəmir Vahid oğlu Hacıyev (1929-1999).



*Prof. D.V.Hacıyev*

Professor D.V.Hacıyev kafedraya rəhbərlik etdiyi dövrə kafedranın elmi pedoqoji istiqamətdə inkişafına, nüfuzunun yüksəkdirilməsinə, elmi-tədqiqat və tədris sahəsində təkmilləşdirilməsinə sərf etmişdir. Onun rəhbərliyi altında kafedranın əməkdaşları tərəfindən 10 artıq dərslik və dərs vəsaitləri yazılaraq tələbələrin istifadəsinə verilmişdir. O, 1964-cü ildə professor elmi adını almış, 1972-ci ildə əməktar elm xadimi fəxri adına layiq görülmüş və Azərbaycan Elmlər Akademiyasının (AEA) müxbir üzvü seçilmişdir.

2000-2002-ci illərdə akademik Məmməd Əhəd oğlu Salmanov. O, 1996-cı ildə professor elmi adını alıb, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilib.

I Müalicə-Profilaktika Fakültəsi

2001-2006-cı illərdə professor Əkbər Əskər oğlu Mehrəliyev Professor Ə.Ə.Mehrəliyevin kafedraya rəhbərlik etdiyi dövrdə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə proqramda dəyişikliklər edilmiş, yeni dərslik və dərs vəsaitlərinin nəşrinə nail olunmuşdur. O, 1997-ci ildə professor elmi adını alıb.



*Prof. Ə.Ə.Mehrəliyev*



*Prof. C.Ə.Nəcəfov*

2007-2017-ci illərdə professor Canbaxış Əli oğlu Nəcəfov. Professor C.Ə.Nəcəfov kafedraya rəhbərlik etdiyi dövrdə kafedranın bir neçə əməkdaşının fəlsəfə doktorluğu üzrə dissertasiya işinə rəhbərlik etmiş, tədris proqramında dəyişikliklər edilərək, yeni dərslik və dərs vəsaitləri nəşr olunmuşdur. O 1997-ci ildə professor elmi adını alıb.

2018-2023-cü illərdə dosent Vaqif Məhəmməd oğlu Kərimov. Onun kafedraya rəhbərlik etdiyi dövrdə “Tibbi biologiya və genetika” adlı dərs vəsaiti (azərbaycan, ingilis və rus dillərində) nəşr olunmuşdur.



*Dos.V.M.Kərimov*

2023-cü ilin payız smestrindən professor Yeganə Vaqif qızı Şəkərəliyeva. Professor Y.V.Şəkərəliyeva 2022-ci ildən kafedranın professorudur. Kafedrada 22 nəfər müəllim-laborant heyəti çalışır.



*Prof. Y.V.Şəkərəliyeva*

Professor Y.V.Şəkərəliyevanın rəhbərliyi ilə qısa dövr ərzində kafedranın elmi və pedaqoji potensialının genişləndirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün mühazirə zalı yaradılmışdır. Kafedrada tədris prosesi üç dildə - azərbaycan, ingilis və rus dillərində aparılır.

Kafedranın fəaliyyəti dövründə əməkdaşlar tərəfindən çoxsaylı dərslik və dərs vəsaiti (azərbaycan, ingilis və rus dillərində), metodik vəsait və monoqrafiyalar nəşr olunmuş, elmi tədqiqat işlərindən alınmış nəticələr üzrə ölkəmizdə və xaricdə müxtəlif elmi jurnallarda mütəmadi olaraq məqalə və tezislər dərc edilmişdir.

I Müalicə-Profilaktika Fakültəsi

# UŞAQ CƏRRAHLIĞI KAFEDRASI



1938-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda Pediatriya fakultəsi açılmış və elə həmin ildə də uşaq cərrahlığı kafedrası təşkil olunmuşdur. Kafedraya prof. İssak Solomonoviç Qinzburq rəhbərlik etmişdir. İ.S.Qinzburq böyük alim və geniş diapazona malik bir cərrah idi. O, 1924-cü ildə «Fəqərə sütununda plastiki əməliyyatlar» mövzusunda doktorluq dissertasiyasına görə Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülüb. Kafedra ilk dəfə təşkil olunarkən 3 nəfər əməkdaşdan – kafedra müdiri professor İ.S. Qinzburqdan, dosent A.Qəmbərovdan və assistent R.Q. Əkbərovdan ibarət olub. Kafedranın yarandığı gündən professor İ.S.Qinzburq pediatriya fakultəsində azərbaycan və rus



*Prof. İ.S.Qinzburq*

dillərində uşaq cərrahlığının tədrisini təşkil etmişdir. Kafedra yaranan ilk günlərdən uşaqlara travmatoloji, o cümlədən yanıqlar zamanı, irinli plevritlər, subtropik xəstəliklərin fəsadları (malyariya), sulu xərçəng, skarlatinanın ekstrabukal problemləri, yenidoğulmuşların inkşaf qüsurları və s. problemlərlə ətraflı məşğul olmağa başlamışdır. Kafedra uşaqlara cərrahi və travmatoloji praktiki yardımı göstərməklə bərabər həm də elmi–tədqiqat metodik-təşkilati işləri də həyata keçirirdi. Ancaq 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq uşaq cərrahlığı kafedrasının istər praktiki, istərsə də elmi-tədqiqat işlərinin intensivliyi nəzərəçarpacaq dərəcədə azalmağa başladı. Bu, hər şeydən əvvəl onunla əlaqədar idi ki, travmatologiya şöbəsi, müharibənin ilk günlərindən Qızıl Ordunun yaralı əsgərlərinə xidmət göstərən təliqə hospitalına çevrilmişdir. Digər tərəfdən respublikada olan cərrahlar, o cümlədən uşaq cərrahları dosent A.Qəmbərov, assistent Qlikşteyn, Q.Məmmədov cəbhəyə səfərbər olunmuş və müharibədə Vətən yolunda şəhid olmuşlar. Böyük Vətən müharibəsi qurtardıqdan sonra uşaq cərrahlığı kafedrası öz işini yenidən canlandırmağa başladı. Qeyd etmək lazımdır ki, İttifaqın Ali təhsil üzrə Komitəsinin və Azərbaycan respublikası Səhiyyə Nazirliyinin xüsusi qərarı ilə pediatriya və sanitar-gigiyena fakultələrində hospital cərrahlığının tədris olunması da uşaq cərrahlığı kafedrasına həvalə olundu. Bu isə əməkdaşların sayının artmasına və elmi-tədqiqat işlərinin planlaşdırılmasına böyük təkan verdi. Belə ki, kafedrada odlu silah yaralanmalarının fəsadlarının, osteoxondritlərin, döş qə-

fəsinin perixondritlərin, yara distrofiyalarının, qarın və döş boşluğu üzvlərinin odlu silah yaralanmalarının, fəsadlarının yaxın və uzaq nəticələri və s. məsələlərlə ətraflı məşğul olmağa başladı. 1952-ci ildə uşaq cərrahlığı kafedrası Semaşko adına xəstəxanaya 60 çarpayılıq şöbəyə köçürülmüşdür.

1946-cı ildən başlayaraq uşaq cərrahlığı kafedrası müharibənin ağrı-acısını görmüş dosent, assistent, ordinatorlarla öz sıralarını möhkəmləndirməyə başladı. Kafedranın elmi və praktiki bərpa olunmasında, İ.S. Qinzburqun elmi rəhbərliyi altında uşaq cərrahlığı üzrə ilk namizədlik dissertasiyası müdafiə etmiş dosent R.Q. Əkbərovun və Ə.M. Əlizadənin böyük xidmətləri olmuşdur. Professor İ.S.Qinzburqun elmi rəhbərliyi altında Ə.M. Əlizadə və N.Y. Axundov namizədlik və doktorluq, M.A.Lyaş, E.B.Qelfqard, C.Ş. Xəlilov, M.B. Vəzirəliyev,
A.M. Mustafayev isə namizədlik dissertasiyalarını müdafiə etmişlər.



1970-ci ildən isə uşaq cərrahiyyəsi hospital cərrahiyyəsindən ayrılaraq sərbəst fəaliyyət göstərməyə başlamışdır. 1970-1976-cı illərdə kafedraya rəhbərliyi tibb elmlər doktoru, professor Ə.M. Əlizadə etmişdir. O,1939-cu ildə N.Nərimanov adına ADTİ-nun müalicə-profilaktika fakultəsini bitirmişdir. Böyük Vətən müharibəsinin ilk günlərindən sonunadək cəbhənin ön sıralarında olan Ə.M. Əlizadə müharibədən sonra yenidən kafedraya qayıdıb. 1949-cu ildən namizədlik, 1964-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Ə.M.Əlizadə kafedranın assistenti, dosenti, professoru və 1970-ci ildən 1976-cı ilə kimi isə kafedranın müdiri işləmişdir. Ə.M.Əlizadə elmi-pedaqoji fəaliyyətlə yanaşı böyük ictimai işlə də məşğul olurdu. O, Azərbaycan uşaq cərrahlar cəmiyyətinin sədri, ümumittifaq cərrahlar cəmiyyətinin üzvü, N.Nərimanov adına ADTİ-nin tədris işləri üzrə prorektoru işləmişdir. Professor Ə.M.Əlizadə 100-dən çox elmi əsərin, ilk «Uşaq cərrahlığı» (1968) dərsliyinin və «Klinik cərrahlıq» kitabının müəllifidir. Onun rəhbərliyi altında bir neçə namizədlik dissertasiyası müdafiə olunmuşdur. Ə.M.Əlizadə 1976-cı ildə 61 yaşında qəflətən kəskin ürək çatışmamazlığından vəfat etmişdir.

1977-ci ildə uşaq cərrahlığı kafedrasının müdiri vəzifəsinə tibb elmləri doktoru, professor B.S.Babaşov seçilmişdir. Professor B.S.Babaşov 1929-cu ildə fəhlə ailəsində doğulmuşdur. O, 1952-ci ildə N.Nərimanov adına ADTİ-nun pediatriya fakultəsini bitirmişdir. Komsomolun göstərişi ilə Kazaxıstan şəhərinə işə

göndərilmişdir. B.S.Babaşov Kazaxıstanda kənd xəstəxanasında ordinatorluq- dan böyük Elmi-tədqiqat Eksperimental Cərrahiyyə Institutunun şöbə rəhbəri vəzifəsinə qədər yüksəlmişdir. O, Kazaxıstanın keçmiş paytaxtı Alma-Ata şəhərində Eks-perimental və Klinik cərrahiyyə institutunda namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir. B.S. Babaşov geniş diapazona malik bir cərrah idi. Onun əsas fəaliyyəti döş boşluğu üzvlərinin cərrahi xəstəliklərinin müalicəsi olimuşdur. Rəhbərliyi altında 5 namizədlik dissertasiyası müdafiə edilmişdir. Onun 2 monoqrafiyası və 170-dən çox elmi məqaləsi çap olunmuşdur. 1995-ci ildə səhəti ilə əlaqədar olaraq B.S.Babaşov öz ərizəsi ilə kafedra müdiri vəzifəsindən azad edilmişdir.



*Prof. B.S.Babaşov*



*Prof. Ç.B.Quliyev*

1996-cı ildən kafedra müdiri vəzifəsinə tibb elmləri doktoru, professor Ç.B.Quliyev seçilmişdir. Ç.B.Quliyev 1941-ci ildə ziyalı ailəsində anadan olmuşdur.1968-ci ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsini bitirmişdir. O, klinik ordinaturanı və aspiranturanı Leninqrad

şəhərində bitirmiş və 1973-cü ildə «Uşaqlarda kəllə-beyin travmasının kəskin və uzaq nəticələrinin klinika, diaqnostika və müalicəsi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ç.B. Quliyev 1974-cü ildə N.Nərimanov adına ATU-nun uşaq cərrahlığı kafed-rasına assistent, 1976-cı ildə isə həmin kafedranın dosenti seçilmişdir. 1982-1984-cü illərdə Leninqrad Pediatriya İnstitutunun uşaq cərrahlığı kafedrasında dok-toranturada olmuş və 1984-cü ildə «Uşaqlarda qarın boşluğu üzvlərinin kəllə-beyin travması ilə müştərək zədələnmələri» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, 1985-ci ildən 1995-ci ilə kimi N.Nərimanov adına ATU-nun uşaq cərrahlığı kafedrasının professoru, 1996-cı ildən isə həmin kafedranın müdiri işləmişdir. O, 290-dan çox elmi əsərin, o cümlədən «Uşaq cərrahlığı» dərsliklərinin (2000,2005), «Uşaqlarda qarın boşluğu üzvlərinin travmatik zədələnmələri», «Uşaq travmatologiyası»-2004, «Uşaqlarda exinokokkoz xəstəliyi»-2004, «Uşaqlarda kəllə-beyin travmaları»-2007 monoqrafi-yalarının, «Uşaqlarda cərrahi patologiyaların atlası»-2007, «Uşaq anesteziologiyası» -2019, «Uşaqlarda mədə-bağırsaq qanaxmaları»-2021, «Uşaqlarda qarın boşluğu üzvlərinin kəllə-beyin travması ilə müştərək zədələn-mələri»-2021 dərs vəsaitləri, 7 tədris-metodik vəsaitin, 12 metodik-tövsiyyələrin, 1 ixtiranın 7 səmərələşdirici təklifin müəllifidir. Onun rəhbərliyi altında çoxsaylı na-mizədlik və doktorluq dissertasiya yerinə yetirilmişdir. Professor Ç.B. Quliyev elmi praktiki fəaliyyəti ilə bərabər böyük ictimai fəaliyyətlə də məşğul olur. O,

1986-cı ildən 2013-cı ilə kimi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş uşaq cərrahı, müxtəlif illərdə Səhiyyə Nazirliyinin Cərrahiyyə üzrə Problem Komissiyasının sədri, Azərbaycan cərrahlar cəmiyyəti, Respublika cərrahlarının attestasiyasının, ATU-nun cərrahiyyə üzrə Problem Komissiyasının, Səhiyyə Nazirliyinin Elmi Şurasının, Respublika Ali Attestasiya Komissiyasının doktorluq və namizədlik dissertasiyasının müdafiə şurasının Pediatriya fakultəsinin və Böyük Elmi Şuranın, Universitetin Metodik Şurasının, «Cərrahiyyə», «Travmatologiya və Ortopediya» və «Хирургия, Восточная Европа», jurnallarının redaksiya heyətinin üzvüdür. Professor Ç.B. Quliyev 2017-ci ildə öz ərizəsi ilə konsultant professor vəzifəsinə keçmişdir.

Respublika uşaq cərrahlığının inkişafında tibb elmlər doktoru, professor M.A.Mustafayevin böyük xidmətləri olmuşdur. M.A.Mustafayev 1942-ci ildə ziyalı ailəsində doğulub. 1967-ci ildə N.Nərimanov adına ATU-nun müalicə-profilaktika fakultəsini bitirib. 1969-cu ildə namizədlik, 1986-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir.M.A.Mustafayev 1986-cı ildən N.Nərimanov adına ATU-nun uşaq cərrahlığı kafedrasının professoru işləmişdir. O, 2005-ci ildə vəfat etmişdir. Professor M.A.Mustafayev Azərbaycanda kombustiologiyanın əsasını qoymuşdur. Onun rəhbərliyi altında uşaqlarda termiki yanıqların müxtəlif aspektlərinə həsr edilmiş 5 namizədlik dissertasiyası müdafiə edilmişdir. O, bir çox monoqrafiyanın, dərsliyin, dərs vəsaitinin, metodik tövsiyənin, 3 ixtiranın və 120-dən çox elmi məqalənin müəllifi olmuşdur.

2017-ci ildən kafedra müdiri vəzifəsinə tibb elmləri doktoru, professor R.Ş. Poluxov seçilmişdir. 1992-ci ildə Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsini adlı təqaüdlə bitirmişdir. 1992-1994-cü illərdə Uşaq cərrahlığı kafedrasında klinik ordi-natura keçmiş, 1994-1998-ci illərdə kafedrada baş laborant, 1998-2007-ci illərdə assistent, 2007-2017-ci illərdə dosent vəzifələrində calışmışdır. Paralel olaraq 2000-2013-cü illərdə Uşaq cərrahlığı kafedranın tədris hissə müdiri olmuş, 2013-cü ildən ATU-nun Tədris Cər-rahiyyə klinikasının Uşaq cərrahiyyəsi şöbəsinin müdiri işləmiş, 2018-ci ildən indiyədək Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının baş həkimidir.


*Prof. R.Ş. Poluxov*

1999-cu ildə “Uşaqlarda qaraciyər exinokokkozunun cərrahi müalicəsinin yaxşılaşdırma yolları” mövzusunda namizədlik dissertasiyasını, 2017-ci ildə “Uşaqlarda xroniki qəbizliyə səbəb olan cərrahi patologiyaların diaqnostikası və kompleks müalicəsi” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2007-ci ildə dosent, 2019-cu ildə isə professor elmi adına layiq görülmüşdür.

2003-cü və 2009-cu illərdə Rusya Dövlət Tibb Universitetində endoskopik cərrahiyyə üzrə ixtisaslaşma kursu, 2011-ci ildə Secenov adına Moskva Tibb

Akademiyasında Uşaq koloproktologiyası və endoskopik cərrahiyyə kursu, 2012-ci ildə Secenov adına Moskva Tibb Akademiyasında Torakoskopik və robortlaşmış endocərrahiyyə kursu, 2015-ci il- Secenov adına Moskva Tibb Akademiyasında Uşaq cərrahiyyəsi və uroandrologiyası üzrə, 2019-cu ildə Seçenov Universitetinin nəzdində Liderlik və Səhiyyənin idarə-edilməsi İnstitutunda ixtisaslaşma kursu keçmişdir.

Indiyədək 220-dən çox elmi məqalənin, həmçinin “Uşaqlarda xroniki qəbizliyə səbəb olan cərrahi patologiyaların diaqnostika və müalicəsi” və “Uşaqlarda exinokokkoz xəstəliyi” monoqrafiyalarının, “Uşaq cərrahlığı fənninin tədris proqramı”-nın, 2 dərs vəsaitinin, 2 tədris metodiki vəsaitin, 3 metodiki tövsiyyənin və 1 səmərələşdirici təklifin müəllifidir.

60-dan artıq təlim, seminar, konqress, simpoziumlarda iştirak və məruzələr etmişdir. Bir cox konqresslərin və konfransların, o cümlədən Uşaq Cərrahlığı kafedrasının 80 illiyinə həsr edilmiş konfransın təşkilatçısı olmuşdur. O, Azərbaycan Səhiyyə Nazirliyinin uşaq cərrahiyyəsi ixtisası üzrə eksperti, Azərbaycan Uşaq cərrahları assosiasiyasının sədr müavini, Russiya Uşaq cərrahları assosiasiyasının, Russiya Endoskopik Cərrahiyyə assosiasiyasının, Russiya Pediatrlar İttifaqının, Azərbaycan AAK-nın Uşaq Cərrahlığı Üzrə yaradılan müdafiə Şurasının, ATU-nun Cərrahiyyə ixtisası üzrə oprabasiya Şurasının (sədr müavini), Cərrahiyyə üzrə problem komissiyanın, I Müalicə-profilaktika fakültə Şurasının üzvüdür.

Hazırda kafedra Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının IV mərtəbəsində 24 carpayılıq şöbədə fəaliyyət göstərir. Kafedra Respublika

uşaq cərrahlığı mərkəzidir. Ona görədə bütün sutka ərzində Respublika üzrə uşaq əhalisinə planlı, təcili və həm də təxirəsalınmaz cərrahi xidmət göstərir. Uşaq cərrahlığı kafedrasının bazasında əməkdaşlar tərəfindən aşağıdakı istiqamətlərdə açıq və endoskopik əməliyyatlar icra edilir:

-Yenidoğulanların cərrahiyyəsi -(öd yollarının atreziyası, qida borusunun atreziyası, nazik və yoğun bağırsağın atreziyası, ağciyərlərin adenomatoz malfarmasionu, diafraqmal yırtıq, omfasele, pilorostenoz, nekrotik enterokolit, yenidoğulanların nekrotik fleqmonası, epifizar osteomielit və s.).

-Təcili və təxirəsalınmaz cərrahiyyə - (kəskin appendisit, peritonit, kəskin bağırsaq keçməməzlikləri, boğulmuş qasıq yırtıqları, daxili qanaxma ilə müşayət olunan qarın boşluğu travmaları və s.).

-Abdominal cərrahiyyə - ( qida borusunun axalaziyası, mədə-qida borusu reflyuksu, öd yollarının sistoz genişlənməsi, öd daşı xəstəliyi, qaraciyərin sistoz törəmələri, dalağın hemolitik xəstəlikləri, nazik bağırsağın inkişaf anomaliyaları (ikiləşmə, divertikul ), yoğun bağırsağın adenomatoz polipozu, meqadolixokolon, Hişprung xəstəliyi, Kron xəstəliyi, xoralı kolit, qarnın ön divarının inkişaf anomaliyaları və s.)

-Torokal cərrahiyyə - ( ağciyərlərin exinokoku, emfizeması, anadangəlmə və qazanılma diafraqmal

yırtıqlar, traxeo-ezofageal fistula, ağciyərlərin bakterial destruksiyasının fəsadları və s.).



-Uroloji cərrahiyyə - (kriptorxizm, varikosele, hidrosele, hipospadiya, epispadiya, hidronefroz, sidik kisəsi-sidik axarı reflyuksu, infravezikal obstruksiya və s.).

-Proktoloji cərrahiyyə - ( pararektal fistulalar, anusun və düz bağərsağın atreziyası, rektovaginal fistula, düz bağırsağın polipi, anal çat, anal sfinkter çatmazlığı, düz bağırsağın sallanması və s.).

-Travmatoloji – ortopedik cərrahiyyə - (anadangəlmə bud-çanaq oynağı çıxığı, əyripəncəlik, sindaktiliya, polidaktiliya, borulu sümüklərin sınığı, sümük kristalları və s.).

-Digər cərrahi əməliyyatlar – yumuşaq toxumaların inkişaf qüsurları(hemangioma, limfangioma, lipomalar, epidermoidlər, amniotic atmalar, dermoid sistlər,teratomalar və s.) , irinli cərrahi infeksiya (osteomielit, fleqmona, furunkul, omfalit, hidroadenit, limfadenit, və s. ), üzün və boyunun inkişaf qüsurları (əyriboyunluluq, boynun ön və yan sist və fistulları, yuxarı dodağın defekti, ranula və s.), onurğa və baş beyin dəbəlikləri. Kafedranın bazası olan ATU TCK-

da uşaq cərrahları, mama-ginekoloqlar neonatal reanimatoloqların birgə fəaliyyətinin təşkili nəticəsində ağır inkişaf qüsuru olan yenidoğulanlara prenatal dövürdə və həyatın ilk saatlarında cərrahi yardım uğurla həyata keçirilir.

Bununla bərabər uşaq cərrahiyyə mərkəzi respublika üzrə elmi-metodik mərkəz hesab olunur. Burada ildə onlarla uşaq cərrahı hazırlanraq Respublikanın şəhər və rayonlarına praktiki işə göndərir. Kafedra əməkdaşları tərəfindən 100-dən çox elmi-metodik və elmi-tədris vəsaitləri çap etdirilərək praktiki səhiyyədə tətbiq edilmişdir. Kafedra əməkdaşları tərəfindən 30-dən çox monoqrafiya,59 tədris vəsaiti, 5 ixtira və 14 səmərələşdirici təklif öz həllini təcrübi təbabətdə tapmışdır. Kafedra əməkdaşları böyük elmi-tədqiqat işləri ilə məşğul olurlar. Son 20 ildə kafedra əməkdaşları tərəfindən 1000-dən çox elmi məqalələr, o cümlədən 200-dən çoxu xarici mətbuatda dərc olunmuşdur. Hazırda uşaq cərrahlığı mərkəzində 3 tibb elmlər doktoru, professor, 2 tibb üzrə fəlsəfə doktoru dosent, 2 tibb üzrə fəlsəfə doktoru və 5 ixtisaslı uşaq cərrahları,3 doktorant, 5 baş laborant fəaliyyət göstərirlər.

I Müalicə-Profilaktika Fakültəsi

# *TƏLƏBƏ HƏYATI*

**Tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə fakültə tərəfindən müxtəlif layihələr həyata keçirilmişdir.**

**2020 - 2021-ci tədris ilində :**

2020/2021 ci ildə I Müalicə-Profilaktika Fakültəsinin rəhbərliyi ilə Fakültə üzrə "Klinika Təməl Fənlərdə" və "Radioloji görüntülər necə oxunmlı?" adlı silsilə vebinarlar I MPF Tələbə Elmi Cəmiyyətinin "Klinika - Təməl fənlərdə" adlı təşkil etdiyi vebinarlar silsiləsindən birincisi 22 Yanvar 2021 -ci il tarixində histologiya fənninə aid keçirilmişdir. Vebinarlara ATU-nun I MPF, II MPF, Stomatologiya, Əczaçılıq, Hərbi tibb fakültələrindən 1000-ə yaxın tələbə qoşulmuşdur.

Vebinarların siyahısı :

1. I MPF dekanı, t.ü.f.d., dos. Elşad Novruzov əvvəlcə fakültə elmi cəmiyyətinin işinə, tələbələr tərəfindən bu qədər maraq yaranmış vebinarın təşkili üçün təşkilatı heyətə gələcək işlərində müvəffəqiyyətlər və uğurlar arzulamışdır. Daha sonra Histologiya, embriologiya və sitologiya kafedrasının əməkdaşları - t.ü.f.d., dos., Sultanova.Tamilla., və t.ü.f.d., b/m Quliyeva Nigar ilə birlikdə müxtəlif situasiya məsələlərinin müzakirəli izahı olmuşdur.

Vebinarda Kartegener sindromu , etiologiyası və klinikası, Vit C şatışmazlığı-kollagen sintezi, İmmun sistem , Cinsiyyət üzvlərinin histologiyası , Həzm

sisteminin histologiyası barədə müxtəlif situasion suallar üzərində müzakirə aparılmışdır. Konfransa 280-ə yaxın ATU tələbələri qoşulmuşdur.

2. I Müalicə Profilaktika Fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi "Klinika -Təməl Fənlərdə" silsilə vebinarlarından növbətisi 6 Fevral 2021-ci ildə Tibbi Genetikaya aid olmuşdur. Vebinara I MPF, II MPF, Stomatologiya, İSF, HTF, Əczaçılıq




fakültələrindən 200-ə yaxın ATU tələbəsi qoşulmuşdur. Vebinarın girişində I MPF Tələbə Elmi Cəmiyyətinin Rəhbəri, t.ü.f.d., dos. Rəna Rzayeva çıxış edərək TEC-in gələcək fəaliyyətlərində uğurlar arzu edib. Daha sonra isə I Uşaq Xəstəlikləri kafedrasının dosenti, t.e.d. Səbinə Qarayeva, Tibbi Biologiya və Genetika kafedrasının əməkdaşları b.e.n., dos. Süleymanova Leyla, b.e.n., dos.Əflatun Əzizov, b.ü.f.d., baş müəllim Ramin Həşimov tərəfindən birlikdə tibbi genetikaya aid müxtəlif mövzularda situassiya tipli məsələ-

lərin genetik izahı, klinik izahı eyni zamanda diaqnostikası, müalicəsi və s. haqqında ətraflı və geniş izah verilmişdir.

3. Fiziologiyaya həsr olunan "Klinika - Təməl Fənlərdə" vebinarı 13 Fevraı 2021-ci ildə keçirilmişdir. ATU I Müalicə Profilaktika Fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi silsilə vebinarlardan daha biri baş tutmuşdur. Müxtəlif fakültələrdən 200-dən çox tələbənin qeydiyyatdan keçdiyi vebinarda üstünlük daha çox yuxarı kurslarda olmuşdur. Vebinarın girişində I MPF dekan müavini Natiq Bayramov vebinarların təşkilinə görə müəllim və tələbələrə xüsusi təşəkkürlərini bildirmişdir. Daha sonra Normal Fiziologiya kafedrasının dosenti t.e.n. Aqil Əliyev, Patoloji Fiziologiya kafedrasının dosenti t.ü.f.d. Sərdar Əliyev, I Daxili Xəstəliklər kafedrasının dosenti t.ü.f.d Könül Məmmədyarova vebinarın gedişinə uğurlar arzulamış və müxtəlif klinik-situasiya suallarının izahı verilmişdir.

4. "Klinika Təməl Fənlərdə - Biokimya" adlı növbəti vebinar 27 fevral baş tutmuşdur. Vebinarın əvvəlində I Müalicə-Profilaktika Fakültəsinin dekan müavini Nigar Mikayılova vebinarın gedişinə uğurlar arzulamışdır. Daha sonra "II Daxili Xəstəliklər" kafedrasının assintenti Axundbəyli Gülarə, "Bioloji Kimya"




kafedrasından dosent, b.e.n. Aqil Orucov; assintent, b.e.n. Quliyeva Səbinə və kafedradının digər əməkdaşlarının iştirakı ilə həkimlik fəaliyyəti zamanı biokimya ilə qarşılaşacağımız məqamlar, biokimyəvi analizlərin düzgün interpretasiyası və digər məsələlər barədə müxtəlif məsələlərin izahı və müzakirəsi oldu. Vebinara ATU-nun müxtəlif fakültələrindən bütün kurslar üzrə 150-ə yaxın tələbə qeydiyyatdan keçmişdir. Tələbələrin həm "Zoom", həm də "Youtube" platformasından canlı izləmək imkanları olmuşdur.

5. Embriologiya fənninə aid "Klinika Təməl Fənlərdə" adlı vebinar 10 Aprel 2021-ci ildə keçirilmişdir. Vebinarda Histologiya, Sitologiya və Embriologiya kafedrasının müdiri , t.e.d , professor Eldar Qasımov və Uşaq Cərrahlığı kafedrasının assistenti, t.ü.f.d. Axundov Samir tərəfindən sinir sistemi, sidik - cinsiyyət və həzm sisteminə aid olan müxtəlif inkişaf anomaliyalarının həm embrioloji xüsusiyyətləri , həm də klinika, müalicəsi ətrafında geniş müzakirələr aparılmışdır. Sonda tələbələrə Embriologiya fənninin nə qədər vacib olduğunu, onların həkimlik fəaliyyətində əsas rol oynadığı qeyd olunmuşdur.

I Müalicə-Profilaktika Fakültəsi

6. "Klinika-Təməl Fənlərdə" adlı vebinar silsiləsinin növbətisi 18 Aprel 2021-ci idlə Mikrobiologiya fənninə həsr olunmuşdur.

Vebinarın girişi zamanı I MPF TEC-in rəhbəri dos. Rəna Rzayeva günümüzdə yoluxucu xəstəliklərin nə qədər vacib olduğunu və tələbələrin bu elmi öyrənməyinin həkimlik fəaliyyətlərini artımaqda böyük faydası olacağını bildirdi.




Daha sonra Tibbi Mikrobiologiya və İmmunologiya kafedrasının profesoru, b.e.d. əməkdar müəllim Emma Ağayeva, kafedranın dosenti b.ü.f.d Sara Qurbanova, Yoluxucu xəstəliklər kafedrasının dosenti, t.ü.f.d. Sulduz Əhmədova müxtəlif klinik situasion sualların izahını vermişlər.




7. Klinika Təməl Fənlərdə silsilə vebinarım sonuncusu 24 Aprel 2021-ci ildə Anatomiya fənninə həsr edildi. Vebinarın giriş hissəsində fakültə TEC-in rəhbəri dos. Rəna Rzayeva müəllim və tələbələri salamladı, fakültə dekanı Elşad Novruzovun salamları onlara çatdırıldı. Vebinara ATU-nun 100- ə yaxın tələbəsi qoşulmuşdular. Daha sonra İnsan Anatomiyası və tibbi terminologiya kafedrasının TEC rəhbəri dos. Ziyafət Seyidova tərəfindən anatomiya fənninin vacibliyi vurğulandı və konfransın işinə uğurlar arzu etdi. Vebinar öz işini I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı t.ü.f.d. , Teyyub Əliyev, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları t.ü.f.d., baş müəllim Bayramova İnarə və t.ü.f.d., baş müəllim Qafarova Rəna tərəfindən müxtəlif klinik situasion sualların izahı edilməsi ilə davam etdirdir

I Müalicə-Profilaktika Fakültəsi

# Rezident Həyatı Yaşa!




I Müalicə-Profilaktika Fakültəsinin "Rezident Həyatı Yaşa!" layihəsində iştirak edən tələbələrin bir qismi ilə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin görüşü olmuşdur. Rektor Öncə görüş iştirakçılarının bayramını təbrik edərək, onlara qarşıdakı dövrdə uğurlar arzulamışdır. Tələbələrin nəzəri biliklərlə yanaşı, praktik bacarıqlarının da inkişaf etdirilməsinin vacibliyini vurğulayan G.Gəraybəyli universitetdə bu istiqamətdə ciddi işlər aparıldığını bildimişdir ki, tələbələrimizin praktik vərdişlərinin təkmilləşdirilməsi üçün bir çox addımlar atılır ki, onlar rezidentura pilləsində əminliklə seçdikləri ixtisasa yiyələnə bilsinlər. Bu layihə haqqında yaxşı fikirlərin eşidilməsi və tələbələrin razı qalması ,bir daha sübut edir ki, gələcəkdə onun müddətini və sayını artırılmasında işlər görülməsini zəruridir.

I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov layihənin məqsədləri və təfərrüatları haqqında məlumatı bölüşmüşdür. Qeyd etmişdir ki, 3-14 fevral tarixlərində keçirilən layihə çərçivəsində 9 böyük baza iş görülmüşdür. Tələbələr praktika müddətində müxtəlif konsultasiya, konsiliumlarda və cərrahi əməliyyatlarda bilavasitə iştirak edərək bacarıqlarını bir qədər də



artırmışdılar. Qeyd edək ki, "Rezident Həyatı Yaşa" layihəsinin məqsədi tələbələrin fərdi inkişafına yardım etmək, onların sahib olmaq istədikləri ixtisasla öncədən tanış olmasına şərait yaratmaqdan ibarətdir. Layihənin həyata keçirilməsində ATU-nun Tədris Cərrahiyyə Klinikası, ATU-nun Tədris Terapevtik Klinikası, Onkologiya klinikası, Akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi, 2 saylı Psixiatrik kliniki xəstəxana, Respublika Dəri-Zöhrəvi dispanseri, Modern Hospital, Akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxana, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu kimi bazalar iştirak edib.

# I MÜALİCƏ PROFİLAKTİKA FAKÜLTƏSİNİN MİSSİYASI

50 illik bir tarixə sahib olan I Müalicə profilaktika fakültəsinin əsas missiyası dayanmadan və əzmlə Cəmiyyətin həyat keyfiyyətini milli və regional tələblərə uyğun yüksəltmək və elm dünyasına töhfə vermək məqsədilə ən yüksək səviyyədə tibbi təhsil verməklə hadisələrə tənqidi yanaşma bacarığı olan, xəstəlikləri differensasiya və müalicə edə bilən, profilaktik tibbi və cəmiyyətin sağlamlığını ön planda düşünən, kommunikasiya qurmağı bacaran, etik prinsipləri mənimsəmiş, mədəni cəhətdən püxtələşmiş, tədqiqatçı və məhsuldar həkimlər yetişdirməkdir.

# I MÜALİCƏ PROFİLAKTİKA FAKÜLTƏSİNİN MƏQSƏDİ

Bundan sonra da I Müalicə profilaktika Fakültəsinin əsas məqsədi Ölkə səviyyəsində tibb təhsili,tədqiqat, tibb xidməti göstərilməsində liderliyi qorumaq, beynəlxalq arenada qabaqcıl tibb fakültələri arasında yer tutmaq, həm milli, həm də beynəlxalq elm və texnologiya dünyası ilə təşkilati əlaqələri inkişaf etdirən, korporativ mədəniyyətə və güclü şəxsiyyətə malik, dünyanın keyfiyyətli universitetlərinə bərabər təhsil və tədqiqat müəsisəsi olmaq olacaqdır.

# MÜNDƏRİCAT

*I Müalicə-Profilaktika Fakültəsinə rəhbərlik etmiş dekanlar* ..........................................................................7

**Prof. Sədrəddin M. Kərimov**.....................................8

**Prof. Şamil B. Quliyev**.............................................11

**Prof. Törə Q. Qədirova**............................................ 14

**Prof. Bahadur. Ə. Baxşıyev**....................................... 16

**Prof. Arif M. Əfəndiyev**........................................... 18

**Prof. Həsən A. Sultanov**...........................................22

**Prof. Faiq İ. Cəfərov**................................................25

**Prof. Eldar K. Qasımov**........................................... 27

**Prof. Sabir C. Əliyev**...............................................30

**Dos. Nurməmməd Ə. Şıxəmmədov**........................... 33

**Prof. Abuzər Y. Qazıyev**...........................................35

**Dos. Qorxmaz X. Əhmədov** 38

*I Müalicə-Profilaktika Fakültəsinin hal hazırkı strukturu* 40

**Fakültənin Dekanı** 41

**Novruzov Elşad Mirzəli oğlu** ....................................41

**Fakültənin Dekan müavinləri** ...................................43

**Mikayılova Nigar Xizri qızı** .....................................43

**Quliyev Mahir İsa oğlu**............................................45

**Novruzova Gültəkin Əliabbas qızı**...........................46

I Müalicə-Profilaktika Fakültəsi
**Rüstəmova Sədaqət Məhyəddin qızı**.........................48
**İbrahimova Ləman Vahid qızı**................................50
**Qocayeva Səma Mirzə qızı** 51
**Zeynalov Babək Mehman oğlu** ...............................52
**Axundov Samir Fuad oğlu** 56
**Qurbanova Cəmilə Fazil qızı**..................................58
**Kərimova Türkan Baxış qızı** ..................................63
**Rezident Abızadə Rəşad Səfdər oğlu** ........................65
**Məmmədov Məhəmməd Rəsul oğlu**..........................68
**Cabbarlı Elbəy Emin oğlu**.............................. ........69
**Qafarova Nigar Elcan qızı**..... ....... ....... ........ ..........70
**Hüseynzadə Sərfinaz Eytram qızı** ...........................71
**Əzimli Rüfət Elman oğlu** ........ ...................... ........72
***KAFEDRALARIMIZ***..................................................74
**I CƏRRAHİ XƏSTƏLİKLƏR KAFEDRASI**...........75
**I DAXİLİ XƏSTƏLİKLƏR KAFEDRASI**...............87
**I MAMALIQ VƏ GİNEKOLOGİYA KAFEDRASI** .99
**III CƏRRAHİ XƏSTƏLİKLƏR KAFEDRASI**.......104
**I UŞAQ XƏSTƏLİKLƏRİ KAFEDRASI** ...............118
**ALLERQOLOGİYA VƏ İMMUNOLOGİYA KAFEDRASI**........ ........ ........ ........ ........ ........ ........ ..124
**ANESTEZİOLOGİYA VƏ REANİMATOLOGİYA KAFEDRASI**........ ........ ........ ........ ........ ........ ........ ..128
**DERMATOVENEROLOGİYA KAFEDRASI**........132
**İNSAN ANATOMİYASI VƏ TİBBİ TERMİNOLOGİYA KAFEDRASI**.......................140
**KLİNİKİ FARMAKOLOGİYA KAFEDRASI**.......154

**MƏHKƏMƏ TƏBABƏTİ KAFEDRASI** ................ 158

**NEVROLOGİYA KAFEDRASI** ............................ 167

**NEYROCƏRRAHİYYƏ KAFEDRASI** .................. 178

**OFTALMOLOGİYA KAFEDRASI**........................ 183

**ONKOLOGİYA KAFEDRASI**............................... 187

**SİTOLOGİYA, EMBRİOLOGİYA VƏ HİSTOLOGİYA KAFEDRASI**............................. 197

**TİBBİ BİOLOGİYA VƏ GENETİKA KAFEDRASI**........ ........ ........ ........ ........ ........ .....210

**UŞAQ CƏRRAHLIĞI KAFEDRASI** ..................... 215

***TƏLƏBƏ HƏYATI***.................................................. 227







